HACI AMİL MƏLİKOV

# FÜZULİ ŞERİYYATINDA İSLAM ƏHLİ-BEYTİNİN VƏ DİGƏR DİN MÜQƏDDƏSLƏRİNİN TƏRƏNNÜMÜ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Adiloğlu"
Bakı-2006

Az
M 51

Redaktor: **Qəni Hüseynov** (həkim Qəni)

M 51 **Hacı Amil Məlikov**
**FÜZULİ ŞERİYYATINDA İSLAM ƏHLİ-BEYTİNİN VƏ DİGƏR DİN MÜQƏDDƏSLƏRİNİN TƏRƏNNÜMÜ**
Bakı. «Adiloğlu» nəşriyyatı, 2006, 124 səh.

Müəllifin Füzuli ilə bağlı təqdim etdiyi bu kitab sayca ikincidir. Bu materialda müəllif oxucuları Füzuli şeirində İslam əhli-beyti (Həzrəti Məhəmməd s.ə.s., Həzrəti Əli (ə.s.), Fatimeyi-Zəhra (s.ə.) imam Həsən (ə.s.) və İmam Hüseyn (ə.s.) və digər din müqəddəsləri haqqında tərifli misraları ilə tanış edir, onların geniş şərhini verir və bununla da Füzuli şeirində din və dini şəxsiyyətlər haqqında sovet dövrünə məxsus cəfəng və mənasız uydurmaları bir kənara atır. Birinci kitabdan («Deyildim mən sənə mail») fərqli olaraq əsər müəllifi burada geniş elmi və dini ədəbiyyatdan istifadə etmişdir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

M $\frac{4705000000}{121-2006}$ qrifli nəşr

© A.Məlikov, 2006

***Bildim təriqi-eşq xətərnakdır, vəli***
***Mən dönməzəm bu yoldan, ölüm olsa qayəti.***
**Füzuli**

## GİRİŞ

Füzuli ədəbi irsinin ən rəngarəng çalarlarından biri də onun dinlə bağlılığıdır. Əslinə qalanda sufitəbiət, dərvişsifət adam olan Füzuli bütün dinlərin fövqündə idi. Din və ya dinlər şair üçün hələ səthi bir mərhələ olmaqla kafi və ya qənaətbəxş bir hal ola bilməzdi. Füzuli varlığı bütün dinlərdən süzülərək tək bir Allaha doğru aparan yolun yolçusu olmaq qayəsini özündə gəzdirirdi. Füzuli indi hər yerdə İlahi ruxsarın təcəllasını müşahidə edir, mə'nən hər an onun səcdəsində olmaq həvəsindədir. «Səcdədir hər qanda bir büt görsəm ayinim mənim, xah kafər, xah mömin tut, budur dinim mənim» deyən şair təkcə zahiri ibadətlə məhdudlaşmayaraq, məna aləminin ibadətinə qatıldığını bizə anladır, «büt» adlandırdığı İlahi ruxsarın önündə etdiyi səcdələrin heç bir şəriət normalarına uyğun gəlmədiyini, onların bütpərəst üçün də, mömінlər üçün də eyni olduğunu duyaraq bundan heyrətlənmiş oxucusunu «istəyirsən məni kafir hesab elə, istəyirsən mömin, mənim dinim budur!» – deməklə qəti bir şəkildə əmin edir.

Füzuli üçün əsil din, bu səbəbdən də məna aləmini ehtiva edən dindir. Bu belə də olmalıdır. Belə bir nəhəng aləmə malik olan şair üçün bu təbii haldır. Ona görə də biz heç bir cəhətdən Füzuli dünyasını tam əhatələyə bilmirik, onun hansı bir çərçivədə saxlamağın mümkün olduğunu təyin edə bilməkdə aciz qalmışıq. Xüsusilə də din məsələsində.

M.Füzuli əsərlərinə dair yazılmış giriş və ya söz önülərdə, Füzuliyə dair yazılmış monoqrafiyaların bir çoxunda müəlliflər tərəfindən şairin dünyagörüşündəki dini tutuma hər vəchlə etinasızlıq göstərilir, ona rişxənd nəzərlərlə baxılır, onu nöqsanlı, lazımsız, şair üçün eyibli bir hal kimi qiymətləndirir, dini

dünyagörüşünü şair üçün məhdudiyyət hesab edilir. Bu hələ bir yana qalsın, sovet dönəmində Füzulidə öyrənilməyə icazə verilən məsələlər də bu günə qədər həqiqi şəkildə öyrənilməmişdir.

Dini problemlərin işıqlandırılması şairin yaradıcılığının çox böyük bir hissəsini təşkil etsə də onlar bu günə qədər öyrənilməmiş şəkildə qalmaqdadırlar. Bunun səbəbini başa düşmək olar – sovet dövründə şairin dini baxışlarını öyrənib onu olduğu kimi təbliğ etmək qəti qadağan idi. Belə olmasaydı onun «Hədiqətüssüəda» əsəri ilk gündən öyrənilib istifadədə olardı. Odur ki, şairin istər dini, istərsə də qeyri-dini beyt və misraları məhsuldar, oxucuya az-çox həqiqəti deyə bilən bir yolla tədqiq edilməmişdir.

M.Füzulinin türkcə divanının 1958-ci il nəşrinə yazılmış «Füzulinin lirikası» adlı girişdə şairin misra və beytlərinin şərhinin nə gündə olmağını bir kənara qoyub Füzulinin dinə münasibətinə müəllifin hansı nəzərlərlə baxdığını bir neçə sitatla nümayiş etdirək. «... şair .... Həyat məhəbbətini, yaşayışı sevməyə, islam ehkamlarının hapram buyurduğu «dünyəvi» şeiri, musiqini, rəsmi və sairəni təbliğ edir. Dini ehkamlara, din xadimlərinə qarşı şairin daha açıq... deyilmiş qəzəlləri vardır» (səh.27). «Füzulinin lirik qəzəlləri incə və yüksək bir zövqün məhsulu olduğundan islam zehniyyətinin kökünə ziddir» (səh.31). «Bu tələbini şair ... «Leyli və Məcnun» poemasında o dərəcəyə çatdırır ki, qadınların islam qanunu ilə alınıb satılmasına, onlarla qul kimi rəftar edilməsinə qarşı açıq çıxış edir» (səh.32). Vəssəlam. Füzulidə dini tutuma belə münasibət olanda dini xarakter daşımayan şeirlərinin də arzuolunmaz və yarıtmaz halda tədqiq edildiyini təsəvvür etmək çətin deyildir. Müəllif elə bilir ki, «Könül səccadəyə basma ayaq təsbihə əl vurma» misrası ilə başlayan qəzəli islam dininin əleyhinə olan əsərdir, əksinə bu qəzəl dini-islam qanunlarının ən bariz, təkidli şəkildə təsdiq edilməsinin bir nümunəsidir.

Qəsidələrə həsr edilmiş Füzuli əsərlərinin IY cildində «Füzulinin qəsidələri» adlanan girişilə razılaşmaq heç bir vəchlə mümkün deyildir. Müəllif nə səbəbdənsə şairin dini dünya-



baxışlarını düşməncəsinə, süngü ilə qarşılayır, burada sanki giriş müəllifinin özünün dinə mənfi münasibəti özündə təzahür edir. Kitabdan bir neçə sitat gətirək. «Füzulinin ərəb və fars dillərində yazılmış qəsidələrinin mühüm hissəsi dini məzmundadır. Belə qəsidələrin şair tərəfindən yazılması ehtimal ki, onun dini mərkəzlərdə – Kərbəla və Nəcəf kimi şəhərlərdə xidmət etməsilə əlaqədardır. Həyata və hadisələrə son dərəcə ayıq baxan humanist sənətkarın dini təbliğata uyması şairin mühiti, həyat və məişəti ilə bağlıdır» (səh.15). «Şair Əflatunun, Loğmanın da həqiqəti başa düşə bilmədiklərini göstərdiyi kimi, dini əfsanələrə də inanmamağı... lazım bilir (səh.17). Əslində isə şairin qəsidələri başdan ayağa dini əfsanələrlə zəngindir. (İrəlidə onları görəcəyik.)

Müəllif şairin dini dünyagörüşlərinə malik olmasını Füzulinin zəif cəhəti adlandırır (səh.18). «Əsərin mühüm hissəsində dini mülahizələr irəli sürən şair yuxarıda göstərdiyimiz son dərəcə mütərəqqi fikirlərini dini görüşlərlə pərdələyir, zəiflədir» (səh.20).

Bizcə misal gətirilən bu sözlər Füzulinin başına ağıl qoymaqdan başqa bir şey deyildir. Giriş müəllifi şairin qəsidələrindəki tə'rifləri «mənasız tə'riflər» adlandırır (səh.7). İyirmi altı elmi dərindən bilən bir mövlanə haqqında deyilən bu sözləri düşüncə heç cürə qəbul etmək istəmir. Belə çıxır ki, M.Füzuli nə yazdığını və kimə yazdığını anlaya bilməyibmiş! Şairin «Ey Füzuli, odlara yansın büsati-səltənət, Yeydir ondan, Həq bilir, bir guşeyi-gülxan mənə» beytini əsas götürüb onun o zamankı Osmanlı sultan və hakimlərinə yazdığı mədhiyyə qəsidələrini mənasızlıq kimi qələmə vermək düz deyil. Çünki şairin bu beyti hökmdar sarayında yox, öz miskin evinin küllüyü kənarında oturub yaşamağı tərənnüm edir və hökmdarlara mədhiyyə yazmaq istəyinə zidd deyil. Tamamilə doğrudur ki, Füzuli mə'nən vüqarlıdır, əyilməzdir, haqqı nahaqqa, xeyri şərə qurban verməz, həmişə zülmə, cinayətə, haqsızlığa qarşı mübarizə aparmış və yeri gəldikcə hökmdar və hakimlərin başına ağıl qoymaqdan belə çəkinməmişdir. Bu aydındır. Bununla belə Füzuli məmləkətin, xalqın, elin rifahı üçün çalışıb əlləşən, insanlara

xoş güzəran bəxş etməyi özünün birinci dərəcəli işi hesab edən hökmdar və hakimləri tərifləyib öyməkdən də çəkinməmişdir. Bu Füzuliyə qədər də və ondan sonra da belə olmuşdur. Haqqı görmək gözləri olan hər bir kəs bu cür hərəkət edər. Bu nə üçünsə bizim o zamankı başabəla alimlərimizi qane etməmişdir. Onların nəzərincə hökmdarı tərifləmək olmaz. Bu alımlər necə olub ki, 70 il Leninin təriflənciyini görməyiblər. məgər Lenin, Stalin hökmdarlar deyildilər? Mayakovskiyə tə'rif demək olar, Füzuliyə olmaz? Əksinə, Füzuli gözəl əməllər sahibi olan bütün hökmdar və hakimlərin ən böyük məddahı olmuşdur. Bu təbiidir, burada əxlaqa zidd heç nə yoxdur. Şair onları o dərəcədə öyür ki, hətta onların əməllərini peyğəmbərlərin malik olduğu möcüzəvi davranış və keyfiyyətlərlə müqayisə etməkdən belə çəkinmir. Elə bizim də tədqiqatımızın müəyyən sahəsi işin bu cəhəti ilə bağlıdır.

Füzuli irsi ilə uzun illər tanışlıq nəticəsində biz şairin din və dini şəxsiyyətlərlə bağlılığına aid bir tədqiqat işi yazmaq zərurətinə gəlib çıxdıq. Bu çox vacibdir. Ona görə ki, indinin özündə də Füzulinin dinlə bağlılığını heç də inkar etməyən, ancaq bunu çox da «qurdalamağı» lazım bilməyən füzulişünaslar vardır və məsələnin mahiyyətinin onlar üçün də birdəfəlik aydınlaşdırılması baxımından belə işə girişmək hökmən lazımdır.

Təbiidir ki, «Deyildim mən sənə mail...» adlı kitabımdan fərqli olaraq bu mövzuda tədqiqat işi hazırlamaq üçün mütləq mövcud ədəbiyyatı nəzərdən keçirmək lazım idi və keçirdim. Aydınlaşdıra bildim ki, M.Füzulinin dinlə bağlılığına dair mövcud ədəbiyyatda müəyyən fikirlərin olmasını təsdiq etmək də olar, etməmək də olar. Yəni mövcud ədəbiyyatda şairin dini görüşləri ya mənfi bir hal kimi, oxuculara lazım olmayan bir düşüncə tərzi kimi qiymətləndirilir, ya onlara münasibət bildirilmir, ya da onlar səhv bir istiqamətdə şərh edilirlər ki, bunun da səbəbinin nə olduğunu biz yuxarıda göstərdik. Mövcud ədəbiyyatda məsələnin belə vəziyyəti problemin işlənməsinin zəruri olduğunu bir daha bizə anlatdı.

M.Füzulinin dinə bağlılığı, daha dəqiq desək, Məhəmməd (s) peyğəmbər əhli-beyti və digər din müqəddəsləri haqqındakı baxışları əsasən onun qəzəlləri və qəsidələrində toplanmışdır.



M.Füzulinin qəzəl və qəsidələri üzərində apardığımız təhlil bizə bəzi nəticələr çıxarmağa imkan verdi. Bu ondan ibarətdir ki:

- Məhəmməd peyğəmbərin əhli-beyti, yəni on dörd məsumun istər qəzəllərdə, istərsə də qəsidələrdə mədh edilməsi birbaşadır, yəni məhz onlar mədh edilirlər, nə onlar başqa adamlara, nə də başqa adamlar onlara bənzədilmirlər;

- başqa din müqəddəsləri, yəni başqa dinlərdən olan peyğəmbərlərin vəsfi isə birbaşa deyil. Onlar tərif olunan subyektlərin mədh edilməsi üçün bir vasitə rolunu oynayırlar, bir ayna timsalı kimi çıxış edirlər. Şairin qəzəllərində vəsf edilən canan, dilbər, gülrux, dilruba və s. bu kimi İlahi Sevgilinin çağrıldığı belə adların malik olduğu keyfiyyətlər və hansısa başqa peyğəmbərlərin möcüzəvi davranış və hərəkətləri üzvi şəkildə əlaqələndirilir. Qəsidələrində isə yuxarıda qeyd etdiyimiz həmin subyektləri şairin hakimiyyəti altında yaşadığı osmanlı sultan və hakimləri əvəz edirlər. Onların gördükləri işləri şair Adəmdən başlamış Məhəmmədə (s) qədər bizə mə'lum olan bütün peyğəmbərlərin əməllərilə müqayisə özü də dahiyanə ustalıqla müqayisə etməklə vəsf edir. Hər addımda peyğəmbərlərin nümunə və timsal kimi göstərilməsi sübut edir ki, onlara şair ömrü boyu çox güclü daxili bir məhəbbət bəsləmiş və insanlığın bütün əməllərinin bu peyğəmbərlərin davranış və hərəkətlərinə uyğun bir şəkildə vücuda gəlməsini arzulamış və bunu şeirlərində ifadə etməyə çalışmışdır.

- bir qism beytlərdə heç bir övliya və peyğəmbərin adı çəkilməsə də onun kimə aid olması orada olan ifadə və terminlərin xarakterindən ayırd etmək olur. Bunun üçün kiminsə adının çəkilməsinin bir əhəmiyyəti yoxdur.

- bəzi qəsidələr vardır ki, orada çoxlu peyğəmbərlərin və onların çoxlu möcüzələrinin adları sadalansa da onların kimə aid olmasını təxmin etmək olmur, yəni hansı hakim və hökmdarlar şairin mədhində onlara nisbət tutulduğunu təyin etmək çətinlik təşkil edir.

Şairin qəsidələrində müqəddəslərlə bağlı olan heç də bütün beyt və misraları təhlil etməyi məqsəd seçməmişik. Ona görə ki, səbəbləri bunlardır: birincisi, qəsidələrində elə beytlər vardır ki, mə'nasını tam aydınlaşdıra bilmədik, bu səbəbdən söz xatirinə həmin beytlərdən mənasızlıq doğura biləcək bir hala yol verməmək üçün vaz keçdik; ikincisi, mə'nası tam aydın olan beytləri də şərh etməyi məqbul saymadıq. Əks təqdirdə bu oxucuda bir həvəssizliyin yaranmasına səbəb olardı; üçüncüsü, o beytlərdir ki, orada bir hadisə şərh olunandan sonra başqa yerlərdə həmin hadisəni təkrar-təkrar daha şərh etməmişik ki, oxucunun yorulmasına imkan verilməsin.

Bu tədqiqat işini hazırlayanda respublika EA-nın elmi işçisi, Füzuli qəsidələrinin məşhur tədqiqatçısı V.Feyzullayevanın tədqiqatlarından gen-bol bəhrələnmişik. Odur ki, ona bu münasibətlə çox-çox təşəkkürlər edirik.

Söz yox ki, bu tədqiqat işində nöqsan və qüsurlar da az deyildir. Ona görə də bu iş haqqında tənqidi fikir və mülahizələrini bildirməyi oxucudan təvəqqe edirik.



# 1. FÜZULİNİN BEYTLƏRİNDƏ MƏHƏMMƏD PEYĞƏMBƏR (S.Ə.S.) VƏ ONUN ƏHLİ-BEYTİNİN TƏRƏNNÜMÜ

Füzuli irsini dərindən öyrənəndə aydın olur ki, onun əsərlərində Məhəmməd peyğəmbər (s) və onun əhli-beytinin tərənnümünə geniş yer verilir. Bu əsasən Füzulinin qəzəl və qəsidələrində özünü aydın göstərir. Bu islam müqəddəslərinin şair tərəfindən vəsfi təbiətcə bir-birindən fərqlənirlər. Şairin qəzəllərində peyğəmbər (s) və onun əhli-beytinə həsr edilən bütöv qəzəl və ayrıca beytlərdə güclü hiss və həyəcan, onların şəxsiyyətinin xarakterizə edilməsində fövqəladə çalarlar, qeyri-adi bənzətmələr, batini və ya ezoterik deyilişlər özünü bariz şəkildə nümayiş etdirir. Bu misralarda peyğəmbər (s) və onun əhli-beytinin həyat tarixçələri haqqında informasiyalar çox arxa planda dayanır, sanki onları oxucu hiss etmir. Burada ən çox şairin onlara olan sevgisi, heç nə ilə hesablaşmayan, onlara canını fəda etməyə hazır olan şairin ürək döyüntüləri, sönməz eşqi öz ifadəsini tapmışdır.

Qəsidələrində isə peyğəmbər və onun əhli-beytinin tərənnümündə yuxarıda dediyimiz hiss və ruhi keyfiyyətlər nisbətən itkinci dərəcəli rolda çıxış edirlər. Qəsidələrin böyük qismində şairin mədh etdiyi şəxsin keyfiyyətləri, islam müqəddəslərinin şəxsiyyətləri ilə müqayisə etmək daha üstün yer tutur. Şairin burada hiss və həyəcanları artıq indi bir növ yerlərini dəyişib mədh etdiyi hakimin və padşahın şəxsiyyətini tərənnüm etmək məqamında cəm olunurlar. Düzdür, bütün qəsidələr haqqında bunu demiək olmaz. Qəsidələrin xeyli qismi Həzrəti Əli əleyhissalamın vəsfinə və onun şəxsiyyətinin digər dinlərdən olan peyğəmbərlərə nisbət verilməsinə həsr olunur.

Füzulinin əsərlərində Məhəmməd peyğəmbərə (s.ə.s) məhəbbət izharları geniş yer tutur. Şairin bütün dillərdə yazdığı divanlarda bunu aydın izləmək mümkündür. Əlbəttə, elə düşünmək olmaz ki, bütün misralarda Məhəmməd səlavatullahın adı

çəkilir və oxucu da bununla beytin və ya misranın kimə aid olduğunu aydınlaşdırır. Bu belə deyil. Daha çox Füzulinin əsərlərində Məhəmməd (s) haqqında istənilən qədər qəzəl və beytlərin olmasına baxmayaraq orada peyğəmbərin adı çəkilmir və yaxud az-az hallarda çəkilir. Qəzəlin və ya ayrıca beytlərin Məhəmməd (s.ə.ə.) aid olduğunu islam peyğəmbərinin malik olduğu zahiri və daxili keyfiyyətlərini, onun hədislərini, ayrı-ayrı kəlamlarını, peyğəmbərlə bağlı baş verən və islam tarixinin ayrı-ayrı hadisələrini və s. bilməklə təyin etməklə mümkündür. Bu çox çətin bir işdir. Əgər misrada, beytdə bir şəxsin vəsfi onun adı göstərilmədən verilirsə, onda bunun kimə aid olduğunu həmin adamın malik olduğu keyfiyyətləri, onunla əlaqədar olan hadisələri dəqiq bilməklə aydınlaşdırmaq olar. Fikrimizi aydınlaşdırmaq üçün iki misal gətirək.

**«Bəhrə lö'lö dişlərin vəsfin məgər söylər səba**
**Kim, qulaq tutmuş sədəf içrə düri-ğəltan ona».**

və yaxud:

**«Bir yerdə sabit et qədəmi-etibarimi**
**Kim, rəhbəri şəriət ola müqtəda mana».**

Bu beytlərdən birincisi Məhəmməd peyğəmbər (ə.s.), ikicisi isə on ikinci şiə imamı Sahibəzzəmana (ə.s.) aiddir. Ancaq göründüyü kimi bunlarda heç bir ad göstərilmir. Onların şərhini isə irəlidə verəcəyik.

Dediklərimizin təsdiqi üçün yavaş-yavaş başlayaq ulu peyğəmbərimizin (ə.s.) şərəfi xüsusunda Füzulinin dahiyanəliklə düzüb qoşduğu misraların gözdən keçirilməsinə. Onu da qeyd edək ki, aşağıda baxacağımız qəzəl Füzulinin türkcə divanında Məhəmməd peyğəmbər (ə.s.) haqqında ilk bütöv qəzəldir.

**Əşrəqət min fələkil bəhcəti şəmsün və biha,**
**Mələə-aləmə nurən və sürurən və bəha.**

Göründüyü kimi şairin bu türkcə qəzəlinin birinci beyti ərəbcə qələmə alınmışdır. Ona görə də bir müəllif kimi mən divanda bu beytin tərcüməsini olduğu kimi verirəm: «Gözəllik fələyindən parlaqlıq və günəş doğdu, aləmi gözəllik, şadlıq və işıqla doldurdu». Mə'nanın peyğəmbərə aid olması şübhəsizdir, çünki bütün sonrakı beytlər bunu təsdiq edir.



**Çıxdı bir gün ki, ziyasında təmamiyi-rüsul,**
**Oldu məhv öylə ki, xurşid şüaində süha.**

Şair göstərir ki, bir gün elə bir günəş çıxdı ki, bütün peyğəmbərlər onun ziyasında sönüb getdilər, necə ki, günəş aləmləri işıqlandıran zaman Süha ulduzu eləcə günəşin şüaları içində məhv olub gedir.

Hamıya aydındır ki, Məhəmməd peyğəmbər (s.ə.) peyğəmbərlərin sonuncusudur və ondan sonra bir daha peyğəmbər cəmiyyətdə görünməyəcəkdir. Bu səbəbdən şair islam peyğəmbərini günəşə, ona qədərki peyğəmbərləri isə ulduzlara nisbət tutmuş, Məhəmmədlə (ə.s.) müqayisədə bütün peyğəmbərlər silsiləsinin öz əhəmiyyətini necə itirməsini günəş şüalarının təsiri altında Süha ulduzunun gözdən itməsi ilə müqayisə etmişdir.

**Oldu bazari-cahan rövnəqi bir dürri-yetim**
**Ki, degil iki cəhan hasili ol dürrə baha.**

Yetim bir dürr və ya inci iki dünyanın bəzəyi və ya rövnəqi oldu, ancaq onun dəyəri o qədər yüksəkdir ki, iki cahanın dəyəri bir yerə toplanılsa, həmin dürri-yetimin qiymətini ödəyə bilməz. Bu beytin müxtəsər zahiri izahıdır. Lakin onun batini parametrləri Məhəmməd rəsulillahın mənəvi siması ilə tam uyğunluq təşkil edir.

Dəniz dibindən çıxarılan sədəflərin bəzilərinin içində bir dənə yekə inci olur, tək olduğuna görə ona «dürri-yetim» - «yetim dürr» adını vermişlər. Ona çox vaxt lölöi-şəhvar, yəni şahlara layiq olan dürr də deyirlər. Belə iri inci müstəsna dərəcədə baha qiymətə satılır. Şair belə bir mənzərəni peyğəmbərin vəziyyəti ilə ustalıqla bağlamağa nail ola bilmişdir.

Məhəmməd peyğəmbər də dünyaya gələndə nə bacısı, nə də qardaşı olmamış, tək övlad olmuşdur. Özü də o kiçik yaşlarında olan zaman valideynləri vəfat etmiş və yetim qalmışdır. O, əmisi Əbü Talibin (Allah ondan razı olsun!) himayəsində boya-başa çatmışdır.

Rəvayətə görə Allah-təalanın Məhəmmədə (ə.s.) məhəbbəti o qədər yüksək olmuşdur ki, onun boynunda valideynlərin haqqının olmasına razı olmamış, onu valideynlərdən uşaq ikən məhrum edərək «dürri - yetim» mərtəbəsinə qaldırmış, onun iki dünyanın

– həm yaşadığımız aləmin, həm də axirət aləminin rövnəqinə və bəhasına – yəni dəyərinə çevrilməsinə qərar vermişdir. Şair göstərir ki, bu dürri-yetimin dəyəri elə yüksəkdir ki, iki aləmin dəyəri birlikdə götürülsə belə onun bahasını-qiymətini ödəyə bilməz. Buna görədir ki, Məhəmmədə (ə.s.) Həbibullah, yəni Allahın hər iki aləmdə dostu ləğəbi verilmişdir.

**Rütbeyi-hikməti-me'raci-kəmalinə görə,**
**Hükəma firqeyi-dun, fəlsəfə cəm'i-süfəha.**

Kamalı və hikmətinin aliliyi ilə müqayisədə şair həkimləri (hikmət sahiblərini) alçaldılmış və zəlil edilmiş bir firqə, fəlsəfəni isə səfehlər yığnağı hesab edir. Bu həqiqətən belədir. Peyğəmbərlərin,xüsusilə də Məhəmməd rəsulillahın danışığında, nitqində, hətta zarafatlarında belə, adicə salamlaşmağında belə yüksək və dərin mə'na ən bariz bir şəkildə özünü göstərirdi. Deyirlər bir gün Məhəmməd rəsulillah məclisdə məzəli bir əhvalat danışır. Məclisdəkilər gülməkdən uğunub gedirlər. Özlərinə gələndə peyğəmbərə deyirlər ki, ya Rəsulillah, sən bizi şənləndirdin. Peyğəmbərimizsə ciddi görkəm alaraq cavab verir ki, düzdür, mən sizi şənləndirdim, amma haqdan başqa bir söz demədim.

**Münhiyi-mərifəti hal dililə daim**
**Qılır əhli-həqə əsrari-həqiqət inha.**

Xəbər vermək mə'rifəti, ürəyinin halı və vəziyyətləri ilə o, daim həqiqət əhlinə həqiqətin sirlərini çatdırmaqdadır.

Füzulinin bu beyti Məhəmməd rəsulillahın uzun dövr ərzində Allahdan vəhylərin, ona ilhamlanmış müxtəlif əhkamların möminlərə çatdıran olması haqqında bəzi məsələlərdən danışmağı zəruri edir.

Bizə gəlib çatmış məlumata görə Məhəmməd əleyhissalama Allah vəhylərini insanlara çatdırmağın spesifik keyfiyyətləri xas imiş. Məhəmməd (ə.s.) Allahın vəhyini Cəbrayıl mələkdən alarmış. Bu zaman peyğəmbərin ürəyi gedər, ağzı köpüklənər, xarici aləmlə əlaqəsi kəsilər və rəngi saralıb əbasını başına çəkərmiş. Cəbrayıl mələk o qədər qorxunc qiyafəyə malik imiş ki, insan bu qorxuya tab gətirməyərək ölə bilərmiş. Bu səbəbdən Allahın hökmü ilə Cəbrayıl mələk peyğəmbərlərə



adi insan qiyafəsində nazil olarmış. Məsələn, rəvayət olunur ki, peyğəmbər ailəsinin Dəhyəyi Kəlbi adlı bir dostu var imiş. Cəbrayıl mələk adətən onun qiyafəsində peyğəmbərgilə gələrmiş. Deyirlər ki, peyğəmbərimizə vəhyin nazil olması çox ağır bir yük təsirini bağışlarmış. Deyilənə görə peyğəmbər (ə.s.) bir dəfə dəvə üstündə yol gedərkən ona vəhy nazil olmuş və onun ağırlığına dəvə tab gətirməyərək dal ayaqları üstündə yerə çökmüşdü. Peyğəmbər ayılandan sonra ona nazil olan ayələri oxuyardı, ətrafdakılar isə dərhal həmin ayələri daş, sümük, ya xurma qabıqları üzərində yazarmışlar.

**Necə təqrir edəyin vəsfini bir şahın kim,**
**Ona vəssaf ola «Yasin»ü müərrif «Taha».**

Bir şahın ki, vəsf edəni «Yasin», onu tanıdanı «Taha» ola, onu mən necə tərənnüm edə bilərəm.

Şair göstərmək istəyir ki, Qurani-Kərimin «Yasin» və «Taha» surələri peyğəmbərimizin hüsni cəmalı şərəfinə nazil olmuşlar.

«Yasin» surəsi «Quranın qəlbi» hesab olunur və «ya» ( ى ), «sin» ( س ) hərflərinin birləşməsindən əmələ gələn surədir. Belə fikir vardır ki, Yasin surəsinin adı «əs-saffat» surəsindəki 130-cu ayədə olan İlyasinin (yəni İlyas peyğəmbərin) adından götürülmüşdür.

Quran tədqiqatçısı Məhəmməd Əli öz əsərlərində Yasin sözünün insana müraciətən formalaşdığı üçün onu «ya insan» kimi oxunduğunu iddia etmişdir.

Lakin çoxlu tədqiqatçılar vardır ki, yekdilliklə «Yasin» surəsinin Məhəmməd əleyhissəlamın şərəfinə iki sübut vasitəsilə nazil olduğunu söyləyirlər. Birinci sübut odur ki, «Yasin» surəsinin adı «Ya seyyidəlmürsəlin», yəni «Ey peyğəmbərlərin seyidi!» müraciətindən götürülmüşdür. İkinci sübut isə ondan ibarətdir ki, «Yasin» surəsindəki birinci (يس), yəni «Ya Sin» ayəsindən sonra Quran oxuyan şəxs ənənəvi olaraq əlavə «Səlləllahu əleyhi alihi və səlləm» – «Peyğəmbər və onun ailəsinə salamlar olsun» ifadəsini işlədir. Şair başqa bir beytində bunu daha orijinal dillə ifadə edir: «Səndən bulubdur Əhmədi-Mür-

səl məqami-qürb, Təhsini «Ya» vü «Sin» ilə təşrifi «Ta»vü «ha». Əhmədi-Mürsəl *(Məhəmməd ə.s.-a verilən məşhur addır)* Sənə olan yaxınlığı Səndən əldə edibdir, Onun «Ya» və «Sin» ilə alqışlanması və «Ta» və «ha» ilə şöhrətə çatması bunun sübutdur.

**Ey Füzuli, rəhi-şər'ini tut ol rəhbərin,**
**Bu təriq ilə zəlalətdən özün eylə rəha.**

Şair özü özünə həm məsləhət verir, həm də xəbərdarlıq edir: sən o rəhbərin şəriət yolundan bərk-bərk tut ki, bu yolla özünü zəlalət girdabından xilas edəsən. Başqa bir bütöv qəzəlində də ulu peyğəmbərimiz vəsf olunur.

**Ey olub me'rac bürhani-ülüvvi-şan sana!**
**Yerə enmiş göydən istiqbal edib fürqan sana.**

Ey getdiyi me'rac şöhrətinin dəlili olan kəs! Bunun səbəbindəndir ki, Quran sənin pişvazına çıxmaq üçün göydən yerə enmişdir.

Mübahisə doğurmayan bir məsələdir ki, peyğəmbər əleyhissəlam göyə merac edərək Allah-təalanın görüşünə getmişdir, özü də cismən, bütün bədəni ilə birlikdə. Peyğəmbərimizin bədəni allahın hökmü ilə yerindən qalxmış, evindən Məscid-əlhərama getmiş, oradan da Qüdsdəki Məscid-ələqsaya yollanaraq oradan da səmaya ucalmışdır. Peyğəmbərin gedib çatdığı yer kainatın sonu hesab olunur. Astronomiya elmi sübut edir ki, həmin yerə işıq sürətilə *(saniyədə 300.000 km)* me'raca gedib gəlmək üçün 4 milyard il tələb olunur. Lakin ulu peyğəmbərimiz bu yolu işıq sürətilə də yox, ondan da sürətlə xəyal sürətilə qət edib evinə qayıtmışdır. Hətta bizə belə bir məlumat gəlib çatmışdır ki, peyğəmbər əleyhissəlam me'raca getmək üçün evindən çıxarkən masanın üstündəki dolçaya toxunaraq onu yıxmış və su dolçadan axmışdır. Peyğəmbərin me'rac səfəri elə sürətlə baş vermişdi ki, peyğəmbər qayıdıb evinə daxil olarkən görür ki, su dolçadan hələ də axmaqlda davam edir.

Məhəmmədin (ə.s.) me'racı ona qədərki me'raclardan ən şərəflisidir. Belə ki, ona qədər Adəm, İdris, Harun və İsa peyğəmbərlərin də me'racları olmuş, lakin onlar geri qayıtmamışlar.



Lakin sonuncu peyğəmbərin me'racı həm də geri qayıtmaqla yadda qalmışdır.

Məhəmməd peyğəmbərin me'racının başqa meraclardan üstün olduğunu bilən şair onun başqa peyğəmbərlərdən üstün olmasının dəlili kimi göz önünə çəkir.

Qurani-Kərimin çoxlu adları vardır ki, onlardan biri də fürqandır, yəni halalla harama fərq qoyandır.

**Hiyni-də'vayi-məhəbbət müddəi ilzaminə,**
**Cahil ikən el, kəmali-elm bəs bürhan sana.**

El, insanlar cəhalət içində olarkən onların düşmən iddialarına məhəbbət dili ilə cavab verməyin sübut deyildirmi ki, cahillər arasında sənə o Böyük Yaradan kamil bir elm bəxş etmişdir.

Bu həqiqətən belədir. Kafirlər içində islamın yayılması bir çox cəhətdən Məhəmməd əleyhissəlamın ağılasığmayan gözəl əxlaqı sayəsində mümkün olmuşdur. Rəsulillah yol gedərkən ona dəfələrlə daş-kəsək, yoluna tikanlar və şüşə qırıntıları atmış və olmazın əziyyətlər verərmişlər.

Bir qoca qarı da həmişə belə hərəkətlərə yol verər, küçədən keçən peyğəmbərin başına zibil, kül və s. atmaqla onu həmişə təhqir edərmiş. Sonradan peyğəmbərin (ə.s.) yolu üstündə bu qarı daha görünmür. Məhəmməd (s.) bunun səbəbini öyrənir və onun xəstə olduğunu bilir. Ona baş çəkir, keyfini soruşur, onun üçün Allahdan şəfalar diləyir. Bunu görən qoca qarı peşiman halda yerindən qalxıb peyğəmbəri qucaqlayıb bağrına basır, ayaqlarına düşür və bağışlanılmaq diləyib islam dinini qəbul edir.

Bir dəfə bir kafir ərəb məscidə girib onu murdarlayır. Peyğəmbər səhabələri onu cəzalandırmaq istəyəndə peyğəmbər qoymur, o adamı yanına çağırıb oturdur, ona xoş sifət, nəvaziş göstərir, keyfini soruşur. Bundan heyrətlənən ərəb peşiman olur və Rəsullillaha islamı qəbul etdiyini bildirir.

Bir dəfə Peyğəmbər rəsullillah küçədən keçirmiş. Çiynində də gözəl Nəcran xələti var imiş. Bir cahil ərəb kobud tərzdə xələti çəkib peyğəmbərin çiynindən salır və bu xələtin ona verilməsini istəyir. Bu qaba hərəkətə peyğəmbərimiz gülümsər və təbəssümlü baxışlarla cavab verir. Bir az irəliləyənədən son-

ra Peyğəmbərə Allahdan ayə nazil olur: «Ya Məhəmməd, sənin nə gözəl xülqün var».

**Kilki-hökmün çəkdi hərfi-sairi-ədyanə xət,**
**Hökm isbat etdi nəfyi-sairi-ədyan sana.**

Allahın qələminin hökmü ilə bütün başqa dinlərin hərflərinin üstündən xətt çəkildi *(yəni başqa dinlər ləğv olundu)*, onların gərəksiz olduğu hökmlə sənə isbat edildi.

Beytin daha qısaca mə'nası odur ki, sonuncu din hansıdırsa, ona qədərki dinlər daha gərəksiz hesab olunurlar, bütün insanlar sonuncu dinə pənah gətirməlidirlər. İslam dini də məhz belə dindir.

**Baqiyi-mö'ciz nə hacət əmri-Həqq isbatına,**
**Aləm içrə möcizi-baqi yetər Quran sana.**

Beytin səthi şərhi belədir: Haqqın əmrini sübut etmək üçün möcüzənin baqiliyinə müraciət etməyin mənası nədir? Bunun üçün baqilik, yəni əbədiyyət möcizəsinə üz tutmaq lazımdır. Belə əbədiyyət möcizəsi olan Quran sənə kifayət etmirmi?

Şair demək istəyir ki, Məhəmmədə (s.) qədərki peyğəmbərlərin hər birinin möcüzəsi əbədidir, lakin bu əbədilik keçmişə doğru istiqamətlənmişdir, çünki onların gələcəyə doğru ömürləri yoxdur, onların yalnız adları əbədidir və qiyamət gününə qədər yaşaya bilməzlər. Odur ki, Allah əmrinin isbatı üçün əbədiliyin möcüzəsini görmək lazımdər ki, bu da Qurani-Kərimdir. Ulu Peyğəmbərimizin iradəsilə vücuda gələn bu Allah kitabı qiyamət gününə qədər qalacaqdır. Əbədilik də qiyamət gününə qədər davam edəcəyinə görə qurani-Kərimi şair əbədiliyinin möcüzəli nümunəsi hesab edir. Qısaca, başqa peyğəmbərlərin dinləri keçmişə doğru istiqamətlənmiş bir əbədiyyətdirsə, Qurani-Kərim gələcəyə doğru uzanan bir əbədiyyətdir.

**Vəsf Cibrili əmin etmiş qəbuli-xidmətin,**
**Sirri-Həq kəşfinə ayətlə yetib fərman sana.**

Sənin tərifini eşidən Cəbrayıl mələk ləngimədən sənin xidmətində durdu. Allahın fərmanı ayələr şəklində sənə nazil olmuş, bunun vasitəsilə də sən Allahın sirlərinə vaqif olmusan.



İyirmi üç il ərzində Qurani-Kərimin ayələri Cəbrayıl mələk vasitəsilə Peyğəmbərə çatdırılmış, insanlar da bunun vasitəsilə tək olan Allahı tanıyıb islamı qəbul etmişlər.

**Sənsən ol xatəm ki, dəf' etmiş təmami-hakimi,**
**Xatəmi-hökmi-risalət tapşırıb dövran sana.**

Məhəmməd əleyhissalam xatəmül ənbiya, yəni sonuncu peyğəmbər adını daşıyır. Şair ona qədərki peyğəmbərləri dinin hakimləri hesab edir, lakin onu da göstərir ki, sən sonuncu hakimsən ki, əvvəlki bütün hakimləri bir kənara atmısan, dövran sənə peyğəmbərliyin sonuncu hökm verəni adını həvalə etmişdir.

**Ol qədr zövqi-şəfaət cövhəri-zatındadır**
**Kim, gəlir ərzi-xəta mə'nidə bir ehsan sana.**

Sənin zatının cövhərində o qədər şəfaət zövqü var ki, əgər bir adam xəta etsə, bu sənə əslində bir ehsan dəyərindədir.

4040

Bu beytin müfəssəl izahı ondan ibarətdir ki, peyğəmbər bütün xəta və günah edənlər üçün Allahdan şəfaət diləmişdir ki, həmin günahkarlar sənin istəyinlə Allah tərəfindən bağışlanmışlar, bu bağışlanılmaqla onlar sənin ehsanını qazanmış olurlar. Şair göstərir ki, Peyğəmbər də günahkarlar üçün Allaha şəfaətçi olmaqdan sanki zövq alır ki, bu keyfiyyət də onun mübarək zatındadır.

**Mahi-novdur, yoxsa sən etdikdə seyri-asiman,**
**Qaldırıb barmaq gətirmiş asiman iman sana.**

Görəsən, göydəki yeni aydır, yoxsa sən asimanı seyr edəndə asimanmı barmağını qaldırıb sənə iman gətirib?

Füzuli göydəki nazik yeni aya şübhə ilə baxır: şairə görə bu yeni ay deyil, bu, asimanı seyrə çıxanda, yəni me'raca gedəndə asimanın barmağıdır ki, qaldırıb Sənə iman gətirib.

**Ya nəbi, lütfün Füzulidən kəm etmə ol zəman**
**Kim, olur təslim miftahi-dəri-güfran sana.**

Ya peyğəmbər, rəhmət qapılarının açarları sənə təslim ediləndə, lütfünü Füzulidən əskik etmə. Başqa bir qəzəlində şair peyğəmbəri daha orijinal bir dillə tərif çiçəklərinə qərq edir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZIDENT KITABXANASI

**Ey ğübari-qədəmin ərşi-bərin başinə tac,**
**Şərəfi-zatına ədnayi-məratib me'rac.**

Ey ayağının torpağı uca ərşin başına tac olan! Sənin zatının şərəfi ilə müqayisədə merac ən aşağı mərtəbədir.

Rəvayətə görə Məhəmməd rəsullillah me'raca gedərkən baxıb görür ki, başmaqlarını unudub yerdə qoyub. Allahın yanına belə getməyi ədəbsizlik hesab edən Peyğəmbər onu müşaiyət edən Cəbrail mələkdən geri qayıdıb başmaqlarını götürmək istədiyini rica edir. Bu vaxt Allahdan ona bir səda gəlir ki, ya Məhəmməd, mənim yanıma o cür gəlməyin də xoşdur, sənin ayağının tozu da mənim ərşimin başına bir tacdır.

«Me'rac» sözünün bir mə'nası pillə və ya nərdivan deməkdir. Yəni şair göstərir ki, Sənin zatının şərəfində me'rac da ondan aşağı pillədə yer tutur.

**Müntəha-şər'inə ədnayi-təmamiyi-rusul,**
**Bəhrsən, sairi ərbabi-risalət əmvac.**

Sənə qədərki bütün din peyğəmbərlərinin şəriətləri son nəhayətdə sənin şəriətində tamama yetmişdir. Sən elə bir dəryasan ki, sənə qədərki peyğəmbərlik ərbabları (ağaları) sənin dalğaların məzənnəsindədir.

**Xazini-gənci-şəfaət səni qılmış İyzəd,**
**Hiç kim, yox ki, sənə olmaya axır möhtac.**

Allah Səni şəfaət xəzinəsinin xəzinədarı etmişdir. Bu səbəbdən elə bir adam tapılmaz ki, əvvəl-axır sənə möhtac olmasın.

Bu beytin mənası əvvəlki qəzəlin şərhində verilmişsə də yenə bu haqda danışmağı lazım bilirik. Peyğəmbərimiz bütün ömrü boyu öz ümməti üçün Allahdan şəfaət – günahların bağışlanılmasını diləmişdir. O meracda olan zaman Allah-təala Ondan hər hansı bir arzusunun olduğunu soruşur. Peyğəmbər Allahdan «Pərvərdigar, ümmətimi əfv et» – deyə rica etmiş, Allah da Onun bu ricasını qəbul etmişdir.

**Sünnətin məğfirət əsbabına minhaci hüsul,**
**Taətin məsiyət əmrazına tədbiri-ilac.**

Sünnətin – xasiyyət və davranışın Allah yanında bağışlanılmaq vasitəsidir. Sənin varlığına sığınmaq isə qüsur və nöqsanlar mərəzindən qurtulmaq üçün bir əlacdır.

**Xəlqə təqlidi-sülukin səbəbi-hüsni-məaş,**
**Mülkə təğyiri-təriqin əsəri-sui-mizac.**

Sənin əxlaqını təqlid etmək xalq üçün dolanacağın və yaşayışın səbəbidir. Əgər sənin qoyduğun yolu dəyişsələr, bu məmləkətin halının pisləşməsinə səbəb olar.

**Qaim olmazdı nizamü nəsəqi-əsli-vücud,**
**Verməsəydin əsəri-ədl ilə dünyayə rəvac.**

Əgər Sən öz ədalətinin təsirilə dünyanın inkişafına rəvac verməsəydin, onda dünya varlıqlarının nizamı və düzülüşünün mənzərəsi vücuda gəlməzdi.

**Şükr-lillah ki, Füzulini edib daxili-feyz,**
**Rəğbətin daireyi-xovfdən etmiş ixrac.**

Allaha şükür ki, Sənə rəğbətdən aldığı daxili feyz Füzulini qorxu və xof dairəsindən kənar etmişdir.

**Ey Fücudun əsəri, xilqəti-əşya səbəbi,**
**Nəbi ol vəqt ki, bilfe'l gərəkməzdi nəbi.**

Ey Vücudun (yəni Vacıb əl-Vücudun-Allah təalanın) əsəri, əşyaların xəlq edilməsinin səbəbi olan! Sən hələ o zaman peyğəmbər idin ki, hələ o vaxt peyğəmbərlərə ehtiyac yox idi.

Bu beyt, bütövlükdə qəzəl həm çətin, həm də mə'na incəlikləri ilə zəngin olan bir qəzəldir.

Şair Məhəmməd əleyhissəlamı Allahın yaratdığı əsər, bütün maddi aləmin yaradılışına bir səbəb kimi göstərərək qeyd edir ki, O, hələ peyğəmbərlik gərək olmayan bir vaxtda artıq peyğəmbər idi. Bunu necə başa düşmək lazımdır? Fikirlərimizi izah etməyə çalışaq.

Bir var mə'na aləmi – buna həqiqət aləmi də deyirlər, bir də var surət aləmi – hiss olunan, duyulan, görülən aləm. Hər ikisinin sakini peyğəmbərlərdir. Surət aləmində ilk peyğəmbər Adəmdir ki, bütün sonrakı insanlıq və peyğəmbərlər ondan törənmişlər. Lakin surət aləmi xəlq olunmazdan əvvəl mə'na aləmi və ya ruhi aləm mövcud imiş. Onun ilk peyğəmbəri də elə Məhəmməd ə.s.-dır. Deməli, əslində surət aləmi ikinci, məna aləmi isə birincidir. Surət aləmində də ilk insan-peyğəmbər Adəmdirsə, mə'na aləmində ilk insan-pyğəmbər Məhəm-

məd ə.s.-dır. Surət aləmində bütün insanlar Adəmdən törəndiyi halda, mə'na aləmində ilk ruh Məhəmməd ruhu olmuşdur ki, bütün insanların və peyğəmbərlərin ruhu ondan törənmişdir. Məhəmməd ə.s. ruhu bütün digər ruhlara həyat verən olduğu üçün ona ruhül-ərvah, yəni ruhlar ruhu ləğəbi şamil edilmiş, Adəm əleyhissəlama isə əbül-işbah – yəni , cism və cəsəd atası künyələri verilmişdir Beytin mə'nası yavaş-yavaş aydın olur – bəli, mə'na aləmində Məhəmməd artıq peyğəmbər olanda surət aləminin peyğəmbərlərini, başqa cür desək, peyğəmbərliyi-nübuvvəti xəlq etməyə Allah təala hələ ehtiyac görmürdü.

Allah surət aləmini və onun peyğəmbərlərini Məhəmməd ə.s.-in eşqinə, Onun xatirinə yaratdı. Allah-təaladan bizə varid olan bir hədisdə deyilir ki, ya Məhəmməd, əgər sən olmasaydın, mən bu fələkləri xəlq etməzdim. Məhəmməd ə.s.-dan qalma bir hədisdə Rəsulillah belə buyurur: «Adəm hələ su ilə palçıq arasında olan zaman mən peyğəmbər idim». Deməli, surət aləmində peyğəmbərlərin birincisi Adəm, sonuncusu Məhəmməd idisə, Mə'na aləmi ilə birlikdə götürdükdə görürük ki, peyğəmbərlər sırasında Məhəmməd ə.s. Adəmdən də əvvəl gəlir və əslində peyğəmbərlik Məhəmməd ə.s.-la başlayıb onunla da qurtarır. Başqa bir beytdə təkrarən də olsa Füzuli bu fikri xüsusi bir gözəllik fonunda təsvir edir: «Sən tək afət gəldiyin bilmişdi kim, həqdən mələk, İltimas eylərdi kim, aləmdə Adəm olmasın». Mələk, yəni İblis yəqin sənin artıq var olduğunu bilmişdi ki, Allahdan Adəmi yaratmamağı rica etmişdi (başqa cür desək, İblis Adəmə paxıllığından səcdə etmədi, çünki sənin artıq xəlq olunduğundan onun xəbəri var idi).

**Səyyidi-əbtəhiyü məkkiyü ümmuyü zəki,**
**Haşimiyyü mədəniyyü qürəyişşü ərəbi.**

Şair beytində Məhəmməd ə.s.-ın uca və ali keyfiyyətlərini sadalayır: Məkkəli, mədinəli bir ağadır, savadsız və zəkalıdır, haşimilərdəndir, şəhərlidir, qüreyşilərdəndir, ərəbdir.

**Səbqəti-zat ilə eyvani risalət sədri,**
**Şərəfi-əsl ilə fehristi-rüsul-müntəxəbi.**

Bu beytdə birinci beytin mə'nası yığcam şəkildə öz əksini tapmışdır: yəni sən mə'na aləmində Adəmdən də əvvəl gəldiyinə görə sənin zati-şərəfin bütün digər peyğəmbərlərdən də irəli olduğu üçün sən peyğəmbərlik eyvanının sədrisən, bu eyvanda sən başqa peyğəmbərlərdən öndə dayanmısan, əslinin şərəfinə görə sən peyğəmbərlər kitabının müqəddiməsisən.

**Əzmi-çərx etdi Məsiha ki, bula me'racın,**
**Yetmədi mənzili-məqsudə təriqi-tələbi.**

İsa peyğmbər düşmənlərinin qətlindən yaxa qurtarmaq üçün sənin me'racın kimi me'raca ucalmaq istədi, lakin mənzil başına çata bilmədi, çünki, yolda İsa ə.s.-ın yaxasını yoxlayan zaman onun paltarından iynə tapılır. İynə də mahiyyətcə dünya həyatının rəmzi olduğu üçün, həmçinin İsa ə.s.-ın təqva və zöhdünə iynə kölgə saldığı üçün Allahın hökmü ilə İsa əl Məsih dördüncü günəş fələyində dayanıb qalmalı oldu.

**Ənbiyadan kimə sən tək bu müyəssərdir kim,**
**Adəmə vəchi-mübahat ola izzü nəsəbi.**

Qoy Adəm öz nəsli-mənşəyi ilə həmişə fəxr etsin ki, peyğəmbərlərdən heç kimə hələ bu qismət olmayıb.

Şair göstərir ki, bir halda ki, Mə'na aləmində Məhəmməd peyğəmbər Adəm peyğəmbərdən əvvəldədir, onda Adəm Məhəmməd ə.s.-ın bilavasitə xələfidir, ondan sonra ikinci peyğəmbərdir. Bu Adəm üçün misli görünməmiş şərəfdır, o bununla daim fəxr etməlidir. Belə bir şərəf və şöhrət Adəmin qismətinə düşmüşdür və başqa peyğəmbərlərdən heç birinə nəsib olmamışdır.

**Xələfi-mö'təbəri-Adəmü Həvva sənsən,**
**Cəələllahü fədaən ləkə ümmi və əbi.**

Şair böyük ustalıqla məsələyə fərqli aspektdən yanaşır. Surət aləmində peyğəmbərlərdən birincisi Adəm, sonuncusu isə Məhəmməd ə.s.-dır. Şair Məhəmməd ə.s.-ı surət aləmində Adəm və Həvvanın ən layiqli və mötəbər xələfi hesab edir. Belə layiqli xələfə şair öz ata-anasını da fəda etmək əzmində olduğunu bildirır.

**Ya nəbi, qılma Füzulini qıpandan məhrum,**
**Əfv qıl, var isə dərgahdə tərki-ədəbi.**

Ya peyğəmbər, Füzulini qapından kənar eləmə, əgər qapının önündə ədəbsizlik etmişsə də.

***

Məhəmməd Füzulinin türkcə qəzəllərinin içərisində «sübh» rədifli iki qəzəli xüsusilə diqqətəlayiqdir. Gecənin sonunda üfüqün al qırmızı rəngə boyanmasına, daha sonra günəşin yaxınlaşmasının təsirindən asimanın ən müxtəlif rənglərdən ibarət parlaq şəfəqlərə bürünməsinə şair görəsən nə üçün eşq duyğuları saçan misralar həsr etmişdir? Bu təbiət mənzərəsinin hər bir şairin qələminə layiq olması şübhəsizdir. Ancaq şair niyə sübhün bu füsunkar mənzərəsinə eşqin gözü ilə baxır, sübhün hansı bir mahın eşqilə dəmlər (nəfəslər) çəkdiyini qələmə alır? İlahi eşqin təsirindənmi? Düşüncəni daim məşğul edən böyük bir fakt olmasaydı, bu fikirlə razılaşmaq olardı. Özü də bu hadisəyə bir yox, iki qəzəl həsr etmişdir.

Belə hesab etmək olar ki, bu hər iki qəzəl Peyğəmbər rəsulillahın şə'ni-cəmalı xüsusunda qələmə alınmışdır. Ona görə ki, məhz sübh vaxtı, Məhəmməd (ə.s.) Allah-təala tərəfindən peyğəmbərliyin verildiyi və Quranın ilk mübarək surəsinin nazil olduğu məqam şairin diqqətini çəkmiş və bəşəriyyət tarixində yeni mə'nəvi və pak əxlaqi bir dövrün başlanğıcını qoyan anın şöhrəti-cəlalını şeirin dili ilə izhar etmişdir. Bu iki qəzəlin öydüyü obyekti başqa cür mənalandırmaq əbəsdir.

Hələ islamiyyətdən əvvəl Məhəmməd (ə.s.) tək olan Allaha ibadət edirdi. Başqa cür ola da bilməzdi, axı o dünyaya axirəzzəman peyğəmbər kimi gəlmişdi və sübut üçün onun kürəyində anadangəlmə peyğəmbərlik möhürü var idi. O, heç vaxt bütlərə (haşa!) sitayiş etməmişdi. Məhəmməd (ə.s.) islamdan əvvəl İbrahim peyğəmbərin hənif dininə sitayiş edirdi. Hənif dini islam dininin Məhəmməd ə.s.-dan əvvəl olan adıdır. Adəmdən başlamış ta Məhəmməd ə.s.-a qədər (ilk əvvəl o da daxil olmaqla) bütün peyğəmbərlər bu hənif dininə qail olmuşlar.

Yeni dinin yaranması ərəfəsində Məhəmməd (ə.s.) Hera dağına gedər, günlərlə orada qalaraq Allaha ibadət edər, öz daxili aləminə çəkilərək Allahın aliliyi və vəhdaniyyəti haqqında düşüncələrə dalardı. Ramazan ayında indi xüsusilə böyük hörmətlə adını qeyd etdiyimiz qədr gecələrinin birində sübh açılarkən üfüqdə Cəbrayıl mələyin mübarək siması görünür. O, Məhəmməd (ə.s.)-a yaxınlaşaraq deyir: «Salam olsun sənə, ya Məhəmməd, mən Allah tərəfindən göndərilmiş Cəbrayıl mələyəm və sən də Allahın peyğəmbərisən! Sonra o Qurani-Kərimin ilk surəsi olan «Ələq» – laxtalanmış qan – surəsinin ilk beş ayəsini Peyğəmbərə həvalə etdi. Oxucu üçün rahat olsun deyə həmin ayələri burada veririk.



1. [Ya Peyğəmbər! Qurani-Kərimi, bütün məxluqatı] yoxdan yaradan Rəbbinin adı ilə [bismillah deyərək] oxu!
2. O, insanı laxtalanmış qandan yaratdı.
3. [Ya Peyğəmbər!] Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir.
4. O Rəbbin ki, qələmlə [yazmağı] öyrətdi.
5. O Rəbbin ki, insana bilmədiklərini öyrətdi.

Bütün bu deyilənlərdən məqsəd odur ki, Füzulinin həmin o iki qəzəli heç bir şübhə olmadan Məhəmmədə sübh çağı peyğəmbərlik verildiyinə və ona Qurani-Kərimin nazil olduğuna bizi inandırır. Hər iki qəzəldə məsələ ilə bağlı olmayan beytləri ixtisar etməklə onların təhlilinə keçək.

**Qansı mahin, bilməzəm, mehrilə olmuş zar sübh,**
**Hər gün eylər xəlqə bir daği-nihan izhar sübh.**

Şair açılan sübhün vəziyyətini öz sevgilisi ilə vüsalın həsrətində olan, hicran aləminin çəkdiyi dağları hər gün insanlara göstərib dərdini sovuşdurmaq istəyən aşiqin halını müqayisəli şəkildə bizə təqdim edir.

Şair böyük poetik kəşflər edərək sübh çağı üfüqün qızartısını aşiqin köksünə basılan qanlı dağla müqayisə edir. Sanki şair özü də bu həsrətli eşqin kimə ünvanlandığını bilmir, hansı mahın – ay üzlünün hüsnündən doğduğunu təyin edə bilmir. Əlbəttə, bu ay üzlü Məhəmməd (ə.s.)-dır.

İkinci bir tərəfdən sübh bu daği-nihanı bir gün yox, hər gün xalqa göstərir, bəlkə də dünya xəlq olunandan islamın yaranışına kimi sübhün hər gün göstərdiyi bu daği-nihanlar Məhəmməd peyğəmbərin simasında o ay üzlünün vüsalından doğan həsrətin gözlə görünən bir göynərtisini bizə andırır.

**Batdı əncüm, çıxdı gün, ya bir əsiri-eşqdir,**
**Tökdü dürri-əşki, çəkdi ahi-atəşbar sübh.**

Günəş çıxanda, ulduzlar batar. Füzuli bu görüntüyə eşq ahəngi verərək ulduzların batmasını ağlayan aşiqin damcılanan göz yaşlarının axması, görünən günəşin odlu hərarətini aşiqin dərddən odlu ahlar çəkməsi ilə yanaşı tutaraq sübhün bu halını onun bəlkə bir eşq əsirliyində olması məqamı kimi qiymətləndirmək istəyir.

**Nola gər əmvatə ehya versə sübhün dəmləri,**
**Zikri-lə'lindir kim, eylər dəmbədəm təkrar sübh.**

Sübh açılanda havada nəfəsə bənzər bir toxunuş olur və şair də haqlı olaraq onu sübhün dəmləri, yəni nəfəsləri kimi qəbul edir və göstərir ki, sübhün bu dəmləri ölüləri diriltsə heç də təəccüblü olmaz, çünki bu dəmlər o ay üzlünün dodaqlarından çıxan sözlərin zikridir ki, sübh onları anbaan təkrar etməklə məşğuldur.

**Müjdə bir xurşiddən vermiş məgər badi-səhər**
**Kim, nisar eylər ona yüz min düri-şəhvar sübh.**

Səhər küləyəni günəş üzlü sevgilinin gələcəyinin müjdəçisi hesab edən şair ulduzların batmasının sübhün həmin günəş üzlünün ayaqları altına mübarəkbadlıq olaraq yüz minlərlə düri-şəhvar səpməsinin nümunəsi olduğuna oxucunu inandırmağa çalışır.

**Aşiqi-sadiqdir, izhari-qəm eylər hər səhər,**
**Ah ilə xəlqi yuxusundan qılır bidar sübh.**

Səhərin mehi şairin nəzərincə sübhün sanki dərd və qəmlərinin ifadəçisidir, hər səhər belə ahları ilə sadiq aşiq kimi xalqı yuxusundan oyadır.

**Ey Füzuli, şami-ğəm əncamına yoxdur ümid,**
**Bir təsəllidir sənə ol söz ki, derlər var sübh.**

Şairin təbirincə dərdli aşiq üçün sübh yoxdur, yalnız qəm axşamları vardır, sübhün olacağı isə sözdür ki, onunla aşiqə təsəlli verirlər.

**Bəhrə lö'lö dişlərin vəsfin məgər söylər səba**
**Kim, qulaq tutmuş sədəf içrə düri-ğəltan ona.**

Beytdə söhbət Məhəmməd (ə.s.)-ın mübarək dişlərindən



gedir. Deyilənə görə Peyğəmbərimizin son dərəcə ağ, gözəl və sərrast dişləri var imiş. Bu dişlərin vəsfini Füzuli müstəsna poetik incəliklər nümunəsində verir. Ey bəhr, yəni ey dərya, məgər səba yeli o lö'lö dişlərin tərifini dilinə gətirərmi ki, dərya dibindəki lö'lö incisi sədəfin içində qulaqlarını tutub bu tərifi eşitməyin həsrətindədir. «Qulaq tutmaq» ifadəsi həm qulaq asmaq kimi, həm də sədəfin böyüyüb qulağa oxşaması kimi qəbul edilə bilər. Bizcə bu ifadə qulaq asmaq məntiqinə daha çox uyğun gəlir.

İndi yenə qayıdaq «sübh» rədifli ikinci qəzəlin təhlilinə. Bu qəzəldə də vəsf olunan obyektin parametrləri Məhəmməd(ə.s)-a peyğəmbərliyin verilməsi ilə uyğunluq təşkıl edir. Yenə də xatırladırıq ki, mətləbə dəxli olmayan beytlərin üzərindən keçəcəyik.

**Gər degil bir mah mehrilən mənim tək zar sübh,**
**Başin açıb nişə hər gün yaxasın yırtar sübh.**

Peyğəmbərimizin mədhi xüsusunda yazılmış birinci qəzəllə bu qəzəl xeyli oxşarlıq təşkil etsə də Rəsulillahın burada vəsfi ifadə olunduğu üçün bu qəzəli də xüsusi zövq ilə təhlil etməyi özümə şərəf bilirəm.

Şair yenə də sübhün dərdlərini bir-bir çəkib ortaya qoyur və deyir ki, bu sübh əgər bir gözəlin, ay üzlünün dərdindən mənim kimi qüssə-qəm çəkmirsə, bəs onda nə üçün hər gün başını açıb yaxasını yırtmağa bu qədər aludədir.

Göründüyü kimi şair adamlarda şübhə yeri qoymaq istəmir ki, sübhün bu hər günlük tamaşası nəyin dərdindəndir. Şair həm də sübhlə özünün eyni dərddə olduğunu göstərir və sübhün «mənim tək» zar oloduğunu e'lan edir. İstər şairin, istərsə də sübhün eyni dərdin mübtəlası – Məhəmməd peyğəmbərin eşqinə giriftar olması zahirən olmasa da mə'na etibarilə göz qabağındadır.

**Gör nə aşiqdir ki, bir xurşid vəslin bulmağa,**
**Sərf edər hər ləhzə min-min lö'löi-şəhvar sübh.**

Əvvəlki qəzəlin təhlilində də göstərdik ki, Günəş çıxanda ulduzlar yox olmağa başlayır. Zahirən bu sübhün günəşin çıxmasına xatir eşq əlaməti olaraq ona çoxlu ulduz nisar etməsinə

bənzəsə də şair bu ulduzların Məhəmməd ə.s. kimi bir günəşin tülu etməsinə sərf olunması hadisəsi kimi qiymətləndirir.

**Hicr şamında ğəm etmişdi, Füzuli, qəsdi-can,**
**Olmasaydı mərhəmətdən dəm vurub qəmxar sübh.**

Ey Füzuli, əgər bu qəmlərə şərik olan sübh sənin mərhəmətindən söz açıb danışmasaydı hicran axşamında qəm çoxdan cana qəsd edəcəkdi.

**Əyilib tərfi-binaguşinə hali-dilimi,**
**Ya o taqin deyə, ya türreyi-dəstar sana.**

Məhəmməd ə.s.-ın, mə'lumatlara görə müstəsna dərəcədə gözəl çöhrəsi var imiş, xüsusilə onun aya bənzər qövsi qaşları çox füsunkar imiş. Şair Peyğəmbərə olan ürək istəyini – aşiqin dili ilə üzbəüz deyə bilmədiyi bu işi onun qaşlarına və əmmaməsinə həvalə edir. Çünki qulağa yaxın həm qaşın ucudur, həm də əmmamədir. Aşiq də istəyir ki, ürəyinin arzusunu onun qulağına ya o tağ qaşlar, ya da əmmamə deyəydi.

**Girib bütxanəyə qılsan təkəllüm can bulur şəksiz,**
**Müsəvvirlər nə surət kim, dərü divarə yazmışlar.**

Bu beyt Məhəmməd (ə.s.)-ın canlar bəxş edən nəfəsinin tə'rifi xüsusunda deyilmişdir: əgər bütxanəyə girib kəlmə kəssən, onda müsəvvirlərin (rəssamların) divarlara çəkdiyi surətlər cana gəlib dirçələrlər.

**Şahsən mülki-məlahətdə, sənə qullar çox,**
**Biri oldur ki, varıb Misrdə sultan olmuş.**

Şair bütün peyğəmbərləri məlahət mülkü, Məhəmməd (ə.s.)-ı isə bu mülkün şahı hesab edir. Onun təbirincə məlahət mülkünün bütün peyğəmbərləri Məhəmməd (ə.s.)-ın qullarıdır. Onların biri də Yusif peyğəmbərdir ki, gedib Misirin sultanı olmuşdur.

**Bağibani-çəməni-dəhrə xəyali-dəhənin**
**Səbəbi-tərbiyəti-qönçeyi-xəndan olmuş.**

Şair Məhəmməd (ə.s.)-ın hüsnünə dair yeni-yeni gözəllik tərənnüm etməkdədir. Beytin mənası belə yozula bilər ki, kainat çəmənliyinin bağbanı (Allah) bu çəmənliyin güllərini xəlq etmək üçün sənin qönçə gülə bənzər gülümsər dodaqlarını bir nümunə, bir səbəb kimi götürmüşdür.



**Ey Füzuli mənim əhvalıma bir vaqif yox,**
**Böylə kim, aləm onun hüsnünə heyran olmuş.**

Şair Füzulinin də adı Məhəmməddir və özünü Məhəmməd (ə.s.)-la tutuşduranda ona aydın olur ki, bu Məhəmməd hara, o Məhəmməd hara və O, qəlbinə yatan bir şikayətlə deyir ki, adamlar mən Məhəmmədin halına vaqif deyillər, çünki bütün aləm o Məhəmmədin hüsnünə heyranlıq içindədirlər.

**Yetib hüzurinə me'rac vəqti qılmışlar,**
**Qəmər hüsli-müəssir, Süheyl kəsbi-xəvas.**

Beytdə me'rac sözü olduğuna görə onun Məhəmməd ə.s. xüsusunda deyildiyi şübhə doğurmur. Beytin çox orijinal bir tərənnüm keyfiyyəti vardır: sən me'raca gedəndə qəmər və Süheyl sənin qarşına biri hasilə dolub girdələnmək, o biri də daha da işıqlı və parlaq olmaq həsrətilə çıxmışlar.

Qəmər ayın üçüncü gecəsinə qədər olan vəziyyətinə deyilir. Yəni üç gecəlik ay qəmər adlanır. Süheyl isə Gəmi bürcündə olan ən parlaq bir ulduzun adıdır. Onu ancaq 37$^0$ şimal dairəsindən cənubda olan ölkələrdə müşahidə etmək mümkündür. Mə'na belə anılır ki, me'rac vaxtı qəmər sənin qarşına bədrlənmək, yəni on dörd gecəliik hala düşməyin həsrətilə, Süheyl ulduzu isə daha da parlaq olmağın eşqi ilə çıxmışlar.

**Fələk həm ol gecə bulmuş səfa ki, sufi təki,**
**Qərar tutmayıb, olmuş o bəzmdə rəqqas.**

Sənin o me'rac gəlişində fələklər asimanlarda sufilər kimi bir yerdə qərar tutmayıb rəqs etməklə məşğul olmuşlar. Yeri gəlmişkən, sufilərin səma məclislərində İlahi yaxınlığı hiss etmək üçün vəcdə gəlib coşmaqdan ötrü onlar fırlanma üsulu ilə rəqs edirmişlər.

**Rəhi-mütabiətindir təriqi-fövzü nəcat,**
**Nəvayi-mərhəmətindir ümidi-xeyrü xilas.**

Sənə tabe olmaq qələbə və nicat yoludur, xeyir və xilas ümidləri sənin mərhəmətinin həvasından nəş'ət etmişdir.

**Təvaxür eylə, Füzuli kim, ondan özgə degil**
**Sənə zəmanədə nəqşi-səhifeyi-ixlas.**

Füzuli, fəxr elə ki, bu zəmanədə sənə ondan – Məhəmməd ə.s.-dan özgə vəfa, sədaqət nəqşləri ilə nəqşlənmiş səhifə müyəssər deyil.

**Surəti-bican ilə cənnət dolar bütxanətək,**
**Qılsalar cənnətdə təsvirin çəkib qılmanə ərz.**

Əgər sənin təsvirini çəkib onu qılmana ərz etsələr, onda cənnət cansız surətlərlə dolub bütxanaya çevrilər.

Məhəmməd peyğəmbərin deyildiyi kimi müstəsna dərəcədə gözəl çöhrəsi var imiş. Qılman isə cənnətdə olan gözəl oğlanların ümumi adıdır. Yəni sənin surətini rəsm edib cənnətdəki qılmanlara göstərsələr, onda bu qılmanlar bir anda cansız surətlərə çevrilib cənnəti bütxanaya döndərərlər.

**Keçdi-meyxanədən el, məsti-meyi-eşqin olub,**
**Nə mələksən ki, xarab etdin evin şeytanın.**

İslamiyyətdən əvvəlki cahiliyyə dövründə ərəblər müstəsna dərəcədə mənəviyyatsızlıq və əxlaqsızlıq şəraitində yaşayırdılar. El, yəni ərəb əhalisi bir növ əxlaqsız həyatın məstliyi ilə, bu məstliyin meyxanəsi içində yaşayırdılar. Elə ki, onların üzünə islam günəşinin nuru saçıldı, onlar əxlaqsız həyatın meyxanəsindən keçib, yəni uzaqlaşıb Peyğəmbərin camalına məhəbbət meyinin məstliyinə düşdülər, islama gəlib səadət yoluna qədəm qoydular və bununla da şeytanın istəyinə mane olub onun evini yıxdılar.

**Sən tək afət gəldiyin bilmişdi kim, Həqdən mələk**
**İltimas eylərdi kim, aləmdə Adəm olmasın.**

Bu beyt insanın xəlq olunması haqqındakı məşhur hadisəyə işarədir. Allah təala insan adlı yer üzündə bir xəlifəsini yaradacağını və mələklərin də ona səcdə etməli olduqlarını bildirəndə mələklər buna etiraz etmişdilər. Qurani Kərimin «Bəqərə» surəsindəki 10 və 35-ci ayələr bu hadisənin şərhindən ibarətdir.

Lakin Füzuli Məhəmməd peyğəmbərin əzəmətini öymək məqsədilə hadisənin izahatına başqa cür yanaşır: o göstərir ki, mələklər Adəmin deyil, Məhəmməd (ə.s.)-ın gələcəyini bildiklərindən paxıllığa düçar olmuş, bu səbəbdən Adəmin xəlq olunmasını yaxına belə buraxmaq istəmirdilər.

**Rüxsarə nöqtə qoymaq rəsmi-xət olmasaydı,**
**Olmazdı mənzil etmək ruxsarın üzrə xalə.**

Beytdə Məhəmməd peyğəmbərin üzündəki mübarək xal



nəzərdə tutulur və bu xal fars dilində ruxsar (روخسار), yəni sifət mə'nasını verən söz ilə müqayisə edilir. Farsca yazılan bu sözdə ( ح ) hərfin üstündəki nöqtə Peyğəmbərin yanağındakı xal ilə bərabər tutulur. Şair göstərir ki, ruxsar sözündəki x ( خ ) hərfi üstündəki nöqtəni qoymaq nə qədər vacibdirsə, sənin üzündə də xalın olması bir o qədər vacibdir. Yəni o nöqtə qoyulmasa həmin söz oxuna bilmədiyi kimi, sənin üzün də bu xalsız mümkün deyildir.

**Heyrani-mahi-ruyin xurşidə mehr salmaz,**
**Müştaqi-taqi əbrun əskik baxar hilalə.**

Sənin ay üzünə heyran olan günəşə sevgi bəsləməz, əyri qaşlarının aşiqi olan hilal aya həqarətlə baxar.

**Dövran mənə qələm tək sevda qapısın açdı,**
**Ta qəddimi qəmində döndərdi zə'f nalə.**

Bu Füzulinin misli-bərabəri olmayan beytlərindəndir, qələm və mürəkkəbin adi qarşılıqlı münasibətlərini eşq müstəvisində hər bir şairin həsəd apara biləcəyi bir ustalıqla təsvir edir. «Qələm tək sevda qapısı açmaq» ifadəsi o mə'nanı verir ki, «sevda» sözü bir mə'nasına görə «səvad» – mürəkkəb qabındakı mürəkkəb anlamını özündə əks etdirir. Bir vaxtlar mürəkkəbqabının üstündə qapağı olardı. Yazı yazan qələmin ucu ilə qapağı qaldırıb onu mürəkkəbə batırardı. Həmin qapağı qaldırmağı – «sevda qapısını açmaq» kəlamını şair mürəkkəb qabının ağzını açmaq mə'nasından ayırıb eşq sevdasının qapısını açıb eşq aləminə daxil olmaq məntiqi ilə zənginləşdirir. Hələ bununla iş bitmir, görək şair qələmdə nə görüb ki, onu da eşq mərəzinə mübtəla etmişdir.

Keçmişdə yazı əhli, qələmi və mürəkkəbi indiki kimi dükandan hazır almırdılar. Saçı, qəndi və kömürü yandırıb külünü qarışdıraraq onların yanmış qarışığına su qatıb əla növ mürəkkəb hazırlayardılar. Qələm üçün isə qamışdan lazım olan uzunluqda hissə kəsir və günün altında onu tamam qurudurdular. Sonra qamışın içindən nal deyilən nazik bir damarı çıxarırdılar, əks halda qələmin yazması mümkün deyildi. Bundan sonra qə-

həmin qamışın ağzını çəpinə kəsirdilər ki, yazmaq üçün yararlı olsun, hər ehtimala qarşı qamışın kəsilən yerlərinə qızdırılmış dəmirlə dağ basırdılar ki, cücərti olmasın. Sonra qələmə qəd vururdular. Bu mərhələdə qələm işlənilmək üçün artıq hazır olurdu.

Füzuli aşiqin eşqdən halsız vəziyyətə düşmüş bədənini həmin qamışın içindən çıxarılan nazik nal ilə müqayisə edir – aşiq zəifləyib nal şəklinə düşdükdən sonra qələm kimi sevda qapısını açmağa nail olur.

**Nihali-sərvdir qəddin, qaşın nun ol nihal üzrə,**
**Misali-nöqteyi-nun xalın ol mişkin hilal üzrə.**

Qeyd edəcəyimiz beytlərdə, xüsusilə də axırıncı beytdə Peyğəmbər (ə.s.)-ın zahiri füsunkarlığının mə'nalandırılması göz qabağındadır. Diqqətəlayiq haldır ki, ulu Peyğəmbərimin gözəl zahiri keyfiyyətlərini şair bəzi ərəb hərfləri ilə çox ustalıqla əlaqələndirilmişdir.

Qeyd etdiyimiz beytdə Peyğəmbərimizin boy-buxunu sərv ağacına oxşar tutulur. Dairəvi və qövsvari qaşları ərəb əlifbasındakı nun ( ن ) hərfinin dairəsinə bənzədilir və hökm verilir ki, sənin qəddin sərv ağacıdır, bu ağacın üstündəki əyri qaşların nun hərfinə bənzəyir.

İkinci misrada nun hərfinin nöqtəsindən söhbət açılır, bu da aydındır, çünki Peyğəmbərimizin yanağında mübarək qara xalı var idi, şair də, necə deyərlər, ləngimədən bu xalı nun hərfinin üstündəki nöqtəyə bərabər tutmuşdur. Qaş da, xal da qara olduğu üçün ona beytdə «mişkin» – yəni qara adı verilmişdir. Sənin nunun nöqtəsinə oxşayan xalın qara rəngli hilal qaşın yanında məqam tutmuşdur.

**Olub heyran götürməm xəttü xalından nəzər guya,**
**Gözüm mərdümləridir nöqtələr ol xəttü xal üzrə.**

Sənin xəttinə (saçına) və xalına heyran olub göz bəbəklərimi onlara elə zilləmişəm ki, xətt və xal üzərindəki nöqtələr sanki elə mənim gözlərimin bəbəkləridir.

Füzulinin dahiliyinə necə heyran olmayasan? Ərəbcə xət (خال) və xal ( خط ) sözləri üzərində iki nöqtə vardır və Füzul bu



nöqtələri Peyğəmbərimizin saçına və xalına heyran olub onlara aşiqin zillənmiş nöqtəyə bənzər göz bəbəkləri kimi bizə təqdim edir.

**Xəm etdin qamətim, gər tərki-sər qıldımsa mə'zurəm,**
**Nə üzrüm var əgər derlərsə olmaz nöqtə dal üzrə.**

Mənim qamətimi əydin, başımı da əlimdən versəm, üzrlü sayılıram. Əgər dal üzərində nöqtə yoxdursa, bunda mənim təqsirim nədir?

Ərəb əlifbasında «d» hərfini bildirən dal ( د ) və «z» hərfini bildirən zal ( ذ ) hərfləri vardır, göründüyü kimi zal hərfinin üzərində nöqtə durur. Peyğəmbərə olan eşqdən aşiqin qaməti əyilib dal hərfinə çevrilmişdir. Burada aşiqin başı mə'nasını verən nöqtənin olmaması aşiqin başının itirilməsinə işarədir və bunda özünü günahkar bilmir, eşq onun başını əgər əlindən almışsa, buna aşiqin nə təqsiri?

Zal hərfinin üstündə isə nöqtə olduğu üçün o aşiqin başının hələ yerində olması mə'nasını verir.

**Füzulini təriqi-nəzmə təb'in mstəqim etmiş,**
**Xəyali-qamətin kim, bir əlifdir e'tidal üzrə.**

Səndən gələn şairlik təbi Füzulini əməlli-başlı nəzm yoluna çıxarmışdır. Onu şair eliyən sənin orta boylu əlif ( ا ) qamətinin xəyalıdır. Peyğəmbərimiz həqiqətən orta boylu bir zat olmuşdur.

**Çəkərsən, ey müsəvvir, surətin ol məhvəşin, əmma**
**Nə mümkündür muradınca çəkilmək qaşları yayi.**

Ey müsəvvir və ya rəssam, o ay üzlünün surətini çəkərsən, amma qaşlarının yayını elə çəkərsən ki, ürəyimin muradınca -- istəyincə olsun.

**Bir qul oğlanı könül mülkünə sultan etdim,**
**Misr idi, padişəhin Yusifi-Kən'an etdim.**

Bir çox Füzulişünaslar arasında bu beyt haqqında ixtilaflar mövcuddur. Bu beytin ən yaxşı, məqbul təhlilini məşhur füzulişünas Ramiz Faseh vermişdir. Maraqlananlar onun «Füzuli şerində təsəvvüfi qaynaqlar» *(Bakı-Elm-2000)* adlı əsərinin 222-

228-ci səhifələrindəki materialı oxuya bilərlər.

Ancaq qısaca da olsa tanışlıq üçün qeyd edirik ki, şair qul oğlan deyəndə Məhəmməd (ə.s.)-ı nəzərdə tutur, çünki atasının Əbdillah adı Allahın qulu deməkdir. Şair könül mülkü ki, deyir, onu Misir ölkəsinə, bu mülkün sultanını Məhəmməd (ə.s.)-a nisbət tutur və şair məcazi mə'naya keçərək Məhəmməd (ə.s.)-ı Yusif peyğəmbərə oxşar tutur. Belə ki, Yusif və Züleyxa dastanında Yusif axırda Misirin sultanı olur.

**Yeni aydan fələk səthində min qalib düzüb pozmuş,**
**Verincə qaşların taqinə surət sün' me'marı.**

Peyğəmbər rəsulillahın mübarək qaşlarına işarə olunur. Yaradılışın Me'marı (yəni Allah) fələyin səthində təzə ayın (yəni hilal ayın) formasında minlərlə qəlib düzüb-qoşub, ta o yerə qədər ki, sənin qaşlarının surətinə bənzər təzə ayın surəti alındı.

**Məzarım üstə mil qoymun, əgər kuyində can versəm,**
**Qoyun bir sayə düşsün qəbrimə ol sərvi-qamətdən.**

Füzulişünasların yekdil rəyinə görə beyt Həzrəti imam Hüseyni (ə.s.) tərənnüm edir. Bu fikirlə mən də şərikəm: əgər o sərvqamətin kuyində (olduğu yerdə) can verib ölsəm, onda mənim qəbrimın üstə mil (baş daşı) qoymayın, ondan mənim məzarım üstə kölgə düşsə, bu kifayətdir. Şair, demək istəyir ki, onun kölgəsi mənim məzarımın baş daşısını əvəz edir.

**Atın yolunda xublar sürsələr üz nola əmrinlə,**
**Mələk xeyli-sücudi-Adəm etmək nəss-qur'andır.**

Əgər sənin əmrinlə gözəl üzlülər sənin atının keçdiyi yollara üzlərini sürtsələr, təəccüblü olmaz, çünki mələklərin Adəmə səcdə etmələri Quranla təsdiq edilmişdir.

Beytdə mənə aydındır: söhbət burada atdan gedirsə, deməli bu, həzrət Əlinin atı Düldüldür. Şair Düldül atın vəsfi ilə Əlinin tərifini bizə anladır. Atın yoluna üz sürtən xublar-gözəllər burada Əli aşiqləri mə'nasında verilir.

**Müasir olmuş o elm ilə cəhli Bucəhlin**
**Ziyası ilə müqabil şərari-Buləhəbi.**

Şair Məhəmməd əleyhissəlamı bu beytdə tərənnüm edir. O göstərir ki, o öz elmi ilə Bucəhlin müasiri olmuş, ziyası ilə



Buləhəbin alovlarına qarşı durmuşdur.

Bücəhl və Büləhəb Əbu Cəhl və Əbu Ləhəb adlarının bir qədər qısaldılmış formalarıdır. Bu iki şəxs Məhəmmədin (ə.s.) əmiləri olub onun ən qəddar düşmənləri idilər və ölənə qədər islamı qəbul etməyib bütpərəst olaraq qaldılar. Onlar peyğəmbərə olmazın zülmlər edib onu dəfələrlə öldürmək istəmişlər. Lakin onlar istəklərinə çata bilməmişlər. Əbu Cəhl o qədər nadan və cahil idi ki, onun adı cəhalət rəmzinə çevrilmişdir. Əbu Ləhəb Qürani-Kərimdə «Təbbət» surəsində Allah tərəfindən lənətlənmişdir.

**Dedi Əhməd: Əli mənlə olub Harunla Musa tək,**
**Şəriklik rəmzi var burda, kəmali-cahü izzətdir.**

Bir dəfə Məhəmməd (Əhməd) peyğəmbər Həzrəti Əliyə demişdi ki, ya Əli sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimidir. Əgər məndən sonra peyğəmbər gəlsəydi o hökmən sən olardın. Amma nə edəsən ki, məndən sonra peyğəmbər gəlməyəcək. Lakin mən Allahın vəziriyəmsə, sən də mənim vəzirimsən. Peyğəmbər bu sözü ilə Əlinin peyğəmbərliyə şərik, yaxud ortaq olmasına rəmzi bir mə'na verir və bunun ali izzət və şərəf olduğunu bəyan edir.

Bu hadisə tarixdən öz başlanğıcını götürür. Musaya peyğəmbərlik Allah tərəfindən veriləndə Musa Allaha rica edir ki, qardaşı Haruna da peyğəmbərlik əta etsin ki, insanları tək Allahın yoluna dəvət etmək kimi çətin bir işdə qardaşı Harun onun köməkçisi olsun və onun ricası qəbul olunur.

**«Nübüvvətdə Əlinin dəxli yoxdur», - ey deyən kimsə,**
**Nübüvvət əmrinə şirkət deyil bu, hifzi-ümmətdir.**

Ey Əlinin nübüvvətə, yəni peyğəmbərliyə dəxli olmadığını deyən kəs! Bunu bil ki, bu peyğəmbərliyə qarşı küfr deyil, ümmətin hifz edilməsi üçündür.

**Deyirlər dari-dünyadan gedən vəqtində peyğəmbər,**
**Əlini, söyləmişdir, hifz qılmaq eyni-itrətdir.**

Peyğəmbər dünyadan köç edəndə Əlini hifz etməyi söyləmiş və bunu eyni bir yaradılış, yəni Məhəmməd ə.s. ilə Əlinin bir yaradılış olduğunu bəyan etmişdir.

**Kimi görsəm peyəmbər nəslidir, ali-Əlidəndir,**
**İki ali məqamın nəsli-paki çünki şirkətdir.**

Əgər görsəm ki, bir adam həm peyğəmbər nəslindəndir, həm də Əli övladıdır, o kəs peyğəmbərliyə ortaq iki ali məqamın pak nəslindəndir.

**Ol kafü nun ki, xilqətin əsli olub, odur**
**Kafi-kəmali, nuni-nəvali Məhəmmədin.**

Ərəb əlifbasında (kaf ک) və (nun ن) hərfləri bitişik yazılanda (kon کن) kimi oxunur, mənası isə «ol» deməkdir. Yəni Allah təbarəkə təala dünyanı «kon» – «ol» deməklə bir anda xəlq etdi. Qürani-Kərimdə bu xüsusda ayələr çoxdur. Bu ayələrin cəminin məzmunu belədir: Allah «kon» – «ol!» deməklə hər şey o andaca hazır olar.

İslam fəlsəfəsinə görə Allah dünyanı nurdan yaratmışdır, bu nur Məhəmməd nuru adlanır. Odur ki, şair (ک) və (ن) hərflərini xilqətin əsasları adlandırsa da, (kaf) hərfini Məhəmmədin mənəvi kamilliyinin aynası, (nun) hərfini isə dünyanın Məhəmməd tərəfindən bəxş edilən bir hədiyyə, bəxşiş olduğu hesab edir.

**Adəm başında məddi-əlif tacdır, olub**
**Məzmuni-mimü mə'niyi-dali Məhəmmədin.**

Adəm (آدم) sözündə (~) işarəsini şair əlefin başında tac hesab edir. İkinci bir tərəfdən mədd adındakı mim (م) və dal (د) hərflərini «Məhəmməd» sözündəki eyni hərflərlə qarşılıqlı əlaqədə götürür və sübut etməyə nail olur ki, «Mədd» sözündəki mim və dal hərfləri Məhəmməd sözündəki eyni hərflərdən öz məzmununu və mə'nasını götürmüşdür.

**Ziynət olur əzəllə əbəd lövhinə tamam,**
**Nəqşi-xəyali-nöqteyi-xali Məhəmmədin.**

Şair Məhəmməd peyğəmbərin üzündəki mübarək xalın xəyal təsvirindəki naxışları əvvəlsizlik və sonsuzluq lövhəsinin ziynəti hesab edir.

**Dövran Füzuli işlərinə verməyib nizam,**
**Vermiş onu Məhəmmədü-ali-Məhəmmədin.**



Füzulinin adı da Məhəmməddir və şair qeyd edir ki, dövran Füzuli ləğəbli Məhəmmədin deyil, Məhəmməd peyğəmbərin və Məhəmməd ailəsinin işlərinə öz nizamını vermişdir.

Füzulinin «arizu» rədifli qəzəli imamlığın günəşi, bəşəriyyətin ümidi və xilaskarı olan Həzrəti Höccət Mehdi Sahibəzzəman (ə.s.) cənablarına həsr edilmişdir. Tutarlı, dəlil-sübutlu, dərin mə'nalı misralarla şair O cənabın gecə-gündüz, nəhayətsiz bir səbirsizliklə zühurunu gözlədiyini bildirir.

**Bülbüli-dil gülşəni-rüxsarın eylər arizu,**
**Tutiyi-can lə'li-şəkkərbarın eylər arizu.**

Ürək bülbülü sənin ruxsarının gülşənini, Can tutisi sənin şəkərsaçanləblərini arzu edir.

Beytin misralarında mə'na çalarlarını görmək mühümdür. Birinci misrada haqlı olaraq bülbül çəmənliyə doğru uçmaq arzusunda olduğunu bildirir. İkinci misradakı tutuquşu nəzərdə tutulan tuti şəkərli dodaqların istəyindədir. Belə ki, tutuquşunun sevdiyi yemək qənd və ya şəkərdir. Can tutisi də o Həzrətin şəkər dodaqlarından can əldə etməyin arzusundadır.

**Naməvü qasid pəyamilə xoş olmaz xatirim,**
**Öz ləbindən ləhcəyi-göftarın eylər arizu.**

Qasidin namələri və pəyamları, yəni şifahi surətdə çatdırılan xəbərlərindən xatirim xoş olmaz, sənin öz ləblərindən söhbətlərini eşitməyi arzulayıram.

Beyt bütövlükdə qəzəlin Sahibəzzəman əleyhissəlama həsr edildiyinə inandırıcı sübutdur. Aşağıda fikirlərimizi aydınlaşdıraq.

Sahibəzzəman (ə.s.) iki qeybət dövrü keçirmişdir; qeybəti-suğra, yəni kiçik qeybət və qeybəti-kübra – böyük qeybətdir ki, sonuncu bu günümüzə qədər davam etməkdədir.

Qeybəti-suğra – kiçik qeybət dövrünə, yəni sahibəzzəman (ə.s.) insanların gözündən gizlində yaşadığı vaxt Onun islam cəmiyyəti ilə əlaqələri, cəmiyyətə rəhbərliyi son dərəcə sıx və ardıcıl idi. İnsanların gözündən qaib olduğu vaxt cəmiyyətə bütün islami bilik və vərdişləri, şər'i məsələləri, əxlaqi problemlərin həllini özünün dörd canişi və qəzəldə deyildiyi ki, qasidi vasitəsilə həyata keçirirdi. Əlbəttə, hamı eyni vaxta yox, növbə

ilə imama xidmət edirdilər. Onlar imamın cəmiyyətə pəyamlarını (şifahi xəbər və sifarişlərini) və namələrini (məktublarını) çatdırır və adamların öyrənmək istədikləri bütün məsələləri imama ərz edirdilər. Onlar son dərəcə pak, dindar və imama sədaqətli adamlar idılər. Bu şəxslər bunlardır: Osman ibn Səid Əmri, Məhəmməd ibn Osman, Şeyx Əbülqasım Hüseyn ibn Ruh və Şeyx Əbülhəsən Əli ibn Məhəmməd Səmuri. Bu şəxslər yalnız qeybəti-suğra - kiçik qeybət dövründə imamın qasidləri və ya canişinləri olmuş, kiçik qeybət dövrü başa çatanda onların da canmişinlikləri bitmişdir. Qeyd edək ki, Sahibəzzəman (ə.s.)-ın kiçik qeybət dövrü 74 il çəkmişdir.

**Sərvü gül nəzzarəsin neylər sənə heyran olan,**
**Arizinlə qəddi-xoşrəftarın eylər arizu.**

Sənə heyran olan sərv ağacına, gülə baxmağı neyləyir ki? Sənə heyran olan gözəl yanaqlarının, qədd-qamətinin, xoş rəftarının şahidi olmağı arzu eliyər. Mənbələrin məlumatına görə sahibəzzəman (ə.s.)-ın olduqca gözəl sifəti, füsunkar xarici görkəmi var imiş.

**Arizu eylər ki, mən tək müttəsil bimar ola,**
**Kim ki, vəsli-nərgizi-bimarın eylər arizu.**

Kim ki, sənin nərgiz gözlərinin dərdlisi olmağını arzulayır, arzu edər ki, mənim kimi aramsız dərdli və ya bimar olsun.

**Hicr bimari-tənim badi-səbadan dəmbədəm,**
**Sihhət üçün sihəti-əxbarın eylər arizu.**

Bu hicran günlərində mənim bu xəstə bədənim badi-səbadan səhhəti, yəni sağlamlığı üçün sənin səhhətinin xəbərlərini anbaan arzulayır.

**Zülməti-hicrində baxmaz şəm'ə çeşmim mərdümü,**
**Pərtövi-ruxsari-pürənvarın eylər arizu.**

Nə qədər ki, hicranın zülmətindəyəm, gözlərimin bəbəyi nur istəyindən ötrü şama belə nəzər salmaz, daim sənin parlaq, nurlu ruxsarını arzulayar.

**Arizuməndi-vüsalındır Füzuli xəstədil,**
**Vəslin istər, dövləti-didarın eylər arizu.**

Bu ürəyi xəstə Füzuli sənin vüsalının arzusu ilə ömür sürür, sənin vəslini istəyir, vüsal dövlətini arzulayır.



**Bir yolda sabit et qədəmi-etibarimi**
**Kim, rəhbəri-şəriət ola müqtəda mana.**

Mehdi Sahibəzzəman (ə.s.) haqqında Rəsuli-Əkrəm (s)-dən bizə olduqca çoxlu hədislər çatmışdır. Bütün bu hədislər mahiyyətcə belə bir məna ətrafında qruplaşırlar ki, bir zaman yer üzü tam haqsızlıq və ədalətsizlik və dolduğu, öz islami e'tiqadında bir ovuc sabitqədəm adamların qalacağı zaman Peyğəmbər əhli-beytindən Mehdi adlı birisi zühur edəcək və dünyanı haqq və ədalətlə dolduracaqdır. Bundan sonra Mehdi ümumdünya islam dövlətinin şəriət rəhbəri kimi təzahür edəcək, dünya müsəlmanları onun arxasında namaz qılacaqlar.

Məhəmməd Füzuli də belə bir sabitqədəm adamların içində olub imama xidmət etməyi, şəriət rəhbəri kimi ona iqtida etməyi öz beytində arzulayır.

**Arizin görsə fələk mehr buraqmaz ayə,**
**Zərrə-zərrə qılıb onu buraqır səhrayə.**

Sahibəzzəman (ə.s.)-ın qeybdə, insan gözündən tam gizli qalması vəsf edilir, yəni o gözdən elə qeybdədir ki, fələk, yəni günəş də onu görə bilmir, əgər fələk onun surəti-cəmalını görə bilsəydi, onda aya mehr salmazdı, yəni işığını ona saçmazdı, sənin çöhrən fələyin gözündən ayın gözəlliyini elə salardı ki, fələk-günəş ayı zərrə-zərrə edərək ətrafa səpələrdi.

Bu beytdə həm də elmi məna gizlənməkdədir; elm təsdiq etmişdir ki, ay öz işığını günəşdən alır. Ayın səthi elə kələ-kötür görünüşdədir ki, baxanda onun didilib sovrulduğunu insan zənn edir. Şair çox uğurla bu elmi fakt ilə Mehdı əleyhissəlamın qeybdə olması arasında analogiya taparaq oxucunu növbəti dəfə heyrətə salmağa müvəffəq olur.

**Surətin əksin alıb bağa girər hərdəm su,**
**Rəşkdən qan içirir bərgi-güli-rə'nayə.**

Sən suya baxanda hər dəfə su sənin əksini alaraq axıb özü ilə bağa aparır və rəna güllər sudakı əksini görəndə paxıllıq və həsəddən elə günə düşürlər ki, içdikləri su onlar üçün qana dönür.

**Yeridir ayinə əksinə dəmir bənd ursa,**
**Nə üçün qarşı durur sən kimi bihəmtayə.**

Şair Sahibəzzəman (ə.s.)-ın camalını özündə əks edən güzgüyə də qısqanclıqla yanaşır, yəni Sahibəzzəman (ə.s.) güzgüyə baxanda güzgü öz üzünə dəmir lövhə çəksə yaxşı olar, nə üçün sən kimi misli-bərabəri olmayan bir zatın qarşısında durub-dayansın.

**Bulduğu yerdə həsəddən gün urar sayənə tiğ**
**Ki, rəfiq olmaya sən mahi-mələksimayə.**

Gün səni harada tapsa sayənə – kölgənə qılınclar vurmaq istər; nə üçün sənin kölgən sən kimi ay üzlü mələksimaya rəfiq olsun.

«Kölgəni qılınclamaq» ifadəsi Həzrəti Əli (ə.s.)-ma məxsus olan bir deyilişdir. Bu ifadənin yaranma tarixi vardır. Bir kişi Həzrəti Əlinin yanına gəlib qonşusnudan şikayətlənir ki, qonşu onun arvadını gecə yuxuda görərək cünb olmuş, yəni cənabətli hala düşmüş və ertəsi gün yuxusunu adamlara danışaraq onu rüsvay etmişdir. Həzrəti Əli həmin adamı yanına çağıraraq gün altında onun kölgəsinə yüz qılınc vurmağı əmr etmişdi.

**Mənə badi-səba ol sərvi-gülruxdən xəbər verməz**
**Açılmaz qönçeyi-bəxtim, ümidim nəxli bər verməz.**

Həzrəti imam Mehdi qeybdə, gözdən gizlində olduğu üçün onun zühurunu gözləmək zorunda qalan Məhəmməd Füzuli və ya Füzuli aşiqi Onun gəlişini hicrani göz yaşları içində badi-səbadan soraqlayır, o da bu işdən xəbərsizdir. Şairin sərvigülrux adlandırdığı İmam əleyhissalamdan badi-səba da xəbər yetirməkdə acizdir. Bu səbəbdən aşiqin nə bəxt qönçəsi açılır, nə də ümid ağacı bəhər verir.

**Töküb göz yaşını sənsiz həlakim istərəm, əmma**
**Əcəl peykinə seyli-əşk girdabı güzər verməz.**

Aşiq Onsuz göz yaşını töküb həlak olmağını, məhz göz yaşları içində məhv olmağını arzulayır, ancaq bunu eliyə bilmir, çünki onun göz yaşları o qədər də çox deyil ki, onda girdab-burulğan əmələ gələ və aşiq də bu girdabın dairəsinə düşüb ölüm peykinə çevrilə və fırlana-fırlana girdabın ortasındakı ölüm nöqtəsinə çatıb orada məhv olub gedə.



**Gözümdə məskən et, xari-müjəmdən etiraz etmə,**
**Güli-xəndanə sordum, xarə yar olmaq zərər verməz.**

Gör İmamın camalına, vəslinə yetişmək sevgisi nə qədər güclüdür ki, İmamın qeybdən çıxıb gizlindəki yerini şair öz gözündəki yer ilə əvəz etməsini rica edir, İmamın onun gözündə məskən salmağını diləyir, gözlərinldə sıralanan iti uclu kirpiklərdən e'tiraz etməməyi təkid edir. Bunun təhlükəsiz olduğunu güli-xəndandan – yenicə açılan qızıl güldən soraqlayır, öyrənir ki, xarə yar olmaq, yəni tikanlara məhrəm olmaq zərər vermir.

**Əgər can almaq istərsən, tənimdən tiğini kəsmə**
**Ki, pəjmürdə nihalə verməyincə su səmər verməz.**

və yaxud:

**Qıymadın sakini-kuyin olana peykanın,**
**Bir içim su ilə ağrılamadın mehmanın.**

Bu iki beyt ilə Həzrəti İmam Hüseyn (ə.s.) oğlu, altı aylıq Əli Əsğər (ə.s.)-ın Kərbəla faciəsi zamanı beşikdə ikən təsadfi bir ox zərbəsindən həlak olmasına nəzərən söylənilmişdir.

Birinci beytin mə'nası belədir ki, əgər mənim canımı almaq istəyirsənsə, onda bədənimdən kəsərtini-tiğini, yəni oxunu, qılıncını əskik etmə, necə ki, qollu-budaqlı, sıx yarpaqlı bir ağaca su verməyincə ondan bəhər əldə etmək olmaz.

İkinci beyti belə şərh etmək olar ki, sənin kuyində sakin olana bircə oxunu qıymadın. Bir içim su ilə qonağının ağrılarını götürmədin.

Hər iki beytin mə'nası ya bir başa, ya da dolayısı ilə Həzrəti-Əli Əsğərin həlakına eyhamla deyilmişdir.

Belə bir rəvayət söylənilir ki, Kərbəla faciəsinin qızğın çağında bir düşmən oxu uçub beşikdəki Əli Əsğərin boğazına sancılıb onu al qana boyayır. Bu zaman Əli Əsğər susuzluqdan əziyyət çəkirmiş. Gəlib oxu Həzrətin boğazından çəkib çıxarırlar. Bu vaxt oxun ucundakı dəmir peykan – ucluq dilə gəlir və deyir ki, bir dəmirçi məni vücuda gətirərkən odda közərdər və soyutmaq üçün məni suyun içinə salıb soyudardı. Mən gördüm ki, Həzrət beşikdə susuzluqdan qovrulur, yazığım gəldi. Yadıma düşdü ki, bəlkə mənim canımda dəmirçinin suyundan bir içim qalıb, qoy onu Həzrətə verim və bununla da Onun susuz-

luq atəşini söndürə bilim. O səbəbdən Həzrətin boğazına sancılmalı oldum.

**Pərişan xəlqi-aləm ahu əfğan etdigimdəndir,**
**Pərişan olduğum xəlqi pərişan etdigimdəndir.**

Füzuli bu beyti məhz Peyğəmbərimizin qızı Fatimeyi-Zəhra-səlamullahu əleyhanın xüsusunda demişdir. Bu dəqiqdir. Beytin məzmunu Fatimənin həyatının son dövründə düşdüyü mənəvi-ruhi iztirabların parametrlərinə tam uyğun gəlir.

Beytin qəhrəmanı öz ahu əfğanları ilə, naləlari ilə adamları pərişan etmişdi. Bu vəziyyət birinci misranın məzmununu təşkil edir. İkinci misrada beytin qəhrəmanı eşidir ki, öz nalələri ilə adamları incidib pərişan etmişdir və bu zaman yenidən pərişan olur və nalələr çəkir ki, niyə adamları narahat edib onları qüssələndirmişdir.

Görəsən bu adama nə olmuşdur ki, qəmdən pərişan olub nalələr çəkmiş və bununla da adamları pərişanlığa salmış və sonradan bunu eşidib dübarə pərişan olmuşdur? Bu şəxs Fatimeyi-Zəhradır. Onun beytin qəhrəmanına çevrilməsi aşağıdakı çox maraqlı və ibrətamiz hadisə ilə izah edilə bilər.

Peyğməbər rəsulillahın vəfatı qızı Fatiməni olduqca pərişan edib kədərləndirir. O gecə-gündüz nalələr çəkib ara vermədən ağlayırmış. Onun bu nalələri ətraf adamları da pərişan edibmiş. Bir gün adamlar Həzrəti Əliyə bu haqda şikayətlənirlər və Əli də Fatiməyə bunu danışır və nalə çəkib ağlamaqda ehmallı və sakit olmağı Ondan rica edir. Məsələni başa düşən Fatimə adamları incitdiyinə görə yenidən pərişan olub ağlayır. Onun xahişi ilə Əli Peyğəmbərin məzarı yanında kiçik bir otaq tikir. Fatimə ağlamağı ilə adamları narahat etməsin deyə həmin otağa köçür və səhərdən axşamadək orada oturub atasının ölümü üçün nalələr çəkib ağlamaqda davam edir. Bu otağa Beytülhəzən – qəm-qüssə evi adı verlmişdir. İkinci belə ev Yaqub peyğəmbər üçün tikilmişdi ki, bu barədə irəlidə danışacağıq.

**Eşq əhlinə ol mah, Füzuli, nəzər etmiş,**
**Sən həm özünü göstər əgər bir hünərin var.**

Füzuli eşq əhlini tərənnüm etməklə bərabər həm də özünü onlarla müqayisə edir və özü-özünə deyir ki, o mah - 



ayüzlü eşq əhlinə nəzər yetirməklə onları özünə aşiqliyə layiq bilmişdir, onlar eşq meydanının hünərvərləri və qəhrəmanlarıdır, sən, Füzuli, özünü hünərli hesab edirsənsə, onda buyur, meydana gir və sən də öz hünərini göstər.

Beytdə eşq əhli çahar dəh – on dörd məsum, yəni Peyğəmbər rəsulillah, qızı Fatimeyi Zəhra və On iki imam tərənnüm olunurlar.

***

İslam əhlibeytinin tərənnümü nöqteyi-nəzərindən Füzuli qəsidələri çox mühüm yer tuturlar. Burada onlara qarşı Füzulinin hiss və həyəcanları xüsusilə güclüdür. Füzulinin qəsidələri yəqin ki, füzulişünas alimlər tərəfindən dərindən öyrənilmişdir. Lakin hələ mənə məlum deyildir ki, alimlərimizin tədqiatlarında islam müqəddəslərinə Füzulinin münasibəti nə dərəcədə öyrənilmişdir, bu çox maraqlı olardı. Lakin təkrar olmuş olsa da, Füzulinin islam müqəddəslərinə münasibətinin yenidən qələmə alınması fikir müxtəlifliyi baxımından öz aktuallığını saxlamaqdadır. Biz də belə fikirləşdik ki, din müqəddəslərindən bəhs edən qəsidələrindəki beytlərin yenidən mə'nalandırılması nəinki lazımdır, hətta vacibdir, çünki sovet dönəmində alimlər məcbur edilirdi ki, Füzulidə din və dini şəxsiyyətlər problemini ya öyrənməsinlər, ya da dinsiz, cəfəng uydurmalarla dolu olan tədqiqatlar ortaya çıxarsınlar. Əlbəttə, mən qəti əminəm ki, alimlərimiz belə əsərlər yazmamış, hətta qadağan illərində də çalışıb Füzulini həqiqi sifətində oxucuya təqdim edən kitablar çap etdirə bilmişlər.

Biz, əlbəttə, bütün qəsidələrdəki beytləri təhlil etməyi qarşıya məqsəd qoymamışıq, çünki, həm kitab əndazədən çıxar, fikir təkrarlığına yol verilər, həm də oxucu cismən və mə'nən yorğunluğa düçar olar. Biz çalışmışıq ki, o qəsidələri təhlil üçün seçək ki, onlar din, islam müqəddəslərinə məxsusi olaraq həsr edilmişlər.

Təbiidir ki, söhbətimizi Məhəmməd peyğəmbər əleyhissəlamın vəsfindən bəhs edən qəsidələrlə başlayacağıq. Qəzəldə olduğu kimi qəsidələrdə də məzmunla bağlanmayan bəzi beytlər nəzərə çarpır ki, onların təhlili bu kitabda nəzərdə tutulmamışdır.

«Su» rədifli qəsidəsində Füzuli Məhəmməd peyğəmbərin vəsfində onun malik olduğu mə'nəvi keyfiyyətlərin suyun gizli və heyrətamiz xüsusiyyətləri ilə necə əlaqələnməsini qibtə ediləcək bir ustalıqla oxucuya təqdim edir.

**Suya versin bağiban gülzari, zəhmət çəkməsin,**
**Bir gül açılmaz üzün tək versə min gülzarə su.**

Bağban gülzara su verməklə özünü heç də zəhmətə salmasın, o min dəfələrlə gülzara su versə də bircə gül də sənin sifətinə bənzər şəkildə açıla bilməz.

**Oxşada bilməz ğübarini mühərrir xəttinə,**
**Xamə tək baxmaqdan ensə gözlərinə qarə su.**

Yazı yazan heç vaxt ayağının tozunu yazısının xəttinə bənzədə bilməz, lap xamə kimi baxmaqdan gözlərinə qara su ensə də.

Ayaq tozu və ya torpağın tozu qara rəngdə olduğu üçün yazı yazanın xəttinə oxşar tutulur. Xamə isə qələm, üslub mənasındadır. Şair bizcə xaməni üslub anlamında bizə təqdim edir. Çünki yazının formasına baxanda onun üslubu daim gözə çarpan olduğu üçün şair bunu baxmaq və gözləmək məqamı kimi qiymətləndirir.

**Ğəm günü etmə dili-bimardən tiğin diriğ,**
**Xeyrdir verməк qaranğu gecədə bimarə su.**

Qəm günü tiğini (qılıncını, xəncərini və s.) ürəyi bimar – xəstə olanlardan əsirgəmə, qaranlıq gecədə bimara su vermək savab işdir. Burada bəzi izahata ehtiyac vardır. Şair xəstə ürəyə vurulan tiği onun sağalması üçün çarə hesab edir. Necə ki, qaranlıq gecədə bimara su vermək xeyirxah iş sayılır. Tiğ – qılınc, xəncər peyğəmbər rəsulillahın insanlara nicat verən, onları bədbəxtlik gətirən həyatdan uzaqlaşdıran danlaqlı, məzəmmətli, ibrətamiz nəsihətləri kimi qəbul edilə bilər. İkinci misrada bimar qaranlıqda azıb haraya gedəcəyini bilməyib bir yerdə dayanıb qalan adam mənasında götürülür. Çünki əgər xəstə heç yana gedə bilmirsə, yolu itirmiş adam da heç yana tərpənə bilmir. Şair bu iki bimar arasında ustalıqla eynilik tapa bilir. Odur ki, ikinci misradakı «su» sözü maye mənasında yox, istiqamət mənasında təqdim edilir və yolunu azanlara - bimara su vermək, onlara yol, istiqamət göstərmək anlamındadır.



**Mən ləbin müştaqiyəm, zöhhad Kövsər talibi,**
**Netəkim məstə mey içmək xoş gəlir, huşyarə su.**

Oxucudan çox təvəqqe edirik ki, bu beyti zahiri, səthi müstəvidə yox, batini obrazlarda mənalandırsınlar. Həm də bu beyti sözbəsöz təhlil etmək artıq iş olub təkrarçılığa gətirib çıxarar. Ehtiyac olduqda müəllifin «Deyildim mən sənə mail» adlı kitabına müraciət edilə bilər.

**İstə peykanın, könül, hicrində şövqüm sakin et,**
**Susuzam, bir gəz bu səhradə mənimçün arə su.**

Şair könlünə buyuraraq yarından özünə ox və yaxud peykan istəyir ki, onun hicrində bu ox onun yara olan fırtınalı şövqünü və eşqini bir qədər aram etsin, şair könlünə həmçinin susuz olduğunu, bu səhrada gəzib onun üçün su tapmağı rica edir. Füzuli beytdə yarın hicranını səhraya, yara olan şövqünü susuzluğa, yarın peykanını isə susuzluq atəşini söndürən suya mütabiq vəziyyətdə götürür. Beytin müfəssəl mənalandırılmasını burada oxucunun üzərinə qoyuruq, bu qədər danışdıq bəsdir.

**Rövzeyi-kuyinə hərdəm durmayıb eylər güzar,**
**Aşiq olmuş, ğaliba, ol sərvi-xoşrəftara su.**

Su bir an dayanmayaraq sənin kuyinin baxçasına yol almaqdadır, görünür ki, su o xoşrəftar sərvin aşiqidir.

**Su yolun ol kuyidən torpaq olub dutsam gərək,**
**Çün rəqibimdir, dəxi ol kuyə qoyman varə su.**

Şair bundan əvvəlki beytə burada mənaca yekun vurur. Daim yarın kuyinə axan su şairin rəqibinə çevrilir: Şair torpaq olub o kuya axan suyun qarşısını kəsir ki, oraya bir daha yetişə bilməsin.

**Dəstbusi arizusundan gər ölsəm, dustlar,**
**Kuzə eylin torpağım, sunun onunla yarə su.**

Ey dostlar! Əgər onun əlindən öpmək arzusu ilə ölərəmsə, onda torpağımdan kuzə düzəldib onunla yara su töküb verin. Şair yarının əlindən birbaşa öpə bilməməyi öləndən sonra onun torpağından düzəldilmiş kuzədən yarın əlinnə su tökməklə əvəzləyir. Bu Füzuliyə dahi deməyəsən, nə deyəsən!

**Tinəti-pakini rövşən qılmış əhli-aləmə,**
**İqtida qılmış təriqi-Əhmədi-Muxtarə su.**

Su islam şəriətində pak maye hesab olunur. Ancaq şairin təbirincə, onun paklığının səbəbi odur ki, o peyğəmbər əleyhissəlama iqtiba etmişdir.

**Qılmaq üçün tazə gülzari-nübüvvət rövnəqin,**
**Mö'cüzatdan eyləmiş izhar səngi-xarə su.**

Məhəmməd peyğəmbər yeni (sayca sonuncu) peyğəmbərlik gülzarına rövnəq vermək üçün çoxlu möcüzələr göstərməklə əşrarın (tək halda şərir), yəni yaramaz, daş qəlbli adamların bəd əməllər atəşinə su səpməli oldu.

**Mö'cüzi bir bəhri-bipayan imiş aləmdə kim,**
**Yetmiş ondan min-min atəş xaneyi-küffarə su.**

Peyğəmbərin möcüzələri əvvəli-sonu olmayan bir dəryadır ki, bu dəryadan minlərlə kafir atəşxanalarına (yəni bütpərəstlərin atəşgədələrinə) su çilənmişdir.

**Heyrət ilən barmağın dişlər kim etsə istima,**
**Barmağından verdiyin şiddət günü ənsrə su.**

Kim diqqət ilə dinləsə peyğəmbərin susuzluq zamanı öz barmağından ənsara su verməsi hekayətindən heyrətlənib barmağını dişlər.

Ənsar Məhəmmədin Mədinə şəhərindəki tərəfdarlarına verilən addır. Bizcə beytdəki qeyd etdiyimiz hadisə Bəvadidəki hadisənin ola bilsin ki, özüdür, ola da bilsin ki, başqa hadisədir. Lakin hər iki hadisədə Peyğəmbərin barmağının möcüzəli hərəkəti ilə su hasilə gətirib adamların susuzluğunun söndürməsinə işarə vurulur.

**Eyləmiş hər qətrədən min bəhri-rəhmət mövcxiz,**
**Əl sunub urğac vüzu üçün güli-ruxsarə su.**

Vüzu – yəni dəstəmaz almaq üçün rəsuli əkrəmin əlinə su alıb öz güli-ruxsarını yuyarkən yerə dağılan qətrələrdən min-min rəhmət dəryaları əmələ gəlmişdir.

**Xaki-payinə yetəm der, ömrlərdir müttəsil,**
**Başını daşdan-daşa urub gəzər avarə su.**

Yarın ayaq torpağına yetişsin deyə su avara-avara gəzib başını daşlara vurmaqla ömrünü başa vurmaqdadır (su daşa və ya qayalıqlara rast gələndə sanki daşa baş vururmuş kimi bir vəziyyət alır. Bu da şairə yara yetişmək üçün sərf etdiyi ömrün nə bəlalarla müşaiyət olunduğunu vəsf etmək imkanı verir).

**Zərrə-zərrə xaki-dərgahinə istər sala nur,**
**Dönməz ol dərgahdən gər olsa parə-parə su.**

Xaki-kuyinə yetən su o dərgaha zərrə-zərrə nur salmaq istər və parça-parça olsa da oradan üz döndərməz.

**Zikri-nə'tin dərdinə dərman bilir əhli-xəta,**
**Eylə kim, dəf'i-xumar içün içər meyxarə su.**

Səni tə'riflə zitkr etməyi günahkarlar öz dərdlərinə dərman hesab edirlər, necə ki, sərxoşluğu dəf etmək üçün şərabxorlar həmişə su içərlər.

**Ya Həbibüllah! Ya Xeyrül-bəşər! Müştaqinəm,**
**Eylə kim, ləbtəşnələr yanıb dilər həmvarə su.**

Həbibüllah Məhəmmədin ləğəbi olub mənası Allahın hər iki dünyada dostu deməkdir. Həm də o Xeyrülbəşər, yəni insanlığın ən xeyirlisi adını daşıyır. Şair onu elə arzulayır ki, sanki suya möhtac olanlar dil çıxarıb yana-yana hər tərəfdən su diləyirlər.

**Çeşmeyi-xurşiddən hər dəm zülali feyz elər,**
**Hacət olsa mərqədin təcdid edər me'marə su.**

Günəş çeşməsindən hər an feyz zülalı və ya suyu yerə enər ki, ehtiyac olsa sənin qəbrin və ya yatağın me'mara bu suyu yetirməklə onun işini təzələyər, yaxud onun işini istiqamətləndirər (yəqin ki, Peyğəmbərin qəbrini necə inşa etmək mənasında).

**Bimi-duzəx nari-ğəm salmış dili-suzanimə,**
**Var ümidim əbri-ehsanın səpər ol narə su.**

Cəhənnəm qorxusu bu yanar ürəyimə qəm odunu salmışdır, ancaq ümid edirəm ki, sənin ehsan buludun bu qəm oduna su səpəcəkdir.

**Məhi-sipehri-nübüvvət, Mühəmmədi-qürəşi,**
**Çırağı-şami-əbəd, afitabi-sübhi-nüşur.**

Şair beytində peyğəmbərimizin adını Məhəmmədi-qürəyşi kimi təqdim edir. Bu da aydındır. Məhəmməd Qürəyş tayfasındandır, həm də həmin tayfanın haşimilər nəslindəndir. Şai-

rin təbirincə Məhəmməd əbədiyyət şamının (axşamının) çırağıdır, axirətdə ölülərin diriləcəyi günün səhər günəşidir.

**Şəhənşah ki, Süleymani-mülki-mə'na olub**
**Müti' oldu ona cinnü insü vəhşü tüyur.**

Şahənşah adını ona verməklə şair Məhəmmədi məna mülkünün Süleymanı hesab etməklə bərabər insanların, cinlərin, vəhşi yırtıcıların və quşların ona müti' olduqlarını da göstərir. Bu həqiqətən belədir. Qurani-Kərimdə Məhəmmədin insanların və həm də cinlərin peyğəmbəri olduğu rəsmən göstərilir. Eyni zamanda lazım olan məqamda o Həzrət yırtıcıları və quşları da öz möcüzəli hökmü ilə özünə ram etməyi bacarırdı.

**Cahanı açmaq üçün tapşırıldı həzrətinə,**
**Kilidi-məxzəni-məhruseyi-vüqufi-şüur.**

Cahanı açmaq, yəni dünyanı dərk etməkdən ötrü İlahi Pərvərdigar tərəfindən şüurlara vaqif olmaq elmini qorumaq xəzinəsinin açarlarını o Həzrətə tapşırmışdır. Fikrimizi daha aydın bildirmək üçün qeyd edirik ki, şair şüurlara bələd olmaq və onu qorumağı bir elm xəzinəsi hesab edərək bu xəznənin açarını Allahın Məhəmmədə tapşırdığı qənaətinə gəlir ki, bu da dünyaya bələd olmaq vasitəsi kimi qiymətləndirilir.

**Şikəsti-nüqreyi-xalis iyari-məh qoydu,**
**İyari-nüqreyi-zatında ehtimali-küsur.**

Bu Füzulinin ən nadir beytlərindəndir. «İyar» və ya «əyar» ərəb sözüdür, əlvan metalların – qızılın və gümüşün saflıq dərəcəsini ölçən məhək daşıdır. Nüqrə isə gümüş deməkdir. Şair Peyğəmbərin saf mənəviyyatını bütün qiymətli dəyərlərin saflığını ölçən məhək daşı hesab edir. Şairə görə Məhəmmədə qədərki bütün cəmiyyət zahirən saf, daxilən qatışığı olan, tam saf olmayan bir gümüşə bənzəyirdi.

Peyğəmbərimizin məhəkə bənzər saf ağlı həmin gümüşün zatında natəmizliyi, napaklığı və ya çatışmamazlığı zahirə çıxardı, yəni cahiliyyə cəmiyyətinin harama, çirkaba na qədər bulaşdığını aydın göstərdi.

**Rüxü qədindir olan xəlvəti-cinan içrə,**
**Çiraği-məclisi-qilmanü şəm'i-məfhilihur.**

Sənin sifətin və qəddin o gözəgörünməz cənnətlərdədir,



qılmanların məclisinin çırağı, hurilər cəmiyyətinin şamıdır.

**Nə şək ki, axdı Bəvadidə barmağından su,**
**Bu şərhədir mütəzzəmmin xütuti-mövci-bühur.**

Bu beytin səthi mənası belədir ki, Bəvadidə barmağında su axmasına heç bir şəkk-şübhə ola bilməz. Yer üzünü bürüyən dəryaların xətlərə bənzər dalğaları bu bıçaq yarasının mənzərəsini özündə nümayiş etdirir. Şairə görə barmağa çəkilən bıçaq yarası nazik iz şəklində olur ki, dalğaların da forması həmin izə uyğun gəlir. Misrada «şərhə» sözü ərəbcə kəsmə, yarma mənasını verir. Şair yüksək təşbih işlədərək Peyğəmbərin barmağına bıçaq çəkib alınan yaradan su çıxararaq susuzların atəşini söndürdüyünü bizə anladır.

Ancaq məsələnin sadə təhlili belədir ki, Məhəmməd peyğəmbər barmağı ilə çox möcüzələr göstərə bilirmiş. Məsələn, «Şəqqülqəmər» əhvalatı buna misal ola bilər. Bir dəfə Peyğəmbər barmağı ilə ayı iki hissəyə bölübmüş. Ona görə də mümkündür ki, Bəvadi adlanan yerdə adamların susuzluğunu söndürmək üçün Peyğəmbər barmağının möcüzəli hərəkəti ilə yerdən su çıxarmağa nail olmuşdur.

**Müxalif əmrinədir badə kim, əyağa düşər,**
**Nəqizdir ona kim guşmal yeyər tənbur.**

Badəyə şərab süzəndə onu aşağı qoyurlar, yəni ayaqda saxlayırlar (badənin bir adı da ayaq, yaxud əyağdır). Tənbur isə zərb musiqi alətidir. Peyğəmbərimiz həm badəyə haram gözü baxmış, həm də tənbur çalmağı pisləmişdir. Ona görə də şair deyir ki, badə sənin əmrinə müxalif, zidd olduğu üçün ayağa düşdü, başqa cür desək, atıldı. Tənbur sənə əks olduğu üçün ona kötəklər dəydi (tənbur zərbələrin təsiri ilə səslənir).

**Əya şəhi ki, güruhi-peyəmbəri-mürsəl,**
**Behiştə basmaz ayaq səndən almadan dəstur.**

Ey şah! Bütün mürsəl peyğəmbərlər səndən icazə almadan cənnətə ayaq basmazlar, necə ki, padşahın izni olmadan saraya adamlar buraxılmırlar.

**Əgərçi xaməyə əl urmadın, əlində idi,**
**Xəti-bətaləti-«İncil»ü hərfi-nəsxi «zəbur».**

Heç bir qələm qoşmadan süst, ölgün xətləri olan «İncil»i

və tutqun və görünməyən hərfləri olan «Zəbur»u əlində tutmuşdun.

**Burax hicab niqabın gözəl cəmalından**
**Ki, ta görə səni ortada görməyən neçə kur.**

Şair Rəsulillaha rica ilə buyurur ki, əgər cəmalında niqab varsa, onu at ki, bəzi korlar səni görə bılsinlər. Əlbəttə, burada «niqab» da, «korlar» da mə'nəvi məqamlı sözlərdir. Yəni həmin korlar gözlü, hər şeyi görə bilən korlardırsa onda Rəsulillahın camalında görməyə mane ola bilən heç bir niqab ola bilməz.

**Müruri-ömri-sənayi-rəsul ilə keçürəm,**
**Öləndə edəm onu ərməğani-əhli-qübur.**

Ömrümü peyğəmbərə dualarla keçirirəm ki, öləndə bu dualı ömrümü qəbir əhlinə bir ərməğan kimi aparım.

Şairin «səba» rədifli qəsidəsi də mövzu baxımından mühüm əhəmiyyət kəsb edir. Əvvəlki qəsidədə su Məhəmməd peyğəmbərin şövqünün tə'sirlə öz məcrasından, bir növ, çıxıb dəli bir sevdanın cünunu kimi vurnuxurdusa, bu qəsidəsində isə səba yeli də məhz belə bir eşqin sarsıntısı ilə haraya gəldi cövlan edir.

**Axtarıb bulmaq dilər vəsfi-rüxün kim, müttəsil**
**Nüsxeyi-gülbərg övraqın qılır əzbər səba.**

Sənin rüxsarının vəsfinə yetişmək qəsdilə səba sənin gül yarpağına bənzər kitabının vərəqlərini daim əzbərləməkdədir. Təbii ki, «nüsxeyi-gülbərg övraq» dedikdə şair Qurani-Kərimi nəzərdə tutur.

**Ayağın torpağını yerdən alır tə'zim ilə,**
**Ğaliba düzmək dilər başına bir əfsər səba.**

Səba təzim göstərərək, yəni əyilərək yerdən ayağının torpağını götürür ki, ondan başında gəzdirmək üçün bir tac düzəltsin.

**Eşidibdir ğaliba qəddinlə şəm'in bəhsini,**
**Hər qaçan gördiysə eylər şəm'ə qəsdi-sər səba.**

Nə vaxtsa səba eşitmiş ki, şam sənin qəddinlə bəhs etmək istəmişdir, odur ki, nə vaxt şamı görürsə onun başını almağa qəsd edir. Belə bir adi həqiqət hamıya mə'lumdur ki, şamın ip-



liyi içəridə olanda onu yandırmaq çətin olur. Onda şamın başından bir qədər kəsib atırlar ki, iplik görünsün. Şair şamın bu mənalı qiyafəsinə peyğəmbər əleyhissəlamın vəsfi baxımındann çox orijinal bir təsvir vermişdir.

**Asitanında müqimi olmağa bulsaydı qəbul,**
**Həq bilir olmazdı sərgərdani - bəhrü bər səba.**

Əgər səba sənin astananda – kandarında sakin olub yaşamaq imkanına yiyələnsəydi, onda Allah bilir ki, o dəryaların və çöllərin sərgərdanı olmazdı.

**Asimanə qədr ilə çıxsa nə hasil, çün degil**
**Ona qabil kim, ola qapında xaki-dər səba.**

Səba qədr-qiymətini yüksək tutulub asimana çıxmağa layiqi olsa belə, xeyri yoxdur, çünki sənin qapında onun torpağın olmağa belə dəyəri çatmır.

**Abi-dərya üzrə gəh İlyasvəş seyran edər,**
**Gah eylər məskən İbrahim tək azər səba.**

Səba gah İlyas kimi dəryanın üzəri ilə aləmi seyr edir, gah da İbrahim kimi od içində özünə məskən salır.

İlyas peyğəmbərdir, ona Xızr peyğəmbər adı ilə də müraciət edilir. İlyas peyğəmbərin Həzrəti Musa ilə məşhur dəniz gəzintisi olmuşdur. İbrahim peyğəmbər bütxanada bütləri qırdığı üçün onu oda atmışlar ki, yansın, lakin Uca olan Allahın hökmü ilə odun istisi sərinləşmiş, tonqal isə gülzara çevrilərək İbrahimə zərər toxundura bilməmişdir. Şairin işlətdiyi «azər» sözü burada od, alov mə'nasında işlənsə də İbrahimin ana babasının adı da Azər olmuşdur. O, taxtadan bütlər qayırıb sitayiş üçün bütxanaya qoyurmuş.

**Oddan afət görməzü, sudan zərər, guya qılır**
**Qanda olsa iqtidai-şər'i-peyğəmbər səba.**

Məlumdur ki, havaya nə od, nə də su təsir edə bilmir. Şair də buna bu cür məna verir ki, havanın (səbanın) oddan və sudan zərər çəkməməsinin səbəbi ondadır ki, o, yəni səba harada olsa peyğəmbərin şəriətinə daim əməl etməkdədir.

**Ol şəhənşah kim rizasilə gəzər hər qanda var,**
**Gər şimalü gər dəburü gər cənubü gər səba.**

Səba yeli o şahlar şahının vüsalına yetişmək istəyi ilə

daim şimalı, cənubu və qərbi dolanmaqdadır.

**Ey güli-bağı-rəsul bir tazə gülşəndir qapun**
**Kim, dəmi-Cibrilə ol gülşəndə tə'n eylər səba.**

Ey peyğəmbərlər bağçasının gülü! Sənin qapın elə bir təzə gülşəndir ki, Cibrilin, yəni Cəbrayılın çəkdiyi hər nəfəsə səba tənələr vurar.

**İstəyib bulmaz qapun feyz almaq üçün müttəsil**
**Qanğı gülşən seyrinə girsə çıxar müztər səba.**

Səba sənin qapının feyzini tapmaq qəsdilə hansı gülşənə girirsə, oradan dilxor və ihztirablı halda çıxır.

**İlətir xaki-dərini zərrə-zərrə gülşənə,**
**Qılmaq üçün tutiyayi-dideyi-əbhər səba.**

Səba ümmana bənzər gözlərinə tutiya düzəltmək üçün qapının torpağını zərrə-zərrə gülşənə göndərməkdədir.

**Atəşi-bidad ilə aləm yanar, gər qılmasa**
**Ədlini şaye', gəzib hərdəm yedi kişvər səba.**

Əgər səba sənin ədalətini hər tərəfə yaymaq üçün yeddi ölkə gəzib dolanmasa aləm zülm odunda alışıb yanar.

**Öz günahinə şəfaət istəyib, fəryad edüb**
**Cizgünür xaki-məzarin üzrə ta məhşər səba.**

Səba daim öz günahlarının bağışlanması üçün fəryad edərək ta qiyamətə qədər sənin məzarının ətrafını dolanmaqdadır.

**Etməzəm tərki-təmənnayi-təvafin çıxsa can,**
**Xak həm olsam ğübarimi sənə iltər səba.**

Canım çıxsa da səni təvaf etmək təmənnasından əl çəkmərəm, əgər torpağa dönsəm səba onun tozunu mütləq sənə göndərər.

**Açmış ümmidi-rəhi-vəsli dili-pürxunimi,**
**Eylə kim fəsli-bəhar açar güli-əhmər səba.**

Vüsal yolunun ümidi mənim qanla dolu ürəyimi açmaqdadır, necə ki, bahar fəslində səba yelinin təmasından qızıl güllər açılmağa başlayır.

**Öylə incəldim, zəif oldum ki xaki-kuyinə,**
**Qabiləm xaşak tək olsa mənə rəhbər səba.**

Elə incəlib zəiflədim ki, məni sənin xaki-kuyinə, yəni olduğun torpağa aparmağa yalnız səbanın gücü çatar.



Digər maraqlı bir qəsidəsində şair «xəncər» rədifindən istifadə etməklə Peyğəmbərin vəsfini çox orijinal bir dildə bəyan edir. Aşağıda verəcəyimiz şərhdə oxucu bir daha görəcək ki, şair peyğəmbərin tərifi xüsusunda xəncərdə hansı batini keyfiyyətlərin olduğunu böyük dahiyanəliklə təsvir edir.

**Zəbani-tiz ilə ortaya girmiş müttəsil guya,**
**Olam der madihi-peyğəmbəri-axirzəman xəncər.**

Daim dil çıxarıb ortada olmaqla xəncər axırzaman Peyğəmbərin məddahı olmağını iddia etməkdədir. Şair burada tutarlı oxşarlıqlar tapmaqla xəncərin daim hazır vəziyyətdə olmağını, Peyğəmbərin məddahı olmaq istəyində bulunduğunu, zahirən uzun və bayıra çıxarılmış dilə bənzədiyini oxucunun diqqətinə çatdırır.

**Şəhənşahi ki, tiği-abidari zahir olduqda,**
**Əlindən saldı Xosrov nizəvü Nuşirəvan xəncər.**

Şahənşah dedikdə şair bütün peyğəmbərlərdən üstün olan Məhəmməd peyğəmbəri, tiği-abıdar, yəni iti qılınc dedikdə isə onun yaratdığı islam dinini nəzərdə tutur. İkinci misrada «Xosrov» və «Nuşirəvan» sözlərinə gəldikdə isə bu adlar elə bir adam – İran şahı Xosrov Ənuşirəvandır. Şair misrada düşüncəsinə, fikrinə rövnəq vermək məqsədilə onları, bir növ ayrı-ayrı şəxslərə bölmüş, hər birinin nizə və xəncərlə silahlandığını göstərmək istəmişdir. Ya da ola bilsin ki, birincisi Xosrov Pərviz şah, ikincisi isə Xosrov Ənuşirəvan şah anlamındadır. Onların nizə və xəncəri yerə atmaları isə İranda bütpərəstliyin öz yerini islama təslim etməsinə işarədir.

**Əduyi-cahinin qət'i-həyatiçin çəkər hər ay,**
**Ğilafi-lacüvərdidən hilali-asiman xəncər.**

Məlumdur ki, islam təqvimi ay təqvimidir. Hər ayın sonunda qərbdə – günbatanda axşamçağı (heç də həmişə yox) səma laciverd – göy (firuzəyi) rəngdə olarkən üfüqdən hilal şəklində ay çıxır. Şair bizcə bununla demək istəyir ki, islamın hər ayının başında hilal ayın görünməsi sanki özündən razı düşmənlərin – bütpərəstlərin qətlinə hazırlanmış və göy rəngli qınından siyrilmiş bir xəncərdir.

**Səxitəb'i ki, rüxsarə süpər tək çin buraxmazdı,**
**Əgər qəsdinə çəksəydi qamu əhli-zəman xəncər.**

Beytin mənası odur ki, əgər bütün zəmanə adamları sənin qətlinə xəncər çəksəydilər onda heç də sən ruxsarına – üzünə səxavət zülfünü açıb tökməzdin.

Məhəmməd peyğəmbər ağılagəlməz dərəcədə mehriban idi, düşmənlərini həmişə bağışlardı. Əmisi Həmzəni həbəş Vəhşi öldürəndə, Məkkədən hicrət edərkən Əsvəd ibn Həbbar adlı bir bütpərəst qızı Zeynəbi nizə ilə qətlə yetirəndə və sair belə hadisələrdə Məhəmməd öz düşmənlərini bağışlamışdı. Bu Peyğəmbərimiz tərəfindən mə'nəvi bir səxavət idi. Lakin əgər bütün düşmənlər Peyğəmbərə qarşı qalxışsaydılar, onda Məhəmməd peyğəmbər onlara mehribanlıq nümayiş etdirməz, onları həmişə dəf etməyə hazır olardı.

**Olurdu dideyi-bədbinə izhari-nübuvvətdə,**
**Onun göndərdiyi hər nameyi-mövcizbəyan xəncər.**

Məhəmməd öz peyğəmbərliyini həmişə təbliğat, başa salma və bu işdə dəlil-sübut kimi vasitələrdən istifadə etmişdir. Xüsusilə də onun qəbilələrə göndərdiyi məktublar böyük əhəmiyyət kəsb edirdi. Şair peyğəmbərin bu məktublarını «mövcizbəyan» – yəni «dalğaya bənzər» adlandırmışdır. Çünki ərəbcə yazı xətti nahamar bir formadadır, dalğanı xatırladır. Şair bu məktubları da xəncər mahiyyətilə bizə təqdim edir.

**Ğəzalərdə duayi-cövşənində çarə qılınazdı,**
**Özün hər necə qılsa təcrübə tir, imtəhan xəncər.**

Hər bir işdə Məhəmməd peyğəmbər uğur qazanmaq üçün Allaha çoxlu dualar edərdi, xüsusilə də cihad müharibələri dövründə döyüş ərəfəsində. Mə'lumdur ki, orta əsrlərdə döyüşdə əsgərlər əyinlərinə ox, nizə batmasın deyə dəmir zireh geyərdilər, xüsusilə də halqalardan ibarət döyüş geyimi geniş istifadə edilirdi. Belə döyüş geyiminə fars dilində «cövşən» deyilir.

Şair göstərir ki, Peyğəmbərin ən möhkəm cövşəni-döyüş geyimi döyüş qabağı duaları idi. Lakin peyğəmbər döyüşdə qələbəni qazanmaqdan ötrü təkcə dualarla kifayətlənməzdi, o qələbənin rəhnini oxda, qılıncda, xəncərdə və s. görürdü. Və beyti də təhlil edəndə mə'nası dediyimizlə üst-üstə düşür: sən qələbəni təkcə dualar cövşənində axtarmırdın, onu həm də oxun təcrübəsində, xəncərin imtəhanında görə bilirdin.



**Əya şahi ki, baxsan xəncəri-şər'in nizamiçün,**
**Çəkibdir min şahənşah tiğü min sahibqiran xəncər.**

Ey şah! Diqqət yetirsən görəcəksən ki, şəriət xəncərinin nizamından ötrü minlərlə şahənşah qılınc çəkmiş və çoxlu xoşbəxt hökmdar xəncər qaldırmışdır.

**Əgər namusi-şər'in olmasaydı xəlqə müstəvli,**
**Nə bir pürdil çəkərdi tiğü nə bir pəhlivan xəncər.**

Əgər sənin şəriətinin namusu onu qorumağı xalqa hökm etməsəydi, onda ürəyi namus hissi ilə dolu nə bir ürəkli adam qılınc, nə də bir pəhlivan xəncər çəkə bilərdi.

**Nəqizi-hökmünün qət'i-fəsadiçün əliflərdən,**
**Kəlamüllah bihəd tiğ çəkmiş, bigəran xəncər.**

Sənin hökmünün əleyhinə olan əliflərin fəsadlarının kökünü kəsmək üçün Kəlamüllah-Qurani-Kərim sonsuz sayda qılınclar və xəncərlər çəkməkdədir.

Fikrimizcə əliflər dedikdə (əlif ərəb əlifbasında bu cür «ا» yazılır və azərbaycan dilində «a» səsinə bənzər formada səslənir) islamın düşmənləri olan müşriklər, kafirlər, münafiqlər, qısaca islama qarşı qalxışanlar nəzərdə tutulur. Qurani-Kərimdə də onlara qarşı, onların fitnə-fəsadlarının əleyhinə çoxlu və kəskin hökm verən ayələr vardır ki, şair onları Kəlimullahın çəkdiyi tiğlər və xəncərlər adlandırır.

**Münafiq edə bilməz şər'inə mədxəl ki, çevrəndə,**
**Məlaik pərrü balın görsə div eylər güman xəncər.**

Münafiq sənin şəriətinə müdaxilə edə bilməz, çünki onun ətrafında mələkələrin o qədər qanadları vardır ki, div görsə onları xəncər hesab edir qorxar.

**Bihəmdillah ki, hala dideyi-bədxaha nə'tində,**
**Füzuli nəzminin hər sətridir bir cansitan xəncər.**

Ey Füzuli! Peyğəmbərə yazdığın hər nə't şerinin hər misrası bədxahların gözünə batırılan bir can alan xəncərdir.

**Zəbani-xaməsi isbati-e'cazında küffarə,**
**Gəhi dilduz navək göstərir, gəh xunfəşan xəncər.**

Peyğəmbərin vəsfinə Füzulinin yazdığı nə't şeirin tərifi bu beytdə də davam etdirilir: kafirlərə öz möcüzəsini sübut etmək üçün Füzulinin dilə bənzər qələmi gah onlara ürək dağlayan ox, gah da qan tökən xəncər olur.

**Şəfiül-müznibina, məşhər əyyamı ki, duzəxdən,**
**Çəkər hər ləhzə mücrim qəsdinə bir biəman xəncər.**

Məhşər günü günahları bağışlayan hər an cəhənnəmdən cinayətkarların məhvinə amansız xəncərlər çəkib göstərəcəkdir.

**Budur ümmid kim, məhfuz olan hüsni-pənahində,**
**Ğilaf içrə nəçük kim saxlanır, görməz ziyan xəncər.**

Ümidim budur ki, sənin hüsnünə pənah gətirib orada salamat qalım, necə ki, xəncər qınında qalmaqla ona heç nə olmur, heç bir ziyan dəymir.

Digər qəsidəsində Füzuli Peyğəmbərin vəsfi üçün qələmi mədhiyyə vasitəsinə çevirir. Biz belə hesab edirik ki, şairın Peyğəmbərin tə'rifi üçün qələmi seçməsi təsadüfi deyil. İslam dini yarandığı gündən bu günümüzədək bəşəriyyətin bütün qələm sahiblərinin təhlil və tə'rif obyekti olmuş və olmaqdadır. Dünyanın bütün qələmləri Peyğəmbərimizin kəmalı və cəmalı xüsusunda ürəyin dərinliklərindən gələn, həqiqi məhəbbətin ifadəçisi olan sözləri bu gün də izhar etməkdədirlər. Yadımıza salaq ki, Quranda mübarək «Qələm» surəsi də vardır. Füzuli də öz növbəsində heç kəsdə olmayan və heç kəsin təkrar edə bilməyəcəyi qələm möcüzəsilə o Cənabın mənəvi və ruhi xidmətində daim durmaqdadır.

**Səmiyyi-Əhmədi-Mürsəl ki, qıldı ona tüfeyl**
**Dəmi ki, lövh ilə yaratdı kirdikar qələm.**

Əhmədi-Mürsəl Məhəmməd peyğəmbərə verilən adlardan biridir. «Lövhə» isə lövhi-məhfuzdur. Burada Allah bütün varlıq aləminin mövcudluq taleyini həkk etmişdir. Beytin mənası odur ki, Kirdikarın, yəni Allahın qələmi ilə lövhədə yaradılanlar Yaradanın Peyğəmbərə olan məhəbbəti sayəsində vücuda gəlmişlər.

**Nəsimi-xülqünün övsafın etməyə təhrir,**
**Çəmən əlinə verir səbzə hər bahar qələm.**



Onun (Peyğəmbərin) sübh nəsiminə bənzəyən əxlaqının vəsfini qılmaq üçün səbzə hər bahar çəmənin əlinə qələm verməkdədir.

**Əya bülənd cənabi ki, midhətində olur,**
**Həmişə mö'tərifü-əczü-inkisar qələm.**

Ey böyük Cənab! Sənin mədhində qələm həmişə öz acizliyini və **gücsüzlüyünü etiraf etməkdədir.**

**Riyazi-qədrdə fəzlin nihali-rə'fətdir,**
**Nihali-fəzlinə bir türfə şaxisar qələm.**

Qədr bağçasında sənin fəzilətin mərhəmət ağacıdır. Fəzilət ağacının qələmi türfə və gözəl budağıdır.

**Nihali-dövlətə qədrin riyazi-hikmətdir,**
**Riyazi-qədrinə bir türfə cuybar qələm.**

Sənin qədrin, ucalığın dövlət ağacına bir hikmət bağçasıdır, qədr bağçana qələm bol sulu bir çaydır.

**Əlinə almaz imiş Mustafa qələm, derlər,**
**Bu zillət ilə bəsi olmuşıydı xar qələm.**

Qət'i faktdır ki, Peyğəmbərimiz («Mustafa» ona verilmiş adlardan biri olub «seçilmiş» mə'nasını verir) savadsız olmuşdur, yəni yazıb oxumağı bacarmırmış. Peyğəmbərimizə Qurani-Kərimin ayələri nazil olanda o ayələri bir-bir deyər, katibləri isə onları qələmə alıb yazarmışlar. Odur ki, islamın düşmənləri həmişə, elə bu gün də iddia etməkdədirlər ki, guya Peyğəmbərimiz çox savadlı imiş və qələminin gücü ilə Quranı yazmışdır (haşa!!!) və guya Quran heç də Allahdan nazil olmamışdır (haşa!!!). Füzuli də buna eyham vuraraq göstərir ki, Mustafa əlinə qələm almazdı, bu xoşbətlikdən məhrum olduğu üçün qələm bu zillət içrə xar olmaqdadır. Beyti başqa cür də mənalandırmaq olar: Mustafa əlinə qələm almaz imiş, nə yaxşı ki, belə olub, əks halda bu zillət qələm üçün xar olmağa bəs edərdi.

**Sənə yetirdi özün nisbət ilə tapmaq üçün,**
**Zəmanədə sənin adınla etiğbar qələm.**

Qələm Sənə özünü ona görə yetirdi ki, adamlar sənin sayəndə qələmin etibarlı olduğunu bəyan etsinlər.

**Kəlimi-Turi-vəfasən ki, əhli-xeyrü şərə**
**Əlində gah əsa oldu, gah mar qələm.**

«Kəlim» sözünün mə'nası danışan, kəlmə kəsən deməkdir, Musa peyğəmbərin möcüzələrindən biri hesab olunur. Belə ki, Musa Allah ilə dili ilə danışırmış. Bu səbəbdən Musaya «kəlımüllah» ləğəbi verilmişdir. O ailəsi ilə birlikdə Sina yarımadasında gecəyə düşür. Həzrəti Musa işıq və istilik üçün Eymən çölünə gəlır və görür ki, bir ağac şölə çəkib yanır. Yaxınlaşır ki, od götürsün. Bu vaxt yanar ağacdan Allahın Musaya müraciət nidası gəlir və ona peyğəmbərlik əta olunduğu bildirilir və həm də ona peyğəmbərlık möcüzələri bəxş olunur. Həzrəti Musa Allahın əmri ilə əlindəki əsanı yerə atır və dərhal əsa nəhəng əjdahaya çevrilir. Əlini qoynuna salır və çıxaranda əlı günəş kimi parıldarmış.

Həzrəti Musa Misir ölkəsində Fironun əmri ilə sehrbazların vücuda gətirdiyi ilanların hamısını əlindəki əsanı əjdahaya çevirməklə məhv etmişdi.

Vaxtilə cavanlıqda Musa qayınatası Şüeyb peyğəmbərin on il qoyunlarını otarırmış. O vaxt adamlar qoyun sürülərinə hücumlar edən bir əjdahadan əziyyət çəkərmişlər. Bir dəfə gecə əjdaha sürüyə yaxınlaşmaq istəyəndə Musa əlindəki əsa ilə əjdahanı parça-parça etmiş və xalqı birdəfəlik bu əziyyətdən qurtarmışdı. Məlumat üçün qeyd edək ki, həmin əsanı Adəm peyğəmbər cənnətdən gələndə özü ilə gətirmiş və növbə ilə əldən-ələ keçərək Şüeyb peyğəmbərə çatmış, o da bu əsanı qoyun otarmaq üçün Musaya vermişdi.

Tur dağı da həmin Eymən çöllüyündədir. Bir dəfə Musa qovmünün təkidi ilə Allaha üzünü göstərməyi rica etmişdi. Allahdan ona «Lənterani» – yəni «məni görə bilməzsən!» – deyə cavab sədası gəlmişdi. Lakin peyğəmbəri peşiman etməmək üçün Allah Tur dağına bir nur nazil edərək onu alt-üst etmiş və bununla öz simasını Musaya bu vasitə ilə əyan etmişdi.

Bütün bunları deməkdə məqsəd odur ki, şair Peyğəmbərin vəfasını Musaya nisbət tutmaqla onun xeyir işləri qorumasını, şər əməlləri isə nəhv və qadağan etməsini ön plana çəkir. Necə ki, Musa əlindəki əsa ilə əjdahanı öldürmüş və eləcə də həmin əsanı əjdahaya çevirərək sehrbazların sehrlərini batil etmişdi. Şair Peyğəmbərin vəfasını Tur dağı miqyasında təqdim edir.



Şair bütün bunları qələmin sayəsində həyata keçdiyini bildirir. Bu qələm Quranın ayələrini yazan qələmdir ki, sanki bu peyğəmbərimizin əlində xeyir işlər üçün Musanın əsası, şər işlərə qarşı bu əsanın çevrildıyi əjdahadır.

**Bəsi əzizlərin xidmətinə bağladı bel,**
**Qamuni tərkü səni qıldı ixtiyar qələm.**

Qələm çox əziz şəxslərin xidmətində oldu, bəyənmədi, hamını tərk edib biryolluq səni seçdi.

**Arayıb əhli-hünər varini yetincə sənə,**
**Cahan içində bəsi çəkdi intizar qələm.**

Qələm hünər əhli olanların hamısının varlığına varid olmuşdu. Ta sənə yetişənədək. Bu zaman ərzində qələm sənin üçün nə intizarlar çəkməmişdir?

**Verüb nizami-cəhan Asəfü Nizamülmülk**
**Gedib, cahanda sənə qaldı yadigar qələm.**

Asəf Süleyman peyğəmbərin çox ağıllı və tədbirli vəziri olmuşdur. Tarix boyu bütün ağıllı vəzirlərə ümumi Asəf adı verilmişdir.

Nizamülmülk də Səlcuq sultanı Məlik şahın eyni ilə ağıllı vəziri olmuşdur. Şair də Peyğəmbərimizlə onlar arasında paralel çəkməklə göstərmək istəmişdir ki, onlar qələmlərilə yazdığı fərmanları ilə cahanda bir nizam yaradıb gediblər, indi belə qələm sənə yadigar qalmışdır.

**Alınmış aqçan ilən bir qulundurur müqbil,**
**Başın əgər kəsələr eyləməz fərar qələm.**

Aqça orta əsrlərdə Füzuli zamanında gümüş pul vahidi olmuşdur. Şair qeyd edir ki, sənin cəmalının vəsfində müntəzir olan qələm sanki sənin aqçan ilə alınmış bir quldur ki, başını kəssən də, yanından qaçıb gedən deyil.

**Sənin mütiin əgər olmasaydı, olmaz idi**
**Səvadi-ə'zəmi xətt içrə şəhriyar qələm.**

Sənə itaəti-müt'i olmağının nəticəsidir ki, qələm indi yazı xətlərinin içərisində padşah məqamında durmağındadır.

**Sözün yeritməgə başdan ayaq edib yügürər,**
**Kəmali-şəfqətinədir ümidvar qələm.**

Qələm sənin sözünü yaymaq üçün özünü əldən-ayaqdan

salıb yüyürər ki, sənin şəfqətinə olan ümidi nəticə versin.

Başqa bir qəsidəsində Füzuli yenə də Məhəmməd peyğəmbərin qaşlarını yeni ay-mahi-növ ilə müqayisəli şəkildə vəsf edir, ən müxtəlif dəlillər irəli çəkməklə Məhəmmədin qaşlarının mahi-növdan üstün olması fikrini təlqin edir.

**Ey hilali-eyd qalibdir sənə əbruyi-yar,**
**Hüsni-surət səndə bir var isə, onda iki var.**

Ey eyd hilalı! Bil ki, yarın əbruları səndən üstündür, hüsni-surət əgər səndə bir dənədirsə, onda ikisi var.

Hilali-eyd – bayram hilalı deyəndə orucluq bayramında ayın sonunda günbatandan hilal – əyri ayın görünməsi nəzərdə tutulur. Ona mahi-növ, yəni yeni ay da deyirlər. Şair yeni ayın bütün gözəlliklərinə əhəmiyyət vermir, onu məftun edən Məhəmməd peyğəmbərin bayram ayı adlandırılan iki hilal qaşının mənzərəsidir. Şairin aləmində onların hər ikisi mahi-növdan üstün və hörmətlidir, çünki hilal ayda hüsni-cəmal birdirsə, Peyğəmbərdə onlar ikidirlər. Belə olduqda Peyğəmbərdə bu iki hilal o biri bir hilaldan təbii ki üstündürlər.

**Yar əbrusinə bənzətməm səni, ey mahi-növ,**
**Sən günəş birlə görünməzsən, sənə nə etibar.**

Ey mahi-növ, səni yarın əyri qaşlarına bənzətmrəm, sənə e'tibar yoxdur, çünki sən günəş ilə birgə görünmürsən. Şair Peyğəmbər qaşlarının mahi-növ – yeni ay üzərində ikinci üstünlüyünü kəşf edir: şair mahi-novu yarının əyri qaşlarına bənzətmir, çünki mahi-növ günəş olan yerdə görünmür, bu səbəbdən ona e'tibar edilmir. Bu, zamanın sınağından çıxmış bir məntiqdir ki, insanın e'tibarlılığını onun kiminlə oturub-durması ilə müəyyən edirlər. Bir halda ki, mahi-növ günəşdən ikrah edib o olan yerdə görünmür, demək ona etibar edilə bilməz. Yalnız Peyğəmbərin hilal kimi əyri qaşlarına etibar edilə bilər, ona görə ki, bu qaşlar Peyğəmbərin günəşəbənzər ruxsarı ilə həmişə bir yerdədirlər, onu sevirlər, bu səbəbdən e'tibarlıdırlar.

**Qaşlarındandır xəcil guya hilali-eyd kim,**
**Gecə əskik görünür, gündüz çox olmaz aşikar.**

Orucluq bayramında səmada görünən mahi-növ olduqca əyri və nazikdir və gündüzlər göydə görünsə də çox zəif görünür. Şair bunun da səbəbini açıqlayır: sənin qaşlarının qarşısında mahi-növ utandığından xəcil olmuşdur, şair bunu peyğəmbərin hilal qaşları qarşısında mahi-növun əskikliyi kimi mənalandırır. Ona görə də o gündüz göydə çox zəif görünür ki, onun əskikliyini görən olmasın.



**Cilvə eylər mahi-növ el qarşısında şami-eyd,**
**Sən girib ortaya qaşın göstər, ol dutsun kənar.**

Bayram axşamı mahi-növ el qarşısında çox nazlanıb cilvələnir. Ey yarım! Sən ortaya gir və qaşlarını göstər ki, o utandığından çəkilib kənarda dursun.

**Natəvan gördüm hilali-eydi dün yarım kimi,**
**Ol dəxi guya ki, zə'fi-ruzədən olmuş nizar.**

Aşiq dünən mahi-növu yarı kimi zəifləmiş görür, sanki o da oruc tutmaqdan belə taqətsiz olub gücsüz düşmüşdür.

Füzuli daha nələr fikirləşmir ki! Onun rəyinə görə orucluq ayında oruc tutan adamlar ay sona çatanda cismən arıq və zəif görünürlər. Mahi-növ da belə nazik və üzgün görünməklə o da bizə sanki oruc tutduğunu anlatmaq istəyir.

**Yeni ayi qaşların sövdasi risva eyləmiş,**
**Göstərirlər onu birbirinə əhli-ruzigar.**

Orucluq ayının sonuncu günü mahi-növ - yeni ay səmada görünür. Qaydaya görə yeni ayı görəndən sonra orucluq bayramı başlanır. Əgər üç nəfər mömin yeni ayın göründüyünü təsdiq edərsə orucluq ayı bitmiş hesab olunur. Digər tərəfdən axşam səmada yeni ay görünəndə adamlar hamı evdən bayıra çıxıb bir-birilərini səsləyərək yeni ayı maraqla seyr edirlər.

Məhəmməd Füzuli isə adamların yeni aya baxmaq üçün bir-birilərini səsləmələrinə bir istehza nəzərilə baxır. Onun fikrincə yeni ay Məhəmmədin qaşlarının eşqinə düşməyindən rüsvay olduğu üçün adamlar onu tənə etmək və lağa qoymaq məqsədilə seyr edirlər.

**Mahi-novdur bilməzəm, taban şəfəqdən, yoxsa kim,**
**Qana batmış növki-şəmşiri-əmiri-namdar.**

Bilmirəm, şəfəqdən al qırmızı rəngə bürünən yeni aydır belə, yaxud adlı-sanlı əmirin qana batmış əyri qılıncıdır bəlkə?

**Şəfqətü qəhr ilədir bir sayəküstər nəxl kim,**
**Takdır əsli, verir həm ğürə, həm əngur bar.**

O Cənab şəfqəti və qəhri olan kölgəli bir ağaca bənzər. O ağaca ki, onun əsli meynə (və ya tənək) olmuşdur, ona görə də onun barı həm qoradır, həm də üzümdür.

Şair buradan çox nadir bir məna mərtəbəsinə yiyələnərək göstərir ki, peyğəmbərin şəfqəti üzüm, qəzəbi isə qora timsalındadır. Lakin turş qoradan şirin üzüm əmələ gəldiyini nəzərə alsaq onda aydın olur ki, peyğəmbərin şəfqəti (yəni üzüm) onun qəhri (yəni qora) ilə sıx bağlıdır. Qora olmasa üzüm olmadığı kimi peyğəmbərin qəhri, yəni qəzəbi də insanlara şəfqəti üçündür. Onun şəfqəti elə onun qəhrindən nəş'ət edir.

**Qəhri ol rəng ilə kim dərya mizacın xüşq edər,**
**Çalsa gər Musasifət dəryaya tiği-abidar.**

O elə bir qəhr sifətinə malikdir ki, Musa kimi dəryaya iti qılıncını çalsa, dərya quruyar.

Rəvayətə görə Həzrəti Musa öz qövmü ilə birlikdə fir'onun təqibindən qurtulmaq üçün Nil çayını (və ya Qırmızı dənizi) keçmək istəyibmiş. Bunun çətin olduğunu bilən Həzrəti Musa əlindəki sehirli əsanı suya vuran kimi çayın suyu iki yerə aralanıb yol açır. Musa və onun adamları həmin yol ilə keçib xilas olurlar. Şair Məhəmmədin də Musa kimi belə bir qüdrətə malik olduğunu göstərmək istəyir.

**Şəfqəti ol rəsmə kim, atəş təbiətdən çıxar,**
**Salsa İbrahimvəş od üzrə lütf ilə güzar.**

Onun şəfqəti elə təsirə malikdir ki, əgər lütf edib odun içinə qədəm qoysa, od, atəş təbiətindən çıxar. Bu beyt bütpərəstlərin İbrahimi oda atmalarına və odun sərinləşib ona zərər yetirməməsinə bir işarədir.

**Həm təriqi-mə'dələt rəyindən onun müstəqim,**
**Həm əsasi-afiyət ədlindən onun üstüvar.**

Həm ədalət öz yolunu birbaşa onun rəyindən götürür, həm də salamatlıq öz əsasını Onun ədaləti ilə möhkəmləndirir.

**Ey səfayi-məşrəbin mülki-əzəl tək bikəran,**
**Vey bihari-himmətin bəhri əbəd tək bikənar.**

Ey əxlaqının səfası əvvəlsizlik mülkü kimi başlanğıcı olmayan! Və ey s'əy dəryası əbədiyyət ümmanı kimi sonsuz olan! Beyt Peyğəmbərə müraciət nidası ilə səslənir.



**Gər sən olsaydın əmiri-şövkəti-İskəndəri,**
**Vadiyi-hikmətdə bulmazdı Ərəstu iştihar.**

Əgər sən İskəndər şövkətli əmir olsaydın, onda hikmət vadisində Ərəstu şöhrətmi tapardı? Ərəstu şərq xalqlarının dilində məşhur filosof, antik dünyanın tanınmış alimi Aristotelin adının dəyişilmiş deyilişidir. Aristotel Makedoniyalı İskəndərin müəllimi olmuş, ona elm və hikmət xəzinəsindən nümunələr təlim etmişdir.

**Vər sən etsəydin qəbuli-minnəti-Nuşirəvan,**
**Eyləməzdi hiç kim, Buzərcmehrə e'tibar.**

Nuşirəvan islamiyyətdən əvvəl İran şahı Xosprov Ənuşirəvanın qısaldılmış adıdır. Bu padşah öz ədaləti, mərhəməti və insanlığı ilə ad çıxarmışdır. Büzürcmehr də onun şöhrətli və ağıllı vəziri olmuşdur. Şair bu beytindəki şəxslərin Peyğəmbərdən məqamca heç də uca olmadıqlarını tərənnüm edir: əgər sən Nuşirəvandan padşahlıq minnətini qəbul etsəydin, onda heç kəs Büzürcmehrə e'tibar etməzdi.

**Səfheyi-mehri-rüxündür mövdiyi-muri-nəbi,**
**Çar təb'i kamilin mə'vayi-mehri Çari-yar.**

Füzulinin bu beytində yenə biz onun düşüncə tərzinin, qələminin növbəti möcüzəsi ilə üz-üzə durmaqdayıq. Əvvəl birinci misraya nəzər yetirək. Onu belə izahatla səciyyələndirmək olar: sənin günəş camalının səhifəsi sənə qədərki peyğəmbərlərin səndə olan əlamətidir. Füzuli bunu deməklə Məhəmməd peyğəmbəri nəzərdə tutur. Belə ki, səfheyi-mehrı-rux, yəni sənin günəş camalının səhifəsi deməklə şair Qurani-Kərimin bu misrada mə'nalandırıldığını bizə çatdırır. Şair həm də onu peyğəmbərlərin əmanəti kimi dəyərləndirilir. Burada böyük həqiqət vardır. Ona görə ki, Qurani-Kərim özünə qədərki bütün müqəddəs kitabları – Adəmin Sühufunu, Davudun Zəburunu, Musanın Tövratını, İsanın İncilini tam təsdiq edir, deməli, bütün əvvəlki kitablar Qurani-Kərimdə öz ideyalarına malikdirlər. Şair bu ideyaları həmin peyğəmbərlərin Məhəmməd peyğəmbərin bu kitabında əmanətləri kimi təqdim edir.

İkinci misrada şair daha füsunkar bir mənə şəfəqləri nümayiş etdirir: sənin dörd kamil təbiətin Çariyarın (yəni Çahar – dörd dost) məhəbbət məskənidir.

Məlumdur ki, dörd xəlifə – Əbu Bəkr, Ömər, Osman və Əli məsum, günahsız xəlifələr adlanırlar. Onlara Xüləfayi-raşidi də deyirlər. Dini və bədii ədəbiyyatlarda Çahar yar, dörd dost adı ilə qeyd edilirlər. Onlardan hər birisinin ayrıca ləğəb və adları da vardır. Əbu Bəkr Siddiq, yəni sözündə və işində doğru və düz olan, Ömər Faruq, yəni halala və harama fərq qoyan, Osman Zünnurül eyn, yəni iki nurun nuru ləğəbləri ilə tanınmışlar. Osman Məhəmməd peyğəmbərin iki qızını – Ruqəyyəni və Ümm-Gülsümü özünə arvad etdiyinə görə ona bu ləqəbi vermişlər. Əli əleyhissəlam isə vəliyullah adı ilə, yəni Allahın yer üzündə vəlisi – qəyyumu, insanlar üzərində hamisi təxəllüsü ilə məşhurdur.

Misrada şair bu bölgü ilə bir növ razılaşmır və göstərmək istəyir ki, bu xəlifələrin daşıdığı bu ləğəb və adlar əslində Peyğəmbərin öz dörd kamil təbiəti kimi çıxış edirlər, yəni Siddiq də, Faruq da, Zünnurül-eyn də, Vəli də elə Məhəmmədin öz təbiəti olaraq təqdim olunur. Ən böyük Siddiq - doğru danışan Peyğəmbərdir, ən böyük Faruq elə Peyğəmbərin özüdür, Zünnurül-eyn də Peyğəmbərin xisləti ilə bağlıdır (təsadüfi deyil ki, Osman iki gözün yox, iki nurun sahibi kimi qələmə verilir. Çünki Məhəmməd peyğəmbər nurdan yarandığı üçün deməli onun bütün qızları da nurdan törənmişlər. Odur ki, bu nur gözə aid olmayan İlahi bir nur olduğu üçün Osman bu ləqəblə tanınmalı olmuşdur). Ən böyük vəliyullah da Peyğəmbərin özüdür. Sadəcə bu xəlifələr Peyğəmbərin bu dörd təbiətindən hər birinə öz mehrini salmış, bu adların kölgəsində özlərinə əbədi şöhrət qazanmışlar.

Başqa bir qəsidəsində tam olmasa da bir çox beytlərində şair Məhəmməd əleyhissəlamdan söhbət açır, yenə də onun camalını vəsf edir.

**Müxtəlif işlər o iki atlıdan zahir olur,**
**Sanki ulduzlar fələk dərbarinə ziyvər gəlib.**

İki atlı dedikdə Məhəmməd və Əli əleyhissəlamlar nəzərdə tutulur. Onların əməlləri göydəki ulduzlara, onlar özləri isə fələyə - asimana nisbət tutulurlar. Gecə ulduzlar asimanı necə bəzəyirsə, onların əməlləri də onlar üçün bir zinət məzənnəsindədir.

**Bir mühərrik var ki, xaricdən qatar əl işlərə,**
**Varlığı meydandakı hər bir işə rəhbər gəlib.**

Beytdə tərif obyekti şübhəsiz ki, Allah təbarəkə təaladır. O bu dünyada baş verən işlərə müdaxilə edir, dəyişdirir, bütövlükdə onlara rəhbərlik edir. Allahın bu əzəmətini şair mühərrik adlandırır.

**Hasili yox fitnədən başqa bütün bu işlərin,**
**Leyk bunlar xilqətin övzainə məzhər gəlib.**

Hələ islamın yayılmağa başladığı dövrlərdə fitnə-fəsadların baş alıb getməsinə işarə olunur. O vaxt bu fitnələr o qədər çox idi ki, şair sanki bütün yaradılışın əsasını bu fitnələrdən yoğrulduğunu zənn edir. Növbəti beytdə şair bu fitnəli işləri törədənlərin islamın düşmənləri olan bütpərəstlərin - kafirlərin olduğunu göstərir.

**Pak bir gövhərdir ol seyyid ki, peyğəmbərlərin,**
**Cümləsinə rəhbər olmuş, onlara sərvər gəlib.**

Bizcə bu beytin şərhinə ehtiyac yoxdur.

**Qəlbi dəryadır, ədalət nəqşi tapmışdır kəmal,**
**Hər elə, hər ölkəyə bu nəqşdən zivər gəlib.**

Onun dəryanisbət qəlbində ədalətin nəqşi yüksək kamal həddindədir. Bu kamalat nəqşlərindən neçə-neçə ölkələr rövnəq tapmışdır.

**Pak mö'minlər səxavət feyzinə nail olub**
**Qırmağa kafərləri əldə tutub şeşpər gəlib.**

Pak mö'minlər onun səxavətindən feyz almaqla əllərində şeşpər (altı dilimli toppuz) tutaraq kafirləri qırmağa gəliblər.

**Sinəsində hər kəsin mehri onun yer tapmamış,**
**Bir qırıq nərd taxtasıdır layiqi-azər gəlib.**

O adamların ki, sinəsində onun (peyğəmbərin) məhəbbəti özünə yer tapmayıb, belələri sınıq nərd taxtasına bənzərlər ki, odda yanmağa layiqdirlər.

**Sərf olubdur sə'yi daim dinə qüvvət verməyə,**
**Bu deyil nərd oynamaq ki, qəsdi ancaq zər gəlib.**

Peyğəmbərimizin daim dini qüvvətləndirmək səyində olmasının məqsədi təkcə din deyil, həm də insanlığı xoşbəxt həyata gedən yola çəkməkdir, necə ki, nərd oyununda oyunçunun məqsədi zər atmaq deyil qalib gəlib oyunu udmaqdır.

**Hüsn bəzmində bütün dilbərləri məğlub edib,**
**Valehi olmuş o kəs kim, aləmə dilbər gəlib.**

Məhəmməd və ona qədərki peyğəmbərləri şair dilbərlər (gözəllər) adlandırır. Bu dilbərlər məclisində ən gözəl dilbər isə Məhəmmədin özüdür. Bu məclisdə o öz gözəlliyi ilə bütün dilbərləri məğlub etmişdir. O kəs ki, dünyaya dilbər (peyğəmbər) gəlib, onun hüsnünə valeh olmaqdadır.

**Dövləti-iqbalı ilə ey cəhanə nur salan,**
**Hikmətin səhralərə, dəryalərə ləngər gəlib.**

Ey hüsn dövləti ilə dünyaya nur saçan! Dəryalar və səhralar (yəni su və quru yerlər) sənin hikmətin üzərində tarazlanmaqla qərar tutmuşlar.

**Hər nə ki, bu dəhrdə üç ünsürün məhsuludur,**
**Sən edibsən arzu, keçmiş əsrlər, illər gəlib.**

Bu dünyada xəlq olunan nə varsa üç ünsürdən – Məhəmməd, Əli və Fatimeyi-Zəhradan ibarət Məhəmməd nurundan əmələ gəlmişdir ki, bu sənin istəyin, arzunla baş vermişdir və o vaxtdan illər, əsrlər keçsə də bu sənin adınla bağlı olaraq qalmaqdadır. Beyt Allaha müraciətən deyilib.

**Hər o kəs ki, asitanında sənin məskən salıb,**
**Asitaninə onun min sahibi-əfsər gəlib.**

O kəs ki, sənin qapının kandarında özünə məskən salıb, hesab elə ki, o adam kandarına təşrif buyuran min taclı padşaha bərabərdir.

Tamam başqa məsələlərə həsr olunmuş qəsidələrində də ara-sıra peyğəmbər tə'rifinə rast gəlinir.

**Məsiha dini ləğv oldu zühuri-nuri-pakindən,**
**Tapılmazdı onun dövründə İsadən vuranlar dəm.**
**Onun can bəxş edən lütfü dirildər yüz Məsihanı**
**Odur kim, söyləyirlər: ölməmiş, sağdır Məsiha həm.**



İslam dininin yaranmasına işarədir.

Məhəmmədin pak nurunun zühuru ilə Məsiha – xristian dini ləğv olunmuş dinlər sırasına daxil oldu və İsa dinindən dəm vuranlar tanınmazlığa qovuşmağa başladı.

Şair Məhəmmədə İsa kimi ölüləri diriltmək möcüzəsini müncər edir. Lakin Füzulinin bu cəhdini adi mənada qəbul etmək olmaz, çünki O ömrü ərzində belə möcüzə göstərməmişdir (hərçənd O bunu bacarırdı). Şairin bu fikrini batini mə'nada götürəndə bəli, bu tamamilə düzgündür. Çünki ağlagəlməz dərəcədə günah işlər görənlər Məhəmməd peyğəmbərin yanına gəlib bağışlanmalarını rica edərlərmiş və Peyğəmbərimiz də onları bağışlarmış, beləliklə də onlar cəhənnəm alovlarında məhv olmaq qorxusundan azad olaraq cənnətdə gözəl həyat əldə edib dirilmək imkanına yiyələnmişlər. Bu mənada Məhəmməd Məsihadən də güclü hesab edilir və öz gücü ilə yüz Məsihanı diriltməyə qadir olduğu bildirilir.

***

Füzuli şeriyyatında vəsf olunan islam müqəddəslərindən biri Həzrəti Əli əleyhissəlamdır. Qəzəllərindən daha çox şairin qəsidələrində ona geniş yer ayrılır və Məhəmməd peyğəmbərdən sonra məhz Həzrəti Əli ən çox vəsf olunan şəxsiyyətlərdəndir. Ona görə ki, Məhəmməd Füzuli ömrünün az qala yarıdan çoxunu Əlinin məqbərəsində xüddam vəzifəsində çalışmağa sərf etmiş və bununla da özünü həm bu dünyada, həm də axirətdə xoşbəxtlərin xoşbəxti hesab etmişdir.

Öz qəsidələrində şair Həzrəti Əliyə aid bütün vaqeələri, hətta ən xırda məqamları belə böyük şövq ilə qələmə almış, onları cahanşümul əhəmiyyətə malik hadisələr kimi təsvir etmişdir. Şair xüddam vəzifəsində çalışmağını aşiqin öz yarının vüsalına yetişmək və ya yetişə bilməmək sifətləri kimi təqdim edir, «rədd ol» cavabını almaqla yarı tərəfindən atıldığını oxucuya açıqlayır. Bəzən Məhəmməd Füzuli öz qəsidələrində Həzrəti Əlini ona olan eşqinin təsirindən elə nadir deyilişlərlə vəsf edir ki, şəxsən mən bunu şairin Allah təbarəkə təalaya və Məhəmməd əleyhissəlama həsr etdiyi misralardan fərqləndirməkdə çətinliklər çəkmişəm və beytdə hansısa ən gizli və xırda məqamları aydınlaşdırmaq sayəsində buna nail ola bilmişəm. Ataların

məsəli var: «söz sözü çəkər» - demişlər. Bu məsələ haqqında nə qədər danışsaq, hiss edirəm ki, sözümüzün nəhayəti olmayacaq. Odur ki, gəlin misraların səsinə qulaq asaq.

**Töküb müşriklərin qanini, həqqi eyləmiş zahir,**
**Diriltmiş şər'i həqqi sanki olmuş İsiyi-Məryəm.**

Tarixdən məlmdur ki, Həzrəti Əli xəlifə seçilən zaman kafirlər, müşriklər, islamın düşmənləri islam şəriətini məhv olmaq dərəcəsinə gətirib çıxarmışdılar. Həzrəti Əli məcbur olub qılınc gücünə, müharibələr, döyüşlər və burada qazanılmış qələbələr hesabına islam şəriətini kafirlərin cəngindən qurtarmağa nail olmuşdur. Özünün dediyi kimi əlindəki qılıncla batilin qarnını yarıb haqqı oradan zahirə çıxarmışdır. Şair bunu şəriəti diriltmək kimi qiymətləndirərək Əlini ölü diriltmək möcüzəsinə malik olan Məryəm oğlu İsaya bərabər tutmuşdur.

**Qayıq tək qəbrinin sənduqi üzmüş Nuhdan əvvəl,**
**Odur kim, qopsa yüz tufan qəlbində görünməz ğəm.**

Həzrəti Əlinin ürəyində heç bir dünya qəminin yuva sala bilmədiyini göstərmək üçün şair belə bir təşbeh işlədir ki, Nuhdan da əvvəl Əlinin qəbir sandığı zamanın fırtınalarında qayıq kimi üzdüyü üçün Nuhun yüz fırtınası qopsa belə onun ürəyində qəm özünə yer eləməz.

**Ümuri-xilqətə bais sənin feyzi-vücudundur,**
**Bu aləm varlığından çün tutulmuş varlığın əqdəm.**

Sənin vücudundan feyz almaq eşqi ilə Allah xılqət əmrini verdi. Çünki bu aləmin xilqətindən də əvvəl sənin varlığın artıq zahir idi. İslam dininə görə hələ dünya yaradılmamışdan əvvəl uca ərşin divarında Məhəmmədin adı ilə yanaşı Əlinin adı da yazılıbmış. Bu dövranın varlığını saxlayan Əliyə olan məhəbbət telləridir, əgər onlar olmasaydı, dünyanın nizamı qırıq zəncir kimi qatmaqarışıq olardı.

**Sən oldun sahib-me'racə munis, qəm yeməz ol kəs**
**Ki, nur saçmış qaranlıqda yoluna sən kimi bir şəm.**

Şair Əlini me'racın sahibinə – Məhəmməd peyğəmbərə yol yoldaşı olub onun yoluna nur saçan bir şam kimi təqdim edir.

Çoxlu kitablarda Məhəmmədin me'raca səfəri zamanı



onun qəlbində Əlinin xəyalı olduğu, hətta Əlinin də onunla birlikdə me'rac etməsi haqqında xeyli rəvayətlər vardır. Bir rəvayətdə deyilir ki, me'racda olarkən Allah Məhəmmədlə Həzrəti Əlinin səsində danışmışdır. Məhəmmədin təəccüb etdiyini görəndə Allah buyurur ki, Ya Məhəmməd, yanıma gələndə qəlbində Əlinin xəyalı olduğu üçün səninlə Əlinin səsi ilə danışdım. Aşağıdakı beyti yazmadan onun təhlilini yeri gəlmişkən burada qeyd edirik: Rəvayətlərin birində də nəql olunur ki, Məhəmməd Peyğəmbər Əli ilə birlikdə meracda Allahın hüzurunda durur və «əmioğlumdur» - deyib onu Allaha təqdim edir.

**Səxavət gözləsəm bir başqasından yansın imanım,**
**Ətasi gənc – Qarun olsa da sahib səxa-Hatəm.**

«Qarun xəzinəsi» ifadəsi Musa peyğəmbərin xalası oğlu Qarunun dövlətlənməsinə işarədir. Deyilənə görə Qarun iksirin – metalın qızıla çevirməyin sirrini öyrənəndən sonra əfsanəvi dərəcədə var-dövlət sahibi olur və iş o yerə çatır ki, Qarun Allahlıq iddiasına düşür. Odur ki, Allah-təala bir fəlakət göndərərək Qarunu var-dövləti ilə birlikdə yerin dibinə vasil edir.

Hatəm isə səxavətdə əfsanəvi şöhrətə malik olmaqda ad çıxarmışdır. O, Tai qəbiləsindən olduğu üçün ona Hatəmi-Tai də deyirlər. Şair özünü Əlinin səxavətinin möhtacı olduğu kimi qələmə verir və «yansın imanım» - deyib heç kəsdən, hətta Qarun xəzinəli, Hatəm səxavətli bir nəfərdən belə səxavət gözləmədiyini bəyan edir.

**Yüz məşəqqət çəksə, kami-dil tapar əncami-kar,**
**Hər kimin aləmdə mövlası Şəhi-mərdan olur.**

Hər kimin ki, bu dünyada mövlası Əli (Şəhi-mərdan – mərdlər şahı Əliyə verilən addır) olarsa onun ürəyi yüz məşəqqət çəksə də ürək kamının bütün müşkülləri yerbəyer olar.

**Ol şəhənşah kim, əgər bir murə qılsa iltifat,**
**Mur hökm eylər, Süleyman üstünə sultan olur.**

Əgər o şahlar şahı, yəni Əli bir qarışqaya lütf etsə, onda qarışqa özü bir Süleyman olub Süleymana hökm eliyər. Şair Süleyman peyğəmbərlə bir qarışqa arasında olan əhvalata eyham vurur.

Söylənilir ki, Süleyman peyğəmbər bütün heyvanların dilini bilirmiş və həm də onların padşahı imiş. Bir gün o bütün heyvan və həşəratlara əmr edir ki, ona hər biri hədiyyə gətirsin. Onlar belə də edirlər. Qarışqanın gətirdiyi hədiyyə onun özündən böyük idi. Bunu görən Süleyman peyğəmbər bərkdən gülür və qarışqaya lütf edərək onu yuxarı başa keçirir.

**Daş olur aslan, əgər qəhr ilə qılsa bir nəzər,**
**Hökm qılsa, düşmənin qəsdinə daş aslan olur.**

Əgər Əli qəhr gücü ilə aslana bir nəzər salsa, aslan daşa çevrilər, yox əgər o düşmən üzərinə həmlə etmək üçün hökm versə, daş belə dərhal aslana çevrilib hücuma hazır olar.

**Zərreyi-mehri-rüxündən tapsa pərtov asiman**
**Asiman üzrə tamam əncüm məhi-taban olur.**

Sənin camalına olan məhəbbətin bir zərrəsindən əgər asiman parlaqlıq taparsa, onda asimandakı ulduzlar dərhal nurlu aya çevrilərlər.

**Feyzi-lütf ilə əgər insanı etsə tərbiyət,**
**Qədr ilə insan mələk nisbət əzimüşan olur.**

Əgər Əli öz nemətli lütfü ilə insanı tərbiyə etsə, insanın qədr-qiyməti ucalar və mələyə bənzər bir əzəmət donuna bürünər.

**Vər mələk həm tapsa eyni iltifatından nəzər,**
**Əqli-kamil kəsb edər, əlbəttə bir insan olur.**

Və əgər (yəni «vər») Əli eyni lütfünü mələyə nəzərilə yönəltsə, onda mələk kamil ağıla malik bir insan olar. Qeyd edək ki, Allah ağıl kimi bir səxavəti insandan başqa heç kəsə əta etməmişdir. Mələklər isə Allahın ağıl payından məhrum olmuşlardır.

**Lütfü qəhrindən tapar müqbil əta, müdbir cəza,**
**Qət'ü fəsli-həşir üçün ol ləhzə kim, divan olur.**

Onun lütfündən və qəhrindən insana ya xoş və ya bəd tale qismət olar. Bu eynilə həşir (yəni məşhər) günündə qurulan divan kimi bir şeydir.

**Kövsəri-cənnət onun hökmündədir ol vəch ilə,**
**Cümlə nəslindən həmin Adəm ona mehman olur.**



İslam ehkamlarına görə cənnətdə bir kövsər bulağı vardır ki, bütün mömin müsəlmanlar həmin bulaqdan su içəcəklər. Onlar həmin suyu Əlinin əlindən alacaqlar. Bu qonaqlar içərisində bəşəriyyətin atası hesab edilən Adəm peyğəmbər də vardır.

**Nuh onun sənduqinə gəşti tək aparmış pənah,**
**Ehtiyat eylər ki, nagəh bir dəxi tufan olur.**

Şair göstərir ki, Əlinin məqbərəsi dəryada üzən sandığa bənzər bir gəmi, Nuh peyğəmbər isə ona xilas olmaq üçün pənah aparan bir peyğəbərdir. Əlbəttə, şair bunu batini mənanın təzahürü kimi bizə anladır. Şair başa salır ki, əgər Nuh peyğəmbər doğurdan-doğruya su basmış dünyada külli-məxluqatı xilas etmiş olursa, məşhər günü xilas olmaq üçün bütün bəşəriyyət, o cümlədən Nuh peyğəmbər də iman dəryasında Həzrəti Əlinin sənduqəsinə pənah aparacaqdır. Çünki qorxur ki, bir daha tufan qopar. Bu halda Nuh Əlinin sənduqinə minib xilas olar.

**Mö'cizi bir gülşəni-pakizədir kim, istəsə**
**Əndəlib ol gülşənə Davudi-xoşəlhan olur.**

Onun Möcizəsi pak bir gülşəndir və əgər o istəsə gülşəndə bülbül gözəl səsli Davud ola bilər.

Davud yəhudi peyğəmbəri və padşahıdır. O əfsanəvi dərəcədə gözəl səslə oxuyarmış. Bu, Davud peyğəmbərin həm də möcüzəsi hesab olunur.

**Hər kim ixlas ilə xaki-mərqədindən zərreyi**
**Alsa, onunla təbabət eyləsə Loğman olur.**

Əgər bir adam dərin sədaqət və vəfa niyyəti ilə onun qəbrindən torpaq götürüb təbabətlə insanları müalicə etsə, onda o adam Loğman ola bilər. Loğman şərq ədəbiyyatında əfsanəvi təbib kimi şöhrət tapmış adamın adıdır.

**Qoydu rəsul çiyninə ol padişah qədəm,**
**Oldu o şə'n sahibinə ərş asitan.**

Belə bir hekayət vardır ki, Məhəmməd peyğəmbər özünün şanlı islam ordusu ilə birlikdə Məkkəyə daxil olur və Əli ilə birlikdə Kə'bə evinə girirlər. O zaman Kə'bəni bütpərəstlər bütxanaya çevirmiş və oraya 366 büt yığmışdılar. O bütləri uçurub yerə tökmək lazım idi. Bu vaxt Peyğəmbər Əliyə onun çiy-

ninə çıxıb bütləri aşağı atmağa əmr edir. Əli onun çiyninə çıxaraq bütləri yerə uçurur. Bu hərəkət Əlinin şənini o qədər ucaldır ki, sanki ərş Əlinin ayağı altında bir kandara çevrilir.

**Mövla Əli ki, saqiyi-kövsərdir, həm vəli,**
**Vermiş iki cahanda bizə qüssədən aman.**

İslamın hökmünə görə Əli həm Allahın vəlisi, həm də axirət aləmində möminlərə kövsər bulağından su paylayandır. Hər kəs Əliyə sığınsa hər iki dünyada qüssədən amanda olar.

**Adəm bahari-ğürbidə bir cürm işlədi,**
**Yetdi behişt bağında baharinə çün xəzan.**

Çox gözəl beytdir! Adəm Allahın dərgahında, bilavasitə Allahın yaxınında xəlq olunmuşdur. Şair Allaha bu yaxınlığı «bahar» və ya «qürbi-bahar» adlandırır. Allah təala Adəmə behişti vətən qərar verdi və keyfi necə istəyirsə burada yaşamasını təmin etdi. Lakin Allah təala Adəmə təkcə bir ağacın meyvəsini yeməməyi tapşırdı. Bununla belə Adəm şeytanın fitnəsi ilə həmin ağacın meyvəsindən yedi və bununla da Uca Yaradanın hökmünü pozaraq günah işlədi. Deməli, Adəm Allahın «bahara» bənzər yaxınlığında etdiyi günah ucbatından behiştdəki həyatının baharına xəzan dəydi; asi olduğuna görə Allah Adəmi behiştdən yer üzünə qovur.

**Oldu pənahgahi Nəcəf, qürbi-Mürtəza,**
**Verdi nəcat qəmdən ona bu yeni məkan.**

Adəm behiştdən qovulandan sonra o Sərəndib (indiki Seylon) adasına düşür (çünki Allah yenə də rəhm edib Adəmi təbiətcə cənnətə oxşayan bu adada sakin edir). Füzuli isə Əlinin şanını ucaltmaq üçün yaxşı mə'nada uydurma üsuluna keçərək Adəmin Sərəndib adasına yox, Nəcəf şəhərinə düşdüyünü və Əlinin məqamı yanında məskən saldığını təsvir edir.

Nəcəf şəhərində Həzrəti Əli dəfn olunduğu üçün bu şəhər müqəddəs hesab olunur. «Mürtəza» zahid, rahib, tərki-dünya mənasında olub Əliyə verilən adlardan biridir.

**Tərk etdi cənnəti, Nəcəfi qıldı ixtiyar,**
**Çün gördü bu məqamə özü rəşk edər cinan.**

Adəm cənnəti tərk edərək Nəcəfi ona görə seçdi ki, cənnətlərin hamısının bu şəhərdəki məqama – mürtəzanın məqamına paxıllıq nümayiş etdirdiklərinin şahidi oldu.



**Yerdən rəvaqi-ərşə qədər Düldülün sənin,**
**Peyğəmbərin büraği ilə getldi həminan.**

Rəvayət olunur ki, Əlinin Düldülü Peyğəmbərin Büraqı ilə yanaşı Ərşin zirvəsinə qədər getmişdir. Büraq ata bənzər bir məxluq olmuşdur ki, Məhəmməd onun tərkində Me'rac yolunu keçmişdir. Düldül isə Əlinin miniyinin adıdır. Düldül, bir çoxlarının zənn etdiyi kimi at deyil, qatır olmuşdur.

**Həqqin vücudinə var idi bir güman əgər,**
**Oldu yəqin cəhanə vücudunla bu güman.**

Əgər Allahın varlığına adamlar yalnız güman nəzərilə baxırdılarsa, Sənin vücudunla bu güman yəqinə çevrildi.

**Peyğəmbər elminin şəhərinə qapı ikən,**
**Doqquz fələk qapında olub xaki-asitan.**

Peyğəmbərimizdən belə bir hədis qalmışdır: mən elmin şəhəriyəm, Əli isə bu şəhərin qapısıdır. Bu şəhərə daxil olmaq istəyən həmin qapıya yaxınlaşmalıdır. Füzuli də bunu təqdir edir və eyni zamanda əlavə edir ki, sən elm şəhərinin qapısı olduğun halda doqquz asiman sənin qapının torpağı üstündə üzüqoylu düşüb.

**Yetsə tədric ilə Keyvanə xələl, bil ki, sənin**
**Qulunun bir qulu Keyvanə bərabər tutular.**

Keyvan Saturn və ya Zühəl ulduzudur. Əgər Keyvanə xələl yetərsə onu xilas etmək üçün Sənin qulunun qulu bir Keyvana bərabər olar.

**Gər qəza hökmü fələk şirini məhv etsə, sənin**
**Bir itin şir əvəzində olacaq çərxə səvar.**

Fələk şiri deyəndə şair günəşi nəzərdə tutur: əgər qəzanın hökmü fələyin şirini məhv etsə, sənin bir itin şir timsalında çərxə yol alan süvari olar.

**Demiş Əhməd ki, Heydərdir mənə Musanın Harunu,**
**Bu doğru fikri hər yerdə həqiqət əhli naqildir.**

Məhəmməd peyğəmbər bir dəfə Əlinin ona nisbətini Musa peyğəmbərə qardaşı Harun nisbətinə oxşatmış və beləliklə də Əlinin peyğəmbərliyə bir növ şəriki olduğunu obrazlı şəkildə bildirmişdi.

**Üzük bəxş eyləmişsə sailə ol şəh namaz üstə,**
**Əlində əhli-həqqin hər nə varsa nəzri-sayildir.**

Rəvayət olunur ki, bir dəfə Əli məsciddə namaz zamanı rükü halında imiş. Bu zaman bir dilənçi içəri girib dilənir. Əli rükü vəziyyətində olan vaxt əlini yana açıb barmağındakı üzüyü sailə – dilənçiyə verir. Odur ki, Füzuli inandırmaq istəyir ki, həqiqət əhlinin əlində nə varsa dilənçilərin nəzir malı olmalıdır.

**Bəşərdir xilqətən, əmma mələkdən qədri alidir,**
**Demə tə'yin edən qədrü məqami ab ilə gildir.**

İnsan olsa da qədr-qiyməti mələkdən də alidir. Və zənn etmə ki, insanın qədr qiymətini onun əmələ gəldiyi torpaq və su təşkil edir.

**Güman etmə Əlinin düşməni tərki-nifaq eylər,**
**Zəhər dərmani bilmə o şeyi kim, zəhri-qatildir.**

Elə hesab eləmə ki, Əlinin düşmənləri nifaqı tərk etsinlər. Heç vaxt ölüm zəhərini padzəhər, yəni zəhərə qarşı dərman hesab eləmə.

**Gəhi Əntər yıxan ol pənceyi-mö'vlanı vəsf etsin,**
**Gəhi Xeybər açan ol sərvərə mö'cüznüma olsun.**

Əntər əfsanəvi dərəcədə qəvi, qüvvətli bir pəhlivan imiş. Həzrəti Əli onun üzərində parlaq qələbə çalmışdır.

Xeybər – cihad müharibələri zamanı alınması uğrunda şiddətli döyüşlərin getdiyi məşhur şəhərdir. Bu şəhərin nəhəng darvazası var imiş. Bu darvazanın qapıları o qədər iri və ağır imiş ki, deyilənə görə onun təkcə bir tayını qırx adam açıb örtərmiş. Kafirlər müsəlmanlar daxil olmasın deyə içəridən darvazanı möhkəm-möhkəm bağlayıbmışlar. Daprvazanı açmağın bu tövrlə mümkün olmadığını görən Əli ona yaxınlaşıb iki barmağını darvazanın halqasına keçirərək onu yerindən oynatmış, sonra əlinin bircə zərbəsi ilə darvazanı vurub kənara atmış və yalnız bundan sonra müsəlmanlar şəhərə daxil olmuşdur. Beytdə də deyilir ki, hər kəs gərək o mövlanın Əntər yıxan pəncəsini vəsf etsin, hər kəs gərək Xeybər qapısını açan o sərvəri möcizənin timsalı kimi tərənnüm etsin.



**Gah alsın «innəma» bağındakı güllərdən ilhamı,**
**Sapa inci düzərkən dürcü bəhri-həl'əta olsun.**

«İnnəma» ərəbcə «həqiqətən» deməkdir. Şair «həqiqətən»i və ya həqiqəti bağça hesab edərək, ondakı güllərdən ilham alınmalı olduğunu bildirir.

Qoy o adam fikir sapına inciləri Həl'əta dürcündən götürüb düzsün. Quranın məşhur ayələrindən biri «Dəhr» surəsidir və bu surənin digər iki adı da vardır. Onu həm də «İnsan» və «Həl'əta» adı ilə tanıyırlar. Bu surə məhz Həzrəti Əlinin şə'nicəmalı münasibətilə nazil olmuşdur.

**Silib ayineyi-«laseyf»dən əşkimlə gəh jəngi,**
**Gəh ayinəmdə əksi-nuri-feyzi-«lafəta» olsun.**

Həzrəti Əlinin əzəməti haqqında şeirvari məşhur İlahi bir hədis gəlib çatmışdır. Deyilir ki, ərşin uca tavanında yazılmışdır: «La fəta illa Əli, Laseyfə illa Zülfüqar». Tərcüməsi: «Nə Əli kimi bir pəhlivan, nə də Onun Zülfüqarı kimi bir qılınc ola bilməz». Şair də bunu öz qələminin qüdrət inciləri ilə bəzəyib deyir ki, ya «laseyf»dən pası göz yaşlarımla siləydim, ya da aynamda «Lafəta»nın feyz nurunun əksini görə biləydim.

**Ayağı türbəsindən feyz tapdım, söyləyin Xizrə**
**Ki, hazırdır könül abi-həyatə rəhnüma olsun.**

Şair Əlinin uyuduğu türbədən feyz aldığını bildirir və bunun Xızır peyğəmbərin içdiyi dirilik suyundan da üstün olduğuna inanır. O, sanki Xızır peyğəmbərə əsil abi-həyatın Əli türbəsindən feyz almaq olduğunu bəyan edir. O Xızıra öz içdiyi abi-həyata deyil, Əli türbəsindən çağlayan əbi-həyata rəhnümalıq – yol göstərmək lazım olduğunu tövsiyə edir.

**Onu az sevmirəm mən Malikü Əmmarü Buzərdən,**
**Məhəbbət məndə, layiqmi o qullar pişva olsun.**

Malik ibn Harisül Əştər peyğəmbər əshablarından olub Əliyə qızğın sədaqət göstərənlər sırasındadır. Malik fəsahəti, şücaəti və şairanə təbiəti ilə ad qazanmışdır. Həzrəti Əli hakimiyyətə gələndən sonra onu Misirə vali təyin etmişdi. Müaviyə (lə'nətüllah!) onun Nafi adlı köləsini öz tərəfinə çəkərək onun köməyi ilə Maliki zəhərlətmişdi. Döyüşlərin birində ox gözünü deşdiyinə görə əştər, yəni «deşilmiş» ləğəbini qazanmışdır.

Əmmar ibn Yasir ərkani-ərbə'ədən hesab olunur (Əmmar, Səlman, Əbuzərr və Müqdad), islamı qəbul etmiş yeddinci adamdır. İnanılmaz dərəcədə igid bir adam idi. Siffeyn döyüşündə əlində qılınc vuruşan zaman Əmarın doxsan üç yaşı var imiş. Döyüşdə Əmmarın şəhid olması xəbəri çıxanda onun düşmənləri sevinmiş və bunu fəthül-fütuh – fəthlər fəthi adlandırmışdılar.

Əbuzərr islamı qəbul etmiş dördüncü adamdır, əsil adı Cündəb ibn Cünadədir. Peyğəmbərin ən müqərrəb səhabələrindən olmuşdur. Xəlifə Osmanı qınadığı üçün o Əbuzərri Rəbəzə çölündə öldürtdürmüşdür.

İndi eşqin gücünə bax ki, Füzuli Əliyə yaxınlıqda özünü Malikdən, Əmmardan , Əbuzərrdən də irəlidə hesab edir.

**Əlidəndir hamıya mümkün olmayan hər şey,**
**Onunla həll edilər həll olunmayan işlər.**

Çox da dərinə getmədən müxtəsər fikrimizi belə izah edə bilərik ki, Həzrəti Əli – həllali-müşkilat və ya müşkilgüşa, yəni çətinlikləri həll edən ləğəbini qazanmışdır.

**Yəqin ki, büt qaçaraq gizlənər birəhməndən,**
**Diyari-hində əgər hökmi-şər'i etsə güzər.**

Brəhmən – hind cəmiyyətində Allah hesab edilən ali varlıq. Hind cəmiyyəti də bütpərəstliyə sitayiş üzərində qurulmuşdur. Şair bizi inandırır ki, əgər Əlinin şəriət hökmləri hind torpağına yetişsəydi büt gizlənib brəhməndən üz döndərərdi.

**O büt qıran Əlinin Çində zikr olunsa adı,**
**Yəqin ki, büt kimi Fəğfur huşunu itirər.**

Fəğfur Çin hökmdarlarına verilən addır. Yəni Kə'bə evindəki bütləri sındırmağının sədası Çinə yetişsəydi onda fəğfur huşunu itirib həmin bütün gününə düşərdi.

**Fələk üqabını şəhbazi-hökmün izlərkən,**
**Üqab sanki açar sərçə seydinə şəhpər.**

Üqab ərəbcə qartal və ya qaraquş deməkdir. Əgər sənin hökmünün qızılquşu Fələk üqabının üzərinə yerisə, onda Fələyin üqabı sərçəni ovlamaq üçün qanad açmış bir quş olar.

**Yumulmamışdır onun gözləri belə yuxudan,**
**Bunu adındakı «eyn» hərfi də edər iqrar.**



Əyn (ع) hərfi ərəb əlifbasında bizdə apostrof (ء) mə'nasını verən bir hərfdir. Əli sözünun ərəbcə yazılışında həmin əyn hərfi sözün əvvəlində yumulmamış gözə bənzəyən bir formada olduğu üçün şairə belə bir iddia irəli sürməyə imkan vermişdir ki, Həzrəti Əli yatanda belə heç vaxt gözlərini yummamışdır və dəlil üçün ərəbcə Əli (علی) sözünün əvvəlindəki əyn hərfini nümunə göstərir.

**Nə qorxu vardır, ona düşmən olsa aləm əgər,**
**Yatan necə yetirər yatmayanlara azar.**

Əlinin heç nədən qorxusu yoxdur, başqa cür desək, onu heç yerdən qorxu hədələmir, lap aləm ona düşmən da olsa belə, çünki Əli o uca olan Tanrının eşqilə İlahi bir məstlik aləmindədir. Şair bunu yatmış adama bənzədir, çünki yatmış adam başqasına qorxu törətməz, bu səbəbdən də başqaları yatmış adama təcavüz edib onu qorxuya salmaz.

**Küfrdən ayırırdı şər'i-Mustafa, bais odur,**
**Əhmədi-Muxtar onunla oldu fəxri-ənbiya.**

İlk baxışda elə görünə bilər ki, beytdə üç şəxsdən söhbət açılır, əslində bu Məhəmməd peyğəmbər və Əlidir. Mustafa seçilmiş mənasında olub Məhəmməd peyğəmbərə verilmiş adlardan biridir. Əvvəldə də qeyd etdiyimiz kimi Əhmədi-Muxtar da həmin adlardan biri olub müstəqil, azad, sərbəst mənasını verir. Beytin mənası belə alınır ki, Məhəmmədin şəriətinin küfrdən qurtulmasına bais Əlidir, onun sayəsində Məhəmməd, yəni Əhmədi-Muxtar bütün peyğəmbərlərin fəxri oldu.

**Bir dəlildir hörmətinə kim, şəbi-Me'racdə,**
**Gördü Əhməd kim, Əlidir sakini-ərşi-xuda.**

Uca ərşin qübbəsində Əlinin adının yazıldığını islam ehkamları dönə-dönə təsdiq edir. Bunu peyğəmbər me'rac gecəsi zamanı müşahidə etmişdir.

**Hər qədər ki, rəhnümalıq etməmişdin Adəmə,**
**Baş verərdi taətində Adəmin hər gün xəta.**

Bizcə bu beytdə Adəmi kitabın tərtibçiləri səhvə yol verərək peyğəmbər kimi təqdim etmişlər. Çünki burada kitab tərtibçiləri Adəmi adi insan kimi qəbul etməli və bu səbəbdən də

onun adının baş hərfini kiçik hərflə yazmalı idilər. Ona görə ki, şair misrada peyğəmbər Adəmi yox, adi insan adını daşıyan adəmi, yəni adamı nəzərdə tutmuşdur. İslamın yaranması ilə peyğəmbərimizlə yanaşı Əli də cahil insanlara yol göstərən olmuş, onları həqiqi din yoluna dəvət etmişdir. Nə qədər bu rəhnümalıq yox idi, insanlar hər gün əməllərində çoxlu xətalara yol verirdılər. Sənə qarşı itaətlərində yol verdikləri xətaları indi onlar qəza halına salmışlar, yəni həmin xətaları gözəl əməllərlə əvəzləmişlər o zamandan ki, onlar Nəcəfdə sənə iqtida etməyə başladılar.

**Dərgəhin torpağına düşdü saralmış çöhrəmiz,**
**Yəni ol qiymətli torpağa nisar etdik tila.**

Şair Əli sevənlərin saralmış sifətlərini sarı olduğu üçün qızıla oxşatmış, bu sifətlərin torpağa düşmələrini Əlinin ayağının altına qızıl səpməyə nisbət tutmuşdur.

**Asitanindan yədi-beyza çıxarmaq vaxtıdır,**
**Ya Əli, sahirlərin meydanına at bir əsa.**

Həzrəti Musaya peyğəmbərlik verilərkən Allah-təala ona iki möcüzə verdi; biri Musanın əsasının əjdahaya çevrilməsi və bir də yədi-beyza - parlaq əl, yəni Həzrəti Musa əlini qoynuna salar və qoynundan çıxaranda o gözqamaşdırıcı şəkildə parıldarmış. Şair də Əlidən Musasayağı ona qarşı olan küfr əməllərini - əlbəttə batini mə'nada, - məhv etmək üçün əsanı kafirlər içərisinə atıb əjdahaya çevirməyi, ona inanmayanlara Musa kimi yədi-bəyza nümunəsində öz möcüzəsini nümayiş etdirməyi rica edir.

**Yəqin ki, Xizrin «ətəş» naləsi çıxardı göyə,**
**O dilbər abi-həyata olaydı gər səqqa.**

Əvvəldə qeyd etmişdik ki, Xızr peyğəmbər abi-həyat, yəni dirilik suyundan içən yeganə peyğəmbər olmuşdur. Füzuli göstərir ki, o dilbər-Əli əgər dirilik suyunun səqqası-supaylayanı olsaydı, onda Xızrın susuzluq naləsi ərşə bülənd olardı.

***

Məhəmməd Füzuli islam müqəddəslərindən söhbət açarkən peyğəmbər xanədanının nümayəndələrinin də vəsfini qələminin qüdrətindən kənarda qoymamışdır. Həzrəti Əli və peyğəmbərin qızı Fatimeyi-Zəhranın mübarək nikahından törənmiş



on bir, (bütövlükdə on iki) imam, Peyğəmbər və Fatimeyi-Zəhra ilə birlikdə on dörd məsum şəxs Füzuli məhəbbətinin həmişə tərənnüm obyekti olmuşlar.

On dörd məsumun tərənnüm edildiyi şeirlər (hansı formada olur olsun) **tilavət** adlanırlar. Tilavət avazla, gözəl səslə Quran oxumağa deyilir. Bununla belə on dörd məsumun tərənnüm edildiyi şeirlər də bu qismə aid edilir. Hüzn məclislərində Quranın «Yasin» surəsi oxunduqdan sonra on dörd məsumun vəsf edildiyi məşhur tilavəti oxumaq ənənə halını almışdır. Həmin tilavətin müəllifi XIII əsrdə yaşamış şeyx Bəhaəddin Amili olmuşdur. On dörd mə'sum haqqında saysız-hesabsız tilavətlərin olmasına baxmayaraq yalnız Amilinin tilavəti daim oxunmaqdadır.

Füzulinin qəsidələrində də on dörd mə'sum haqqında bşqa bir tilavət də vardır ki, onları bu yazımızda nəzərdən keçirmək yerinə düşər.

**Tilavət.**

**Şah oldu minbər yeksərə, çıxdı kinufə minbərə,**
**Səlavət edər peyəmbərə səllüəla, xəyrülvərə.**

Beytdə Məhəmməd (ə.s.ə.) mədh olunur və bu kinufə gülünün davranış tərzi nümunəsində təqdim olunur.

**Səhni-çəməndəərğəvan, hər bərgini etmiş zəban**
**Təkrar eylər hər zəman, mədhi-Əliyyül-Mürtəza.**

Çəmənlikdə al güllər hər yarpağını bir dilə çevirərək Əli Mürtəzanın mədhni təkrar-təkrar söyləməkdədir.

**Zaye keçirməz yasəmin ömri-lətifü nazənin,**
**İxlas ilə eylər özün xaki-rəhi-xəyrün-nisa.**

Yasəmən özünün nazənin, lətif ömrünü bihudə keçirməz, səmimi-qəlbdən özünü Xeyirənnisanın (Fatimeyi-Zəhranın) keçdiyi yolun torpağına döndərər.

**Türfə rəyahin sərbəsər kəsb etdi ətri-müşki-tər,**
**Xülqi-Həsəndən bir əsər gülzarə göstərəcək səba.**

Səba yeli Həsənin əxlaqından gülzarə bir əsər göstərən kimi bütün türfə reyhanlar təravətli müşk ətri ilə ətir saçmağa başladılar.

Şərhdə söhbət birinci imam Həzrəti Əlinin birinci oğlu ikinci imam Həzrəti Həsəndən gedir. Həzrəti Həsən atasının

vəfatından sonra imam rütbəsinə yiyələnərək zəifləməkdə olan islam dinini qüvvətləndirmək üçün çox böyük çətinlikləri dəf etməli idi və buna çoxlu səy göstərdi. Lakin imam Həsənin göz qabağında olması Müaviyə başda olmaqla islamın ən qəddar düşmənlərinin bəd əməlləri üçün böyük maneə idi. Müaviyə (lənətüllah!) imamı aradan götürmək qərarına gəldi və bu işdə Əş'əs ibn Qeys əl Kindinin (lənətüllah!) qızı, imam Həsənin arvadı Cə'dəni casus kimi irəli çəkdi. Gecələrin birində Cə'də (lənətüllah!) imam Həsənin su içdiyi qaba güclü zəhər qatdı və bu yolla imamı aradan qaldırmağa nail oldu.

**Zahir qılır xunin kəfən, lalə-qılır yüz parə tən,**
**Duta dönüb tərfi-çəmən şahi-şəhid içün əza.**

Kəfən qana bulaşdığını üzə çıxarır, lalə bədənini yüz parça edib çəmənin ətrafını dolana-dolana şəhidlər şahı üçün əza saxlayır. Burada Həzrəti imam Hüseyn nəzərdə tutulur.

Həzrəti Hüseyn ibn Əli imamlar sırasında üçüncü imamdır. Bütün sonrakı imamlar imam Hüseyndən törənən nəsillər kimi dünyaya gəlmişlər. Dinin saflığı və paklığı uğrunda Əli xanədanının əməvilərə qarşı başlamış olduğu mübarizənin davamçısı Müaviyənin oğlu Yezid (lənətüllah!) öz qanunsuz və qan içən hakimiyyətini xalqın gözündə böyütmək və bu yolla etibar qazanmaq üçün Həzrəti Hüseyndən özünə be'yət almağa çalışır. Lakin bu baş tutmur. Əvəzində Kərbəla çölündə Yezid Aşura hadisəsini törədərək imam Hüseyn başda olmaqla yetmiş iki şühədaya misli görünməmiş bir divan tutmaqla yanaşı qətlə yetirilənlərin başlarını kəsərək Şama öz iqamətgahına aparır. Elə bilir ki, bununla bütün arzu və istəkləri həyata keçəcəkdir. Əbəs yerə. Xalq bunu eşidib əməvilər hakimiyyətinə qarşı nifrət alovları püskürür. Elə bununla da Əməvilərin göydəki ulduzları və evdəki çıraqları birdəfəlik sönməyə başlayır. Zaman yetişir və Kərbəla faciəsini törədənlər ən amansız bir şəkildə qətlə yetirilirlər.

**Abid sifət çəkməkdə ğəm, olmuş bənəvşə qəddi xəm,**
**Guya qılır ol pak həm, Zeynəlibadə iqtida.**

Abidlər kimi qəm çəkməkdə bənövşənin qəddi əyilmişdir, bu pakdamən sanki Zeynəlibada iqtida edir.



Əli ibn Hüseyn. Dördüncü imam. Zeynülabdin, Zeynəlibad, Seyyidüssacidin, Zissəfənat, Zəki və Əmin ləqəblərilə tanınır. İmam Hüseynin ortancıl oğlu olduğu üçün ona Əlövsət adı da verilmişdir. Kərbəla faciəsi zamanı xəstə olduğundan ona toxunmasalar da sağ qalan qadınlarla birlikdə onu da əsir vəziyyətində Kufəyə aparmışdılar. Zeynülabdin və bibisi Həzrəti Kürsüm sağ qalmaq imkanından istifadə edərək şəhər əhalisi qarşısında özlərinin peyğəmbər nəvələri olduqlarını bildirdilər, Kərbəla hadisəsini törədənlərin iç üzünü od-alovlu nitqlərilə ifşa edib Əməvi xanədanına ölümcül zərbələr endirdlər, bununla da onlar Kərbəla inqilabının başlanğıcını qoydular.

Zeynülabdin (ə.s.) sonrakı illərdə də əməvi xanədanlığı daxilində gedən çəkişmələrdən vaxt qazanaraq Aşura inqilabını sona çatdırmağa çalışmışdır. Məhz onun sayəsində Kərbəla hadisəsi şərəfinə hər il 40 günlük əza məclisləri keçirilməyə başlandı. Onun «Səhifeye Səccadiyyə» adlı əsəri Quran və «Nəhcül-bəlağə»dən sonra ən qiymətli kitab hesab olunur.

**Ğəmi-dəf üçün hər tərəf, gülşəndə çəkmiş səbzə səf,**
**Baqir sənasində şəğəf bulmuş qılır virdi-səna.**

Qəmləri dəf etməkdən ötrü gülşəndə səflər çəkən səbzə Baqirin sənasına (duasına) bir vurğunluq, məhəbbət vücuda gətirərək durmadan virdü səna etməkdədir.

Məhənımməd ibn Əli. Beşinci imam. Müstəsna dərəcədə dərin elmlərə yiyələndıyi üçün ona «Baqirəl ülum» - elmləri açan ləğəbi vermişlər.

Onun dövrründə Əməvilərlə Abbasilər arasında hakimiyyət uğrunda qanlı toqquşmalara baş qatışığından istifadə edərək Baqir (ə.s.) var gücü ilə islami bilikləri – fiqh, hədis, təfsir və s. məsələləri yaymağa çalışmışdır. O zamanın nəhəng elmi simaları ondan aldığı biliklərin sayəsində böyük elmi yüksəlişə yetişə bilmişdilər. İmamın təkcə 500 səhabəsi belə məqamlara çatmış adamlar idilər.

Məhəmməd Baqir (ə.s.) hicri 114-cü ildə 57 yaşında ikən Əbdülməlik oğlu Hişam tərəfindən zəhərləndirilərək öldürülmüşdür.

**Feyzi-şəq etmiş arizu, çıxmış şəqaiq sürxru,**
**Qılmış biəmri-həq gülü Sadiqi qılmış pişiva.**

Haqqın feyzinə yetişməyi arzulayan qırmızı sifətli lalə gülü torpaqdan baş qaldıraraq Sadiqin pişvazına çıxmışlar.

Cəfər ibn Məhəmməd. Altıncı imam. Künyəsi Əba Əbdillahdır. Ləqəbləri Sabir, Fazil, Tahir və ən tanınmış ləqəbi Sadiqdir.

İmam Cəfəri-Sadiqin dövründə islami elmlərin inkişafı, islam maarifinin tərəqqisi yüksək dərəcəyə çatdı. İmamlıq etdiyi otuz bir il ərzində elmi biliklərlə yanaşı şiə məzhəbinin əsaslarını araşdırıb dəqiqləşdirərək onu rəsmi formaya sala bildi. Təsadüfi deyildir ki, Cəfəri Sadiqdən sonra şiə məzhəbi Cəfəri məzhəbi adı altında təqdim edilməyə başladı. İmam Sadiqin məşğələlərində dörd min məşhur alim və hədisçi onun mühazirələrinə qulaq asırmış. İmam Sadiq əleyhissəlam ona mə'lum olan bütün elmlərə yiyələnmişdi. O öz dəyərli sözlərini elm, hədis, təfsir və fiqh kitablarının canına hopdurmuşdu. O, islam elm və mədəniyyətini əzəmətli zirvəyə çatdırmışdı. İslami elmlər və Quran elmi məktəbi Sadıq (ə.s.) vaxtında parlaqdan parlaq bir şəkildə nur saçmağa başladı. İslam düşmənləri də yatmamışdılar. İmam Cəfəri Sadiq hicri 148-ci ilin şəvval ayının 25-də yenə də zəhərləndirilmiş üzüm vasitəsilə şəhid edildi.

**Qəhr ilə çərxi-lacivərd gər yasəməni qılsa zərd,**
**Nə qəm çu görcək əhli-dərd eylər ona Kazim dəva.**

Əgər yaqut göylər qəhr ilə yasəmənin çöhrəsini sarıya boyasa və bundan da yasəmən dərd əhlinə çevrilsə qorxusu yoxdur, çünki dərd əhlini görən kimi Kazim onun çarəsini edəcəkdir.

Musa ibn Cəfər. Yeddinci imam. Müqəddəs Musa, məşhur künyələri isə Əbül Həsən və Əbu İbrahimdir. Ləqəbləri Alim, Saleh Kazimdir. İmamın yaşadığı dövr ən qatmaqarışıq və qorxulu zamanlardan biri olduğuna görə imam əleyhissəlam ürək edib islam elmləri və maarifini lazımınca yaya bilməmişdi. 55 illik ömrünün yarıdan çoxunu həbsxanada keçirmişdi. Museyi-Kazim imkan olduqda açıqda və gizlində islami-maarifin yayılmasına yardım göstərmişdi. O, ömrü boyu din və əqidə düşmənləri, hakimiyyəti qəsb etmiş əyyaşlar, şərabxorlar, qəddar və zalım adamlar tərəfindən təqib edilmişdir. İmam Museyi-Kazim hicri 182-ci ilin rəcəb ayının 25-də xəlifə Harun ər-Rəşidin əmrilə zindanbaşı Səndi ibn Şahik tərəfindən (onların hər ikisinə Allahın lənəti olsun!) qətlə yetirildi.



**Kəşf etməyə əsrari-həq, açmış səmən simin vərəq,**
**Vermiş ona guya səbəq elm içrə şahi-din Riza.**

Haqqın sirlərini kəşf edib yazmaq üçün səmən (və ya yasəmən) gümüş vərəqlər hazır etmişdir, elə bil dinin şahı Rza elmləri öyrənməkdə ona hamıdan çox üstünlük vermişdir.

Əli ibn Musa. Səkkizinci imam. Onun mübarək adı Əli, künyəsi Əbül Həsən, ən məşhur ləqəbi Rzadır. O, fövqəladə dərəcədə mülayim, pakxislət, üzügülər, ədalətli, səxavətli adam idi. Onun elmi o qədər dərin, əzəmətli idi ki, bir vaxt babası Cəfəri-Sadiq (ə.s.) oğlu Museyi-Kazimə (ə.s.) demişdi ki, sənin indi belində olan oğlun gələcəkdə ali Məhəmmədin alimi olacaqdır. Onun elmi o qədər parlaq və göz qamaşdırıcı idi ki, imam Rza (ə.s.) onu hörmətdən salıb kiçiltmək məqsədilə xəlifə Mə'munun təşkil etdiyi elm məclislərində öz elminin qüvvəsilə ona qarşı durmaq istəyən alimləri asanlıqla yerində oturda bilmişdi. Həzrəti Əli xanədanının düşmənləri həmişə olduğu kimi imam Rza (ə.s.) məhv etmək qərarına gəldilər. Onlar öz qərarlarını zəhərlənmiş üzümlə imamı 203-cü ilin səfər ayında zəhərləməklə həyata keçirməyə nail oldular.

**Lö'bətsifət gör zənbəqi, gülzara vermiş rövnəqi,**
**Olmuş həvaxahi Təqi, kəsb eyləmiş ondan səfa.**

Bu gəlinciyə oxşayan zanbağa bax ki, bütün gülzara rövnəq verməkdədir. Təqini özünə havadar seçərək ondan səfa almaqdadır.

Məhəmməd ibn Əli. Doqquzuncu imam. Adı Məhəmməd, ləqəbləri isə Cavad və Təqidir. Səkkiz yaşı olmamış imamlıq məqamına yetişmişdir. Düşmənləri belə onu kamalına və biliyinə görə zəmanənin dahisi hesab edirdilər. Onu pis vəziyyətdə qoymaq üçün xəlifə Mə'mun tez-tez sarayında alim hesab etdiyi şəxsləri toplayıb məclis düzəldər, mübahisələr təşkil edərək Cavad əleyhissəlamı sorğu-suala çəkdirərdi. Lakin nəticə onlar üçün acınacaqlı olurdu. Cavad əlyhissəlam da atası

imam Rza kimi öz dərin, kamil və fəsahətli cavabları ilə bütün məclisi başı aşağı edirdi. Belə məclislərin birində Cavad aleyhissəlamın ağlına heyran qalan Mə'mun elə oradaca qızı Ümmi Fəzli imam Cavada ərə vermək haqqında kəbın kəsmək əmrini verir. Orada bir çoxları bu qərardan diksinərək bir şiə imamından olan vəliəhdin hakimiyyət taxtında oturacağından qorxuya düşdülər. Hakimiyyətə gələn Mö'təsim də bu kəbindən narazı idi. Gözlənilən qorxunun gerçəkləşməsinə yol verməmək üçün Mö'təsim qəddarlıq həyata keçirərək Cavad aleyhissəlamı zəhərləməyə nail olur.

**Məddah tək susən dili olmuş mədayih naqili,**
**Mədhinin olmuş qaili, sultan Nəqiyy-bəhr əta.**

Süsənin məddaha bənzər dili tə'riflər ötürən bir telə oxşayır, özü də elə təriflər ki, ehsan dəryasının pak sultanı da onun qaili olmuşdur. «Pak» sözünü işlətməklə biz onuncu imam Əliyənnəqi aleyhissəlamı nəzərdə tuturuq. Belə ki, lüğəti mə'nada nəqı pak, təmiz kimi başa düşülür.

Əliyənnəqi aleyhissəlamın mübarək adı Əli, künyəsi Əbülhəsən, müqəddəs ləqəbləri Nəcib, Mürtəza, Alim, Fəqih, Nasih, Əmin, Mö'təmən, Təyyib, İbnəl Riza, Mütəvəkkil, ən məşhur ləqəbləri isə Nəqi və Hadi olmuşdur.

Əliyənnəqi aleyhissəlam olduqca alim və təqvalı bir şəxs olub xalqın məhəbbət və rəğbətini qazanmışdı. Özünə qədərki imamlar kimi Əliyənnəqi aleyhissəlam da daim insanların gözlərini açmağa çalışır, onların azadlıq ruhunu qanadlandırmağa səy edirdi. Lakin onun da taleyi əvvəlki imamlar kimi oldu. Abbasi xəlifələrinin ən pisi və alçağı olan Mü'təzin göstərişi ilə hicri 254-cü ildə Əliyənnəqi aleyhissəlam zəhərlənərək öldürüldü.

**Nəsrinin açıq dəftəri olmuş həqayiq məzhəri,**
**Ondan sifati-əsgəri fəht etmiş ərbabi-zəka.**

Misirgülünün açıq dəftəri həqiqətlərin zühur yeri olmuş, ondan zəka ağaları Əskərinin sifətlərini əxz etmişlər.

Həsən Əsgəri. On birinci imam. Əvvəlki imamlar kimi o da zülmə, haqsızlığa, hakimiyyəti qanunsuz qəsb etmiş Abbasi Xəlifələrinə qarşı mübarizə aparmışdır. O, ömrü boyu mərkəzi



hakimiyyətin nəzarəti altında olmuş, müxtəlif həbsxanalara salınmışdır. İbn Babəveynin və başqa yazarların dediyinə görə xəlifə Mö'təmid onu zəhərlədib öldürmüşdür. İmam Həsən Əsgəri ona edilən fasiləsiz zülm və təzyiqlərin nəticəsi idi ki, cəmi altı il imamlıq etmişdir.

**Vəqt oldu qönçə açıla, gül xurdəsin zahir qıla,**
**Mehdi zühurini bilə, faş edə sirrini qəza.**

Bizcə beytdə hər şey aydındır. Maraqlı cəhət orasındadır ki, şair Mehdinin zühurunu gülün açılması, qızıl gülün öz al ləçəklərini üzə çıxarması ilə əlaqəli şəkildə götürür. Ola bilsin ki, İmam Mehdinin zühuru baharda qızıl güllərin açılacağı vaxtına təsadüf edəcəkdir. (İnşallah!!!)

Bu tilavətdə şair hər bir on dörd məsumdan birini müəyyən gülün incə və lətif əlamətlərilə əlaqəli tərzdə bizə təqdim edir: Məhəmməd peyğəmbər kinufə gülü, Həzrəti Əli ərğəvan adlı al, tünd qırmızı bir çiçəyin adı ilə, Fatimeyi-Zəhra (s.ə.) yasəmin gülü, İmam Həsən reyhanın, İmam Hüseyn lalənin, İmam Zeynəlabdin bənövşənin, imam Baqir çəmənlikdəki yaşıl yarpaqların, imam Sadiq xoruzgülünün, İmam Museyi-Kazım yasəmənin, İmam Rza səmənin (və ya yasəmənin), imam Məhəmməd Təqi zanbağın, İmam Əliyyən-Nəqi süsən gülünün, İmam Həsən Əsgəri Misir gülünün və nəhayət İmam Mehdi qızıl gül qönçəsinin timsalında tərif və alqış obyektinə çevrilmişdir.

Aşağıda təhlilini verəcəyimiz bütöv bir qəzəli gözdən keçirəndə adama elə gəlir ki, burada cənnətdən qovulduqdan sonra Adəm peyğəmbərin cənnətdə keçirdiyi xoş günlərin həsrəti, yanıb-yaxılması təsvir olunur. Lakin bu belə deyil. Füzulinin bu maraqlı qəzəlində onun həyatı boyu Həzrəti Əlinin və Həzrəti Hüseynin (ə) müqəddəs və mübarək məqbərələrində xüddam vəzifəsində çalışdığı illər üçün çəkdiyi xiffətin məzmunundan bəhs olunur. Buna sübut elə qəzəlin birinci misrasında gözə görünür.

**Xoş ol zaman ki, hərimi-visalə məhrəm idim,**
**Nə mübtəlayi-bəla, nə müqəyyədi-ğəm idim.**

Beytdəki «hərim» müqəddəs yer, məqbərə mənasını da-

şıyır, bu isə Allaha münasibətdə işlədilən kəlmə deyil. Bu söz Füzulinin adlarını yuxarıda qeyd etdiyimiz məqbərələrdə çalışdığı illərin vəsfi olduğunu bir daha sübut edir. Qəzəl konkret olaraq onlardan hansına - Əliyəmi və ya Hüsenəmi aid olduğunu demək çətin olsa da, şairin ömrü boyu bu iki müqəddəsə olan solmaz məhəbbətini bir daha diqqəti-nəzərə çatdırır. Məhz o zamanlar şair onqların hərəmində ömür sürərkən vüsal işrətində olduğunu və bunun sayəsində nə bəlaya mübtəla, nə də qəm ilə əl-ayağı bağlı olduğunu həsrət odu ilə bəyan edir.

**Gəzərdim itlərin içrə fəzayi-kuyində,**
**Yerim behişti-bərin idi, mən bir Adəm idim.**

İtin sədaqət rəmzi olduğunu bilirik, lakin şair bunu təkcə insanın Allaha qarşı deyil, həm də müqəddəs insanlara qarşı məhəbbətin itfadəsi kimi də ön plana çəkir.Azərbaycan xalqında Kəlbəli, Kəlbhüseyn – «Əlinin iti», «Hüseynin iti» kimi ifadələrin olması dediklərimizi sübut edır. Şairə görə Həzrəti Əlini və ya Hüseyni ziyarətə gələnlər onlara sədaqətlərinin gücündən özlərini rəmzi mənada it səviyyəsinə endirənlərdir. Özünün də onların arasında gəzdiyini bildirir, yerinin cənnətə və özünün də Adəmə bərabər olduğunu böyük şövqlə bəyan edir.

**Həmişə səcdəgəhim xaki-asitanım idi,**
**Bu etibarilə bir sərbüləndi-aləm idim.**

Şair bu müqəddəslərın hərəmində həmişə onların kandar torpağına səcdə etdiyini və bununla da etibar qazanıb aləmin ən məşhur adamı olduğunu həvəslə dilinə gətirir.

**Gədayi-kuyin idim, böylə zillətim yox idi,**
**Səriri-səltənəti-qürbidə müəzzəm idim.**

Sənin olduğun yerin gədası idim, heç bir zillətim yox idi, sənin yanında özümü səltənət taxtında oturmuş padşah kimi əzəmətli hiss edirdim.

**Zaman-zaman əsəri-pərtovi-cəmalindən,**
**Müalici-dili-pürdərdü çeşmi-pürnəm idim.**

Zaman-zaman sənin parlaq cəmalının təsiri ilə dərdlə dolu ürəyimə, yaşla dolu gözlərimə əlac edirdim.

**Ziyadə ğəmzədəyəm hicr ilə, xoş ol günlər**



**Ki, mən bu ğəmzədəlikdən ziyadə xürrəm idim.**

İndi hədsiz qəm içindəyəm, amma xoş o günlərdən ki, mən o zaman bu qəmlilikdən artıq dərəcədə şad, sevincli idim.

**Füzuli, olmaz imiş möhnəti-fəraqə müfid,**
**Bu zövqi-zikr ki, bir vaxt yarə həmdəm idim.**

Ey Füzuli, indi bir vaxtlar ki, yara həmdəm olmağımı zikr edib zövq alıram, bu da ayrılıq möhnətinə çarə edə bilmir.

## 2. FÜZULİ ŞERİYYATINDA DİGƏR DİN MÜQƏDDƏSLƏRİNİN MƏDHİ

M.Füzuli təkcə Məhəmməd peyğəmbər əhli-beytinin, yəni indiyə kimi haqqında bəhs etdiyimiz islam müqəddəslərinin deyil, ona qədər olmuş digər dinlərdən olan peyğəmbərləri də sevə-sevə mədh etmiş, bacardığı qədər onlar haqqında yazıb-yaratmış və onların malik olduqları bütün mə'nəvi keyfiyyətlərinə eşq prizmasından baxmaqla özünün poetik ustalığını oxucunun nəzər-diqqətinə çatdırmağa çalışmışdır. Yenə də bu işdə şairin qəzəl deyişmələrinə geniş yer verilmişdir. Qəzəl janrında Füzuli bütün peyğəmbərlərin mə'nəvi yüksəklik və saflıqlarını böyük məhəbbətlə vəsf edə bilmişdir.

**Səcdəgah etmişdi eşq əhli qaşın mehrabını,**
**Qılmadan xeyli məlaik səcdeyi-Adəm hənuz.**

Mələklər hələ Adəmə səcdə etməmişdən əvvəl eşq əhli sənin qaşlarını (və ya qaşlarının mehrabını) səcdəgah etmişdilər.

Şair beytdə əvvəl-əvvəl Allah təbarəkə-təalanın hər bir yaradılışdan daha qədim olduğunu, Adəm xəlq olunmazdan da qabaq eşq əhli olan mələklərin ona səcdə etmiş olduğunu oxucuya anladır. Beytdə Adəmin xəlq olunması haqqında Qurani-Kərimin Bəqərə surəsindəki 31-34-cü ayələrin məzmununa toxunulur. Beytin müxtəsər izahı belədir ki, Allah təala insanı – Adəmi xəlq etdikdən sonra mələklərə Adəmə də səcdə etməyi əmr etdi. Mələklər əvvəl-əvvəl bundan xoşlanmasalar da, Allahın əmrini yerinə yetirərək Adəmə səcdə etdilər (təkcə İblisdən başqa). Çünki, Adəm yaradılmazdan əvvəl mələklər Allaha səcdə etdikləri üçün Allahdan Adəmə də səcdə etmək əmrini alanda narazılıq edərək tərəddüd göstərmişdilər.

**Ey xoş ol günlər ki, mən həmraz idim canan ilə,**
**Ne'məti-vəslin görüb nazın çəkərdim can ilə.**
**Görməmişdi gülşəni-eyşim xəzani-təfriqə,**
**Olmamışdı tirə əyyamım şəbi-hicran ilə.**

Xoş olsun o günlər ki, o vaxtlar mən canan ilə həmnəfəs



idim, həmsirr idim. Onun hər gün vüsal ne'mətini görüb canımla onun nazını çəkərdim.

O zaman mənim eyş-işrət gülşənim təfriqə xəzanı görməmişdi. Keçirdiyim əyyamlar hicran gecəsi ilə qaralanmamışdı.

Bu iki beyt şairin «Leyli və Məcnun» poemasında Məcnunun dilindən cari olan qəzəldəndir və göründüyü kimi Məcnunun düşdüyü eşq vəziyyətinin mahiyyətini bizə göstərir. Ancaq bu beytlər Adəm peyğəmbərin nəşəli-sevincli, qüssə və kədərsiz cənnət həyatını təsvir etmək üçün tam yararlı beytlər kimi göz önündə canlanır.

Adəm peyğəmbərin cənnətin şövqü, o uca olan Allah–təalaya yaxınlığının həsrətilə yanıb yaxılması haqqında M.Füzulidə bütöv bir qəzəl vardır ki, onu burada təhlil etmək xüsusilə əhəmiyyətlidir və görəcəyik ki, Həzrəti Adəmin cənnətdəki o xoş günlərini şair Adləmin dili ilə necə səciyyələndirir.

**Ey xoş ol günlər ki, ruxsarın mənə mənzur idi,**
**Çeşmi-ümmidim çirağı-vəsldən pürnur idi.**

O uca Pərvərdigara müraciətən istiqamətlənən bu beytdə Həzrəti Adəm öz xiffətli sözlərini ürək yanğısı ilə başlayır və bildirir ki, heyif o xoş günlərdən ki, sənin ruxsarın-üzün mənimlə üzbəüz idi. Sənə qərin idim, Sənə qovuşmuşdum, ümidli gözlərim sənin vüsal çırağının nuru ilə nurlanmışdı.

**Qürb şövqi afiyət bəxşi-təni-bimar idi,**
**Vəsl zövqi rahətəfzayi-dili-məhcur idi.**

Sənə yaxınlıqdan doğan şövq bu dərdli bədənimə salamatlıq, vüsal zövqü hicranlı ürəyimə bir rahatlıq bəxş edirdi.

**İzzətim şəm'i münəvvər, taleyim əzmi qəvi,**
**Dövlətim hökmü rəvan, eyşim evi mə'mur idi.**

Mənim cəlalımın şamı nurlu, taleyimin əzmi qüvvətli idi, dövlətimin hökmü rəvan (yəni hökmü asanlıqla yeriyən), eyş-işrət evim daim qurulu idi.

**Daməni-iqbalimə gərdi-təərrüz etməyib,**
**Çeşmi-hasid çöhreyi-cəmiyyətindən dur idi.**

Bəxt libasımın ətəklərinə toz qonmamışdı, paxıl gözlər, mənim cəmiyyətimin çöhrəsindən uzaq idi.

Bir cəhəti qeyd edək. Kitabı çap edən tərtibçilər beytdə səhvə yol vermişlər: misrada «gərdi-təərrüz» izafət tərkibi şəklində verildiyindən hərəkətin kim tərəfindən edildiyi aydın deyil; tale libasının ətəklərinə nəyin qonduğu bilinmir. Əslində «gərdi-təərrüz» yox, gərd təərrüz etməyib – kimi verilməli idi, yəni toz qonmamışdı və ya toza məruz qalmamışdı kimi qəbul edilməlidir.

**Adəm idim, qürbi-dərgahında bolmuşdum qəbul,**
**Mənzilim cənnət, meyim kövsər, ənisim hur idi.**

Bizcə şərhə ehtiyac yoxdur.

**Bəxt mətlubim müyəssər qılmağa məhkum olub,**
**Dəhr əsbabım mühəyya qılmağa mə'mur idi.**

Bəxtim istəklərimi müyəssər etməyə məhkum olmuş, zaman, dövran əldə etmək istədiklərimi dərhal hazır qılmağa amadə durmuşdu.

**Hər dua qılsam təvəqqüfsüz olurdu müstəcəb,**
**Hər təmənna eyləsəm ehmalsız məqdur idi.**

Nə dua etsəydim, dərhal müstəcab olurdu. Nə təmənna eyləsəydim o anda həyata keçirdi.

**Hicr vəhmindən yetirməzdim kədurət könlümə,**
**Gərçi dövranın müxalif gəzməyi məşhur idi.**

Hicrandan qorxub könlümə qəm-qüssəni yaxın düşməyə qoymazdım, baxmayaraq ki, dövranın insana zidd dolanmağı hamıya məlumdur.

**Nola gər salsa Füzulini qəmi-hicranə çərx,**
**Vəsl əyyamında ol qafil ikən məğrur idi.**

Füzulini fələk hicran qəminə salsa da nə olsun, vüsal zamanı o qafil olsa da, məğrur idi (yəni hicrandan çəkdiyi əzabları bildirməzdi).

**Dedilər bixəbərlər baği-cənnət kuyinə bənzər**
**Xəbər verdi mənə andan gələn adəm, yalandır bu.**

Tərtibçilər yenə beytdə hərf səhvinə yol verməklə mənanı tutqunlaşdırıblar: misrada «adəm» sözünün baş hərfi böyük hərflə yazılmalıdır. Ona görə ki, cənnəti görüb yer üzünə qayıdan Adəm peyğəmbərdir. Bixəbərlərin- yəni cənnəti görməyənlərin cənnəti Allahın kuyinə bənzətmələrinə Həzrəti Adəm



kəskin yox deyir, bunun yalan olduğunu, Allahın kuyinin cənnətdən də yüksək olduğunu bəyan edir.

**Dərgəhində toz da görmək istəməz könlüm mənim,**
**İstər ol Adəm olub, gər bağı-rizvandan çıxa.**

Aşiqin könlü öz İlahi Sevgilisinə elə qısqancdır ki, hətta o Adəmin özü olub cənnətdən qovulsa da Sevgilisinin dərgahında bir zərrə toz da görmək istəməz.

**Torpaq olubdu bir mələkin asitaninə,**
**Ümmid edir ki, ta ola Adəm bu könlümüz.**

Aşiqin könlü bir mələyin kandarının torpağına çevrildi ki, bəlkə bu torpaqdan könlümüz Adəm oldu.

**Hər zəban bir tiğdir guya Züleyxa qətlinə,**
**Yusifi almaqda əhli-eşq bazar eyləkəc.**

Şair «Yusif və Züleyxa» dastanındakı bir məqama işarə edir. Yusif qul imiş. Misir bazarında satılarkən onun gözəlliyinə bütün bazar əhli heyran olur. Az keçməmiş onun gözəlliyinin şöhrəti bütün ölkəyə yayılır. Hamı var-dövlətini verib Yusifi almaq istəyir. Onun gözəlliyinin sorağı Misir sultanı Əzizin arvadı Züleyxanın qulağına çatır və o maraqlanaraq Yusifi görmək üçün bazara gəlir. O Yusifi görəndə onun gözəlliyinə dəli olmaq dərəcəsində aşiq olur, bazarda «Yusif» deyən dillərin səsi onun eşqini qatı bir qısqanclıq alovuna bürüyür. Sanki onun adını çəkib onu almaq istəyənlərin dilləri bir xəncər olub Züleyxanı qətlə yetirmək məramında idilər. Artıq bu adamlar bazar adamları yox, eşq əhli idilər, onların hər biri Yusifin vüsalına yetişmək həsrətində çırpınırdılar.

**Əhli-tərkin quluyuz, oldur bizə candan əziz,**
**Yusif isə xudfüruş, onunla yox bazarımız.**

Şair dünyanı tərk edib atanları özünə candan da əziz bilir, özünü onların qulu hesab edir. Yusifi isə özünü satmaqda təqsirləndirir, onunla bazarlıq etməyi yaxına buraxmır. Belə ki, Yusifi satın almaqla Züleyxa onu saraya gətirir, onu izzət və şöhrət mərtəbəsinə qaldırır. Nəhayətdə Yusif Züleyxaya qərin olmaqla Misirin sultanı olur. Bu isə Füzuliyə Yusifi dünyapərəst, dünyaya aşiq olmaqda ittiham etmək üçün əsas verir.

**Şahsən mülki məlahətdə, sənə qullar çox,**
**Biri oldur ki, varıb Misirdə Sultan olmuş.**

Şair bu beyti Məhəmməd peyğəmbərə həsr etmişdir. Füzuli belə hesab edir ki, bütün peyğəmbərlər məlahət mülkü, Məhəmməd (ə.s.) isə onun şahıdır və bu mülkün sakinləri sənin qullarındır. Onlardan biri Yusifdir ki, gedib Misirdə sultan olmuşdur.

**Məqsədim mə'nada Yusifdən mənim surət deyil,**
**Mən nə Yə'qubəm ki, versin zövq pirahən mana.**

Bu beyt «Yusif və Züleyxa» dastanına nəzərən deyilsə də şair məna aləminin cismani görüntüdən üstün olduğunu nəzərə çarpdırmaq istəyir və Yusif və atası Yəqubun simasında bunu inandırıcı şəkildə sübut edir.

Qardaşları paxıllıqdan Yusifi quyuya salıb atalarına deyirlər ki, guya Yusifi yırtıcılar parçalayıb və sübut üçün Yusifin yalançı qanlı köynəyini Yəqub peyğəmbərə verirlər. Peyğəmbər də Yusifin həsrət alovunu onun köynəyini hər gün qoxulamaqla söndürür. Şair buna batin şüşəsindən baxaraq göstərir ki, mənim Yusifi sevməyimin səbəbi onun zahiri gözəlliyi deyil, daxili, mənəvi gözəlliyidir, mən məgər Yəqubam ki, Yusifin əvəzinə onun köynəyindən təskinlik tapım. Görürük ki, Yəqubun Yusif sevgisi zahirilikdən dərinə getmir. Əgər onda oğul eşqi Yusifin daxili gözəlliyi ilə əlaqələnsəydi o vaxt Yaquba heç nə, hətta Yusifin qanlı köynəyi də təskinlik verə bilməzdi.

**Gözəllikdə sənə Yusif bərabərlik edə bilməz,**
**Başı ərşə dəyər, olsa qulamın gər məhi-Kən'an.**

Beytin mənası aydındır, burada təkcə «məhi-Kən'an» ifadəsini aydınlaşdırmaq qalır. Burada əvvəlcə «Kən'an» sözünün izahını bilmək lazımdır. Bu sözdən iki mə'na alınır, birincisi odur ki, Yusifi çox zaman Yusifi-Kən'an çağırırlar, çünki o Kən'an şəhərində anadan olmuşdur, yəni Kən'anlı Yusif. O ki, qaldı «Məhi-Kən'an» ifadəsinə, onu «Kən'an şəhərinin ayı» kimi mənalandırmaq yerinə düşür. Bu misra başqa cür də izah edilə bilər və bunun da iki variantı var, birincisi, Kənan sözünün əvvəlindəki «Kən» kəlməsi eynilə «Kan» kəlməsinin özüdür və quyu, mə'dən, həm də xəzinənin olduğu yer anlamını verir. Sözün sonunda gələn «an» sonluğu farsca cəm şəkilçisini ifadə etdiyi üçün Kən'an sözü tərcümədə «xəzinələr» mə'nasına uyğun gəlir. İkincisi, həmin «an» sonluğu fars dilində həm də gözəllik, məlahət mənasını daşıyır. Deməli, Kən'an «gözəllik xəzinəsi» kimi anlaşılmalıdır. Kən'an sözünün lüğəti mənası məhz bu cür izahatla qəbul edilməlidir. Təbiidir ki, bu söz Yusifə son dərəcə gözəl olduğuna görə bir ləğəb kimi verilmişdir. Məh və ya mah, yəni ay Yusifin gözəlliyinin ifadəçisi kimi işlənilir. «Mahı-Kən'an», yəni gözəllik xəzinəsinin ayı, yəni Yusif. Şair də öz sevgilisi ilə müqayisədə Yusifin onunla bərabər ola bilməyəcəyi qənaətindədir və təsdiq edir ki, o, məhi-Kən'an – Yusif sənin qulamın olsaydı, onda onun başı göylərə dəyərdi. Aydın məsələdir ki, beyt Məhəmməd peyğəmbər (ə.s.)-ın vəsfi xüsusunda deyilmişdir.

**Parələnmiş bəs nədən gül daməni Yusif kimi,**
**Min cəfalar gər Züleyxadan ona hər an deyil.**

Misir padşahının arvadı Züleyxa Yusiflə yaxın olmaq istəmiş və Yusif də pakdamənlik nümayiş etdirərək onu rədd edib getmək istərkən qeyzlənmiş Züleyxa əl atıb onun ətəyini cırmışdı. Adamlar xəbər tutduqda Züleyxa Yusifin ona təcavüz etmək cəhdi ilə əlaqədar özünü müdafiə etmək üçün Yusifin ətəyini cırdığını bildirir və gözdən pərdə asmaq üçün onu zindana saldırır. Şair də öz aşiqinin düşdüyü vəziyyətin həmin hadisəyə müqabil gəldiyini tərənnüm edir.

**Mərd o kəsdir etməsin rəncidə yarın könlünü,**
**Yusifi istər Züleyxa piri-Kən'an tək məgər?**

Füzuli belə beytlərilə oxucusunu sanki bilik imtahanına çəkir: mərd o insandır ki, yarının könlünü sındırmır. Məgər Yusifi Züleyxa piri-Kən'an kimi sevə bilərmi? Aç bu müəmmanı görək necə açırsan. Ancaq bir təşəbbüs etsək pis olmaz.

Əvvəlki beytlərin birində biz məhi-Kən'an ifadəsi üzərində baş sındırdıq. Şair indi də bizi piri-Kən'an müəmmasına giriftar etmişdir. Özü də bu piri-Kən'an Yusifi Züleyxadan çox sevir. Züleyxanın Yusifə olan odsaçan məhəbbəti, sən demə Yusifə layiq səviyyədə deyil, aşağıdır. Piri-Kən'an gözəllik xəzinəsinin piri, yəni qocaman, kamil insan, bütün kamalat mərtə-

bələrini keçib həqiqətə yetişmiş adam deməkdir. Belə adam bütün gözəlliklərə bələd olan və onlara layiqi olduğu qiyməti verən adamdır, yəni gözəllik sərrafıdır. Ona görə də Yusifi layiq olduğu eşqlə yalnız o sevə bilər. Züleyxa isə bunu edə bilmir, çünki o Yusifin daxili gözəlliklərindən çox onun zahiri gözəlliyinə məftundur, ona görə də Züleyxanın eşqi qüsurlu və aşağı keyfiyyətlidir. Bunu Yusif də bilir, lakin alicənablıq edərək yarının üzünə vurub onu özündən incik salmır.

**Qeyrdən çək gözünnü, yar, ki, Yusif kimi mən**
**Gülümü qoxlaya əğyar bir an istəmərəm.**

Züleyxa Misir sultanı Əzizin arvadı olduğu halda qeyrisinə, yəni Yusifə göz dikmişdi. Füzuli aşiqi də bunu qəbul edə bilmir ki, mən Yusif təbiətliyəm, gülümü əğyarın qoxulamasına razı ola bilmərəm. Bir məqama burada diqqət yetirmək lazımdır: sevməyə qalanda Yusif də Züleyxaya ürəyində aşiq idi. Lakin onun əri olduğuna görə Züleyxanı sevgili kimi qəbul etmir, çünki onun əri ona sahibdir. Yusif üçün Züleyxa əgər güldürsə, əri bu gülü qoxulayan əğyardır. Belə aşiq-məşuq münasibətləri isə Füzuli aşiqi üçün qəbuledilməzdir.

**Fəraqında o yarın olmadım bir təkcə mən məhzun,**
**Bu cür beytülhəzəndə çoxlu Yə'qub növhəgər qalmış.**

Bu Allah təbarəkə təalanın haqqında Füzulinin işlətdiyi ən yaxşı beytlərdəndir: o Yarın ayrılığında gözü ağlar qalan təkcə mən olmadım. Bu beytülhəzəndə çoxlu Yaqublar növhəgər olmuşlar, yəni ağı deyib ağlamışlar.

Tarixdə iki şəxs haqqında «beytülhəzən», «qəm-qüssə evi» ifadəsini işlədirlər. Onlardan birincisi Peyğəmbərin qızı Fatimeyi-Zəhradır. Atasının vəfatından sonra Fatimə özü üçün tikilmiş xüsusi bir evə köçərək gecə-gündüz atası üçün qəm-qüssə çəkib ağlamış və həyatının sonuna kimi orada qalmışdır. Bu barədə yuxarıda danışmışıq. Beytülhəzənin aid olduğu ikinci şəxs Yəqub peyğəmbərdir. Rəvayətə görə Yəqub peyğəmbər oğlu Yusifin yox olması münasibətilə qırx il evdən bayıra çıxmayaraq oğlunun dərdindən gecə-gündüz ağlamışdır. O qədər ağlayıbmış ki, gözlərinin qarası qopub düşübmüş.

Füzuli isə beytülhəzənin üçüncü sahibini kəşf edir; o İlahi eşq aşiqləridir. O inandırıcı surətdə təsdiq edir ki, İlahi Sevgilinin ayrılığı, hicranı da beytülhəzəndir. Bu beytülhəzəndə İlahi Sevgilinin məftunu olan çoxlu aşiqlər olmuş və növhə, yaxud ağı deyib ağlamışlar. Şairə görə onlar da bir növ oğlu Yusif üçün beytülhəzəndə ağlayıb göz yaşı axıdan Yaqub peyğəmbərlərdir və indi də ağlamaqda davam etməkdədirlər.

**Səbr ilə Yə'qub çatmışdırsa Yusif vəslinə,**
**Qəm yeməz aqil olanlar təlx keçsə ruzigar.**

Şair şəbr etməyi bütün xoşbəxtliklərin birinci səbəbı kimi irəli çəkir. Necə ki, Yəqub səbr etməklə oğlu Yusifin vəslinə yetişir.

**Yusif hüsnündən utandı mənzili çah oldu, çah,**
**Hüsnüdə yoxdur tayın aləmdə, ey ruxsarı mah!**

«Çah» quyu mənası verən sözdür, ancaq əvvəldə «hüsn» sözü işlənildiyinə görə «Çahi-zənəxdan» – zənəxdan quyusu ifadəsindən danışmaq lazım gəlir. Zənəxdan insanın yanaqlarında olan və insana xüsusi füsunkarlıq verən bir cüt batıq nöqtələridir. Şair burada Yusifin gözəllikdə geri qaldığını göstərmək üçün hüsn və çah-quyu sözlərini daha orijinal bir müstəvidə təsvir edir. Lakin şair bunu dəyişərək anlatmaq istəyir: Yusifi quyuya qardaşları atmamışlar, Yusif öz Yaradanının gözəlliyini göründə utandı və bunu gizlətmək üçün quyuya girib gizlənməli oldu.

**Dil zənəxdanın içində tapıb asudəliyi,**
**Quyu da Yusifi-Kən'ana nigəban oldu.**

Aşiqin ürəyi sevgilisinin çənəsində və ya yanağındakı zənəxdanında və ya zənəxdan quyusundadır və burada özünə asudəlik tapır, necə ki, Yusif quyuya düşməklə qardaşlarının düşmənçiliyindən asudəlik əldə edır.

**Qəlbim oldu parə-parə, mən şikayət qılmadım,**
**Olmamış Əyyubdə dərdə təhəmmül mən qədər.**

Aşiq özünü dərdlərə səbr etməkdə Əyyub peyğəmbərdən də yüksək tutur. Deyilənə görə hər bir peyğəmbərin möcüzəsi olduğu kimi Əyyub peyğəmbərin də möcüzəsi bütün dərd və bəlalara qeyri-adi dərəcədə səbr etmək olubmuş. Allah təala bunlarla Əyyub peyğəmbəri sınaqlardan keçirmək niyyəti gü-

dübmüş. Rəvayət edirlər ki, Allah təala növbəti sınaq üçün Əyyub peyğəmbəri dəhşətli bir dərdə – bədənə qurd düşməsi mərəzinə düçar edir. Dərdinə çarə tapılmırmış. Bir çoban ona bədənini günə verməyi tövsiyə edir, çünki gün şüaları həmin qurdları məhv edəcəkmiş. Əyyub peyğəmbər də belə edir və görür ki, bədənindən bir qurd yerə düşür. Əyyub yerdən qurdu götürüb yenidən bədəninin üstünə qoyur və deyir ki, niyə bədənimdən belə tez ayrıldın, axı, Allah mənim bədənimi sənin üçün ruzi yaradıb, nə qədər mümkündür mənim bədənimdən ye, yaşa!

Belə nadir dözmlülük nümunəsindən sonra Allahın hökmü ilə dərhal peyğəmbərin bədəni şəfa tapır.

**İki gözdən rəvan etmiş sirişkim qamətin şövqi,**
**Əsayi-mö'cizi gör kim, iki bölmüş bu dəryayi.**

Sənin qamətinə olan şövq mənim hər iki gözümdən göz yaşlarımı rəvan etmişdir. Bu, bir əsanın möcüzəsidir ki, belə bir dəryanı iki yerə bölmüşdür.

Beytdə Həzrəti Musa (ə.s.) və onun qövmünün başına gələn əhvalata işarə olunur. Rəvayətə görə Həzrəti Musa və ona iman gətirmiş qövmü fir'onun zülmündən qurtarmaq üçün qaçıb Misirdən çıxmaq istəyiblərmiş. Nil çayına (və ya Qırmızı dənizə) çatanda işləri çətinləşir. Bu vaxt Həzrəti Musa əlindəki sehirli əsasını suya vurur və bu vaxt çayın suyu iki yerə yarılır və Musa və onun qövmü yaranmış keçiddən keçərək canlarını qurtarırlar. Onlara çatmaq istəyən Fir'on və onun qoşunları həmin keçiddən keçmək istəyəndə yarılmış sular qovuşur, Fir'onun özü və adamları boğulub həlak olurlar. Şair bu hadisəni eşq mühitinə gətirərək iki gözdən axan göz yaşını yarılmış çayın suyuna, buna səbəb olan gözəlin qamətini də Musanın əsasına bənzədir.

**Navəkin gör kim yarub əşkim, tutar göz pərdəsin,**
**Ey deyən Musa əsası qəti-dərya etmədi.**

Yuxarıdakı beytin bu bir növ başqa şəkildə deyilişidir. Gözəlin atdığı ox aşiqin gözünə sancılaraq onun iki gözdən göz yaşlarını axıtmaqdadır. Bunu Nilin yarılmasına nail olan Musanın əsası ilə tay tutan aşiq bu hadisəyə inanmayanlara ox sancılıb yaş axan gözlərini bir sübut kimi təqdim edir.



**Rəhrəvi-irfanə bəsdir sağərü saqi dəlil**
**Kim, məhü xurşiddən bulmuş təmənnasın Xəlil.**

Xəlil (və ya İbrahim peyğəmbər) üçün ay və günəş İlahinin varlığına necə dəlildirsə, irfan yolçusu üçün sağər və saqi də elə dəlillərdir.

Dərin mə'nalı beytdir. İbrahimxəlil peyğəmbər uşaq olarkən babası Azərə gecə ulduzları göstərərək onların nə olduğunu soruşduqda o «Onlar bizim allahımızdır» deyə cavab vermişdi. İbrahim də «Onlar mənim allahımdır» demişdi. Səhər ulduzlar batanda İbrahim bu inamını itirmiş və batanın Allah ola bilməyəcəyinə yəqinlik etmişdi. İbrahim eynilə ayın və günəşin də çıxıb batmasını belə qiymətləndirmişdi. Son nəhayətdə İbrahim bütün gözə görünən, yaranıb yox olan varlıqların tək, vahid bir Allah tərəfindən idarə olunduğu inamına yetişmişdi. Şair də bir daha bizi inandırmaq istəyir ki, yaradılmış canlı, cansız nə ki məxluqat var, hamısı bir olan Allah tərəfindən idarə olunur və Onun varlığına açıq-aşkar dəlillərdir. Necə ki, batıb çıxan ulduzların, ayın, günəşin simasında İbrahim peyğəmbər buna əmin olmuşdu.

Eləcə də irfan yolunun yolçusu olan arif üçün sağər və saqi İlahi Tanrının rəmzləridir, onlar Allahın varlığından doğan eşq şərabından feyz almaq vasitəsidirlər, İlahi Varlığın sübutu üçün dəlildirlər.

**Qırmızı paltardır ol, yoxsa Xəlilin atəşi**
**Kim, içində bir səfalı güllü cənnət bağı var.**

Aşiq öz sevgilisinin qırmızı donunu İbrahimxəlil peyğəmbərin yandığı tonqaldakı al rəngli alova bənzədir, o alova ki, peyğəmbərə zərər vurmasın deyə, Allahın əmrilə bu alovun dilləri soyuyaraq sərinləşib İbrahim üçün cənnətə bənzər bir gülüstana çevrilir. Yaxud, eynilə başqa bir beytdə belə deyilir:

**Səni görcək ürəyim yanmadı, xəndan oldu,**
**Necə İbrahimə od bağü gülüstan oldu.**

Şair sevgilisini görəndə ürəyini yanmayan, əksinə sevindiyindən gül kimi açılan görərək onu İbrahimə – alovun yandıra bilmədiyi və onun üçün gülüstana çevrildiyi İbrahimxəlil peyğəmbərə nisbət tutur.

**Ol pərivəş kim məlahət mülkünün sultanıdır,**
**Hökm onun hökmüdürür, fərman onun fərmanıdır.**

Bu, Məhəmməd Füzulinin məşhur beytlərindən olub əvvəlcə onun «Hədiqətüssüəda» əsərində «Dərdi-eşqi-yar könlüm mülkünün sultanıdır, Hökm onun hökmüdür, fərman onun fərmanıdır» şəklində qələmə alınmışdır. Sonralar şair həmin beytin birinci misrasında «dərdi-eşqi-yar» ifadəsini «ol pərivəş kim» ifadəsilə əvəz edərək ayrıca bir qəzəl yazmış və onu türk divanına daxil etmişdir.

Beytin mə'nası İbrahim peyğəmbərin öz oğlu İsmayılı Allahın əmri ilə qurban kəsməyə aparması məqamı ilə bağlıdır. Yolda İblis lə'nətüllah onların qarşısına qoca kişi qiyafəsində çıxaraq İbrahimi bu işdən çəkindirmək istəyir və səbəbini soruşanda peyğəmbər yuxarıdakı beytlə onun cavabını verir. Deyilənə görə İbrahim həmin qocanın İblis olduğunu anlayır və yerdən bir daş götürüb ona atır. Daş dəyib İbldisin bir gözünü çıxararaq onu kor edir və bu günə qədər İblis təkgözlü halında qalmaqdadır.

**Süleyman məsnədindən divi-gümrah rəğbətin kəsdin,**
**Dənizdə xatəmi-hökmi-Süleymandan xəbər verdin.**

Süleymanın taxtından yolunu azmış divin rəğbətini kəsdin, dənizdə Süleymanın üzüyünün hökmündən xəbər verdin.

Rəvayətə görə Süleyman peyğəmbər padşah olan zaman sehirli bir üzüyü var imiş. Kim o üzüyü əldə etsəydi, onun səltənətinə sahib ola bilərmiş. Bir gün Sahir adlı bir div bu üzüyü oğurlayaraq Süleymanın səltənətinə yiyələnir. Sonra Allahın köməyi ilə həmin üzük dənizdə bir balığın ağzından çıxarılaraq Süleymana yenidən qaytarılır və o yenə də öz səltənətinə yiyələnərək hökmranlığını davam etdirir. Beyt bütövlükdə Allahın gücü və əzəmətinin vəsfinə həsr edilmişdir.

**Muri-mühəqqərəm ki, sərasimə çox gəzib,**
**Nagah barigahi-Süleymana yetmişəm.**

Rəvayətdə göstərilir ki, Süleyman padşah bütün heyvanların dillərini bilərmiş və heyvanlar və bütün quşlar, həşəratlar ona itaət edərmişlər. Süleymanın əmri ilə lazım olanda bütün canlılar onun sarayına toplaşarmışlar. Şair özünü həqir qarışqaya oxşatmaqla eşqin biyabanlığında heyran-heyran necə gəzdiyindən və qəfildən tapmaq istədiyi Sevgilisinin kuyinə necə rast gəldiyindən söhbət açaraq bu mənzərəni çölləri dolaşan və Süleymanın sarayına qarışqanın necə yetişdiyinə bənzədir.



**Yazə bilməz ləblərin vəsfin təmami-ömrdə,**
**Abi heyvan versə Xizrə kilkü, zülmətdən dəvat.**

Əgər dirilik suyu Xızrın yazan qələmi, zülmət isə onun mürəkkəbi olsa belə sənin dodaqlarının tərifini bir ömür ərzində də şərh edib qurtara bilməz.

Aydındır ki, dirilik suyuna - abi-heyvan deyilən bir suya yetişib ondan içərək əbədi ömür qazanan Xızır (və ya İlyas) peyğəmbər olmuşdur. Haqqında danışılan abi-heyvan şərq mifologiyasına görə zülmət bir aləmdə yerləşibmiş. Beyt Allah təbarəkə təalanın vəsfi xüsusunda deyilmişdir.

**Hər kimin aləmdə miqdarıncadır təb'ində meyl,**
**Mən ləbi-cananımı, Xızr abi-heyvanın sevər.**

Bu dünyada hər adamın eşqi onun xislətinin necəliyi ilə ölçülür. Bunun nəticəsidir ki, mən cananımın dodaqlarını, Xızr isə dirilik suyunu sevir.

Füzuli nadir təşbehlər işlədərək özünü eşqdə Xızr peyğəmbərdən də yüksəkdə tutur. Çünki şair əbədi həyat qazanmaq üçün dirilik suyunu öz cananının dodaqlarında – İlahi Pərvərdigarın ruxsarına yetişməklə tapırsa, Xızır peyğəmbər onu zülmət aləmində əldə etməkdə görür. Şair sübut edir ki, Xızrın eşqi hələ də surət aləmindən öz başlanğıcını götürməkdədir, İlahi eşqlə əlaqəsi yoxdur. Çünki Xızır peyğəmbər abi-heyvan içməklə cismən əbədi yaşamaq eşqindədir, halbuki onun bu «əbədi həyatı» da bir gün sona yetəcək. Heç kəs İlahi pərvərdigar kimi əbədiyyətə sahib ola bilməz. Füzuli aşiqi isə ruhən İlahi zatın dəryasına qovuşmaqla əsil, əbədi bir həyat əldə etmiş olur. aşağıdakı beyt bu dediklərimizi tam təsdiq edir.

**Ey Füzuli, xaki-kuyi-yarə yetdim, qanı Xızr**
**Kim, verəm kamın, olam abi-həyatə rəhnümun.**

Ey Füzuli, mən yarın kuyinin torpağına çatmışam, Xızırı görmürəm ki, onu istəyinə çatdıram və abi-həyata yol göstərən olam.

Füzuli aşiqi xaki-kuyi-yarə yetib, onun dodaqlarından abi-həyat içib əbədi ömür qazanıb. O indi Xızırı tapa bilmir ki, onu arzusuna çatdırsın, yəni o da onun kimi əbədi həyat suyundan içsin və beləliklə aşiq abi-həyata yol göstərən olsun. Şair demək istəyir ki, Xızırın zülmət aləmdə içdiyi abi-həyat əsil əbədi həyat suyu deyil, əsil əbədi həyat suyu cananın vəslinə yetişməklə əldə edilə bilər.

**Dedin, ey Xizr, bənzər yar lə'li abi-heyvanə,**
**Bu tə'zim ilə torpaqdan götürdün abi-heyvani.**

Ey Xızır, sən yarın lə'l dodaqlarını abi-heyvanə bənzətməklə böyük ehtiram göstərib abi-heyvanı yerdən götürdün, yəni onun yerdə – zülmət dünyasında yox, yarın dodaqlarında – sonsuz nurlar aləmində olduğunu göstərdin.

**Can verir lə'lin təmənnasında min abi-həyat,**
**Feyzinə ləbtəşnə min Xizrü Məsihadır sənin.**

Bu şairin Allah təbarəkə təala haqqında ən nadir beytlərindəndir. Sənin lə'l dodaqlarının təmənnasında min-min əbədi ömür bəxş edən abi-həyat hazır-amadə durmuşlar. Min-min Xızır və Məsihlər susuzluqdan cadar-cadar olmuş təşnə dodaqları ilə səndən feyz almaq həsrətindədirlər. Bizcə çox da dərin şərhə ehtiyac yoxdur.

**Aşiqə şövqinlə can vermək ikən müşkül deyil,**
**Çün Məsihi-vəqtsən, can vermək asandır sana.**

Aşiqə istədiyin anda can vermək sənə çox da çətin deyil, çünki sən vaxtın Məsihisən, can vermək sənin üçün asandır.

Bu beyt Allah təbarəkə-təalanın vəsfi xüsusunda deyilmişdir. Yəni şair demək istəyir ki, sən Adəm peyğəmbəri xəlq edəndə torpağa can üfürdün və bəşəriyyətin atası vücuda gəldi. Sonrakı insanları artırmaq üçün beldəki kişilik maddəsini və ondakı nütfəni yaratdın. İnsan nütfə halında olarkən ölü və cansız idi. Ona can üfürdün, ondan insan doğuldu və dünyaya gəldi. Onlar da növbə ilə ölüb axirətə köçürlər. Qiyamət günü başlananda yenidən ölü cəsədlərə can verəcəksən ki, dirilib məşhərə əməlləri üçün haqqa-hesab çəkilməyə toplaşsınlar. Ölülərə can vermək vaxtını və ya məqamını bilən yalnız Allahdır. Bütün hallarda ölüyə can vermək anının yetişməsi Allahın rəyi ilə



müəyyən edilir və bu Allah üçün çox asandır. Şair Allaha obrazlı dildə Məsih deyə müraciət edir. Çünki İsa peyğəmbər də torpaqdan düzəltdiyi fiqurlara can verib dirildərmiş, əlbəttə, o da Allahın hökmü ilə.

**Can bağışlardı ləbin izhari -göftar eyləyib,**
**Vurmadan İsa ləbi canbəxşlikdən dəm hənuz.**

Bilirik ki, Həzrəti İsa torpaqdan düzəltdiyi quş fiqurlarına nəfəsini üfürməklə onlara can verib dirildərmiş. Ancaq şairin sözündən aydın olur ki, İsanın bü möcüzəsindən də əvvəl Allah təbarəkə təala bütün külli-məxluqatı «ol!» («kon») deməklə bir anda vücuda gətirib ona can vermişdir.

**Məgər tərkibi-İsa xaki-kuyi-dərgəhindəndir**
**Ki, durmuş qədr ilə xakidən əzmi-asiman etmiş.**

Məgər İsanın cisminin tərkibi sənin dərgahının torpağındadırmı ki, qədrin və şöhrətin müşaiyətilə bu torpaqdan durub asimana üz tutmuşdur.

Məlumdur ki, Allah təala İsa peyğəmbəri qatillərin əlindən alaraq onu öz yanına qaldırmış və bununla da İsanın nə qədər şərəfli olduğunu hamıya göstərmişdir. Bizə çatan mənbələrdə bu hadisə İsa peyğəmbərin me'racı adlanır. Şair Füzuli bu mənzərəni bir az da şərəfləndirərək qeyd edir ki, yəqin İsanın bədəni sənin dərgahının torpağından yoğrulmağındandır ki, o yerin torpağını bəyənməyərək asimana qalxmış, sənin dərgahının torpağına yetişməyə əzm etmişdir.

**Təəllüq zülmətin təcrid xurşidinə qıl mətlə,**
**Əgər aləmdə bir gün görmək istərsən Məsiha tək.**

Əgər sən aləmdə Məsih (yən İsa) kimi bir gün görmək istəyirsənsə təəllüq zülmətini təcrid günəşinin doğması üçün bir bünövrə hesab et.

Beytin geniş izahatı belə alınır ki, dünyaya bağlılıq, ondan asılılıq kimi bir zülmət aləmdə yaşadıqca sən təcrid adlı nurlu bir günəşin səltənətini özünə məskən seç, əgər İsa kimi Allahın dərgahına yüksəlib gözəl bir günə sahib olmaq istəyirsənsə!

Belə ki, İsa peyğəmbər bu zülmət aləmdə hər şeydən özünü təcrid edib elə abid bir zahid həyatı sürmüşdü ki, Allah

mükafat olaraq ölüm ayağında onu xilas edib yanına çəkmiş və bununla da ona gözəl bir gün bəxş etmişdi.

**Nola dersəm qədr ilə əfzun Məsihadən səni,**
**Yerü göy mizan olub fərq olmuş ağırdan yüngül.**

Mən sənin qədrini yüksək tutub Məsihadan – İsadan da əvvəl bilsəm, təəccüblü olmaz, çünki ağıl gözü ilə yerə və göyə baxsan bilərsən ki, ağırla yüngülün fərqi göz qabağındadır. Şairin təbirincə göy yüngüldür və bu səbəbdən çəkisi yoxdur, yer isə ağırdır, çəkisi hesaba gələn deyil. Şair də mədh etdiyi şəxsi ağırlıqda yerə bənzədərək bu misalla ona ehtiram edir, onu çəkisi olmayan yüngül göydən üstün tutur.

**Hər dəmindən min Məsiha zindeyi-cavid olur,**
**Sən edən izhari -ə'cazi Məsiha etmədi.**

Sənin hər nəfəsindən min-min Məsih əbədi həyat qazanır, bu elə bir möcüzədir ki, onu Məsih edə bilməmişdir.

Çox gözəl beytdir və burada Allah təalanın həyat vermək kimi qüdrətli keyfiyyəti vəsf edilir. Və özü də necə keyfiyyət! Demişik ki, İsa (ə.s.) torpaqdan düzəltdiyi fiqurlara öz nəfəsi ilə can verib onları dirildərmiş və o da Allahın rüsxəti ilə vücuda gələrmiş. Lakin Allah təala həm insanın cisminə can, həyat verirdi, həm də məqam yetişəndə onu öldürüb nəfəsi ilə yenidən ona əbədi ruhi və ya mənəvi bir həyat bəxş edə bilir bu ikincisini isə Məsiha etməmişdir və edə də bilməzdi.

**Çox yetirmə göylərə əfğanim ey kafir, saqın.**
**İncinir nagəh Məsiha eşidib əfğanimi.**

Ey kafir, mənim ahü-əfğanimi göylərə qaldırma, birdən Məsih bunu eşidib inciyə bilər (Rəvayət olunur ki, Məsihin göyə meracı dördüncü fələyə qədər olub və orada da məskən salıb qalmaqdadır). Eynilə başqa bir beytdə şair bunu olduğu kimi yenidən təkrar edir: «Yetirdi ahimi gərdunə ol büt, gör nə kafirdir, deməz kim, göydə nagəh incidə naləm Məsihayı». Artıq şərhə ehtiyac yoxdur.

**Günəş salar yerə kölgən kimi Məsihanı,**
**Onu vəcahəti-ruyinlə aşina eləmə.**

Bir halda ki, günəş sənin əziz tutub öz dərgahına çəkdiyin Məsihanı qədrin bilməyərək (Həzrəti İsanı) kölgə kimi yerə vurur,



onu (günəşi) öz gözəl camalına müqabil durmaq şərəfinə nəsib etmə (Beyt Allah təbarəkə təalaya nəzərən deyilmişdir).

**Qönçə bağında Məsiha bəsləyən Məryəmdi, kim**
**Ruh saçan ətri onun əskik Məsihadan deyil.**

Şair Məryəmin simasında qadın və ya ana gözəlliyinin möhtəşəmliyini nümayiş etdirmək, peyğəmbərləri də yetişdirənin ana olduğuna görə qadının kişidən əskik olmadığını aşkar etmək üçün Məryəm ananı qönçəyə, Məsihi – yəni İsanı da bu qönçə içində bəslənən qızıl gül ləçəklərinə bərabər tutur. Şair incəlikdən incəliyə varıb, Məsihanın ətrini qızıl gülün ətri ilə eyni tutub onu zahiri bir keyfiyyət kimi təqdim edir. Məryəm ananın ətrini isə batini səviyyəyədək yüksəltməklə ruhun ətri ilə müqayisə edir.

**Gül yanağın həsədi bağladı bütxanələri,**
**Ahımın atəşi min lərzə Məsihayə salıb.**

Gül yanağın paxıllığı bütləri zəlil edib bütxanaları boş qoydu və sənin o gül yanağının şövqü mənim ahımın atəşini asimanlara yüksəldib Məsihanı minlərlə lərzəyə düçar etdi. Bu beyt də ya Allah təbarəkə təala, ya da Məhəmməd əleyhissəlam mədh olunmaqla bərabər islam dininin meydana çıxması nəticəsində bütpərəstliyin ləğv edilməsi oxucuya çatdırılır.

**Sanma dirlik suyun, İsa nəfəsin çox da hünər,**
**Kim tökür göz yaşı dünyada odur canlı bəşər.**

Dirilik suyu içib əbədi ömür qazanmağı (Xızr peyğəmbər bu suyu içib belə bir ömür əldə etmişdir), İsanın nəfəsini çox da hünər hesab etmək lazım deyil (İsa peyğəmbər öz nəfəsi ilə ölüləri dirildərmiş). Şairin təbirincə bu möcüzələrə yiyələnməkdə heç bir canlılıq yoxdur. Canlı bəşər odur ki, bu dünyada göz yaşı töküb bütün bəlalara səbr edir.

**Sənin əksin deyil ayinədə, ey nazlı sənəm,**
**Bəlkə bətnində Məsihasını bəslər Məryəm.**

Şair öz qəlb ayinəsini nəzərdə tutaraq orada İlahi ruxsarın təcəlla etməsi məqamını bizə göstərir.

Birinci misrada Allah təbarəkə təalanın maddı şəkildə heç bir şeydə əks oluna bilməyəcəyini şair yadımıza salsa da, ruhən və ya mənən bütün ürəklərdə – qəlb ayinələrində Allah

təalanın mübarək ruxsarının əks olunmasını açıq-aşkar mümkün olduğunu söyləyir. Bu da öz timsalını onda tapır ki, şair öz qəlb ayinəsini Məryəm anaya, onda əks olunan İlahi ruxsarı isə Məryəmin bətnindəki Məsihanın (İsanın) ruhi obrazı kimi təqim edir.

**Olarsa feyzi-Məsiha həvası başında,**
**Həyatbəxş hədisi o güldəhəndən eşit.**

Məsihanın və ya İsanın qüdrətindən doğan feyzin nə demək olduğunu bilmək istəyi başında varsa, həyat bəxş etmək hədisini o gül ağızlıdan eşidə bilərsən. Şair demək istəyir ki, əgər İsa nəfəsi ilə ölünü dirildirsə, bu zahirən belədir, əslində İsa bu qüdrəti Səndən almışdır, ölüləri diriIdən də Sənsən, onlara həyat verən də sənsən!

**Böyüksən, şöhrətin vəsf etməyə bir ölçümüz yoxdur,**
**Yetişməz rütbənə dördüncü göydə İsiyi-Məryəm.**

Beyt Məhəmməd peyğəmbərin şərəfi-cəmalı xüsusunda deyilmişdir. Onun şərəfinin ucalınağını ölçmək üçün heç bir ölçü yoxdur. Belə ki, dördüncü fələkdə qərar tutan Məryəm oğlu İsa da sənin rütbənə yetişə bilmədi.

İsanı qatillərin əlindən qurtarıb öz yanına qaldıran Uca Tanrı onun meracını dördüncü fələkdə saxladı və daha da yuxarıya ucalmasına icazə vermədi, çünki yaxasından dünyaya bağlılıq rəmzi olan iynə tapılmışdı. Lakin Məhəmməd peyğəmbərin me'racı, yəni Allahın yanına ucalması me'racların ən alisidir ki, İsa peyğəmbər də bu rütbəyə yetişə bilmədi.

Füzulinin qəzəllərindən fərqli olaraq haqqında bəhs olunan peyğəmbərlər və digər din müqəddəsləri onun qəsidələrində də əhəmiyyətli yer tuturlar. Qəsidələrdəki deyiliş tərzi, təşbehlər, fikiri ifadələr tərənnüm olunan obyektə şairin münasibəti daha orijinal və çevikdir. Nə qəsidələrdə, nə də qəsidələrlə qəzəlləri müqayisə edəndə heç bir maraqsız təkrarlara yol verildiyini görmürük. Fikir və düşüncənin istiqaməti bənzərsizlik və təkrarsızlıq yolu ilə, yeni-yeni oxşayış və lirik kəşflər axtarışı səyləri ilə müşaiyət edilir.

**Hesabi-rizqini qılmış təmamiyi-bəşərin,**
**Hənuz Adəmə peyvənd qılmadan Həvva.**



Hələ Həvvanı Adəmə müncər etməmişdən əvvəl, yəni nütfə yolu ilə insanlar yaranmazdan qabaq Allah-təala bütün bəşəriyyətin ruzisini ən dəqiq hesabı ilə hazırlayıb zahir etmişdir.

**Kövsəri-cənnət onun hökmündədir ol vəch ilə,**
**Cümlə nəslindən həmin Adəm ona mehman olur.**

Bizə çatmış islam hədislərindən aydın olur ki, Həzrəti Əli cənnətdəki Kövsər bulağının kənarında durub bütün cənnətə təşrif buyuranları, o cümlədən Həzrəti Adəmi həmin bulağın suyuna qonaq edəcəkdir.

**Fəth qıldın ol yeri kim, dövri-Adəmdən bəri**
**Qılmamışdı sahibindən qeyrə hərgiz intiqal.**

Beyt Əyas paşaya gördyü böyük işlər münasibətilə ithaf edilir. Sən elə yerləri fəth etdin ki, Adəmdən bu zamana kimi onlar başqa heç kəsin əlinə keçməmişdi.

**Gəldi ol İsa kim, ondandır həyati-əhli-hal,**
**Yoxdur onsuz xəlq cismində həyatə ehtimal.**

Şair Əyas paşanı gözəl əməllərin müqabilində onu ruhsuz bədənlərə can bəxş edən İsa ilə bərabər tutur.

**Dəmi-can bəxşini guya yelə vermiş İsa**
**Ki, bulur can təni-əşcar dəmindən hər dəm.**

İsa elə bil can bəxş edən nəfəsini havaya buraxdığındandır ki, ağaclar hər dəm onun dəmindən (yəni nəfəsindən) can əldə edirlər.

**Ey xoş ol məqbərə kim, bulmağa əmvati həyat,**
**Onu tövfiq güzərgahi-Məsiha eylər.**

Məqbərə dedikdə şair ya Həzrəti Əlinin, ya da Həzrəti Hüseynin məqbərəsini nəzərdə tutur. Yəni xoş olsun o məqbərəyə ki, Yaradan ölülərin can əldə etməsində onu Məsihə-İsaya, oraya gələnlərin yolunu Məsihanın yoluna çevirmişdir.

**Gəlməz İsanın əlindən gördüyün hikmətli iş,**
**Hikmətinin qarşısında neyləyər tək bir dua.**

Şair bu beyti öz dövrünün ensiklopedik alimi Rüknəddinə həsr edərək onun çoxsaylı hikmətli işlərini öymüş, bu səbəbdən onu İsadan (ə.s.) üstün tutmuşdur. Şair dəlilini onunla əsaslandırır ki, Həzrəti İsa bircə dua etməklə istədiyinə nail olurdu.

Burada Həzrəti İsanın istədiyi hadisə Allahın rüsxətilə vücuda gəlirdi. Lakin hikmətli işin vücuda gəlməsi üçün dua kifayət etmir, bunun üçün insanın dərin elmi biliklərə sahib olması həlledici şərtdir. Çünki hikmətli işlər duadan çox elmi nailiyyətlərə əsaslanır.

**Çıxarsa qarşına hər şey onu iynə kimi deş, keç**
**Ki, iynə saxlamış yoldan göyə qalxan Məsihani.**

Səni dünya həyatına bağlaya biləcək nə qarşına çıxsa onu iynə kimi deş keç, bil ki, göyə yol alan Məsihanı iynə yoldan saxlamış oldu. Yuxarıda dönə-dönə dediyimiz kimi Allah təala İsanı göyə öz yanına çəkən zaman dördüncü fələkdə onun üst-başını yoxladılar, yaxasından bir iynə tapıldı. Nəticədə iynəni dünyaya bağlılıq rəmzi hesab edən Allah İsaya dördüncü fələkdə qalmağı əmr etdi.

Beytin ikinci mısrasında iynə əgər dünya həyatına bağlılıq rəmzi kimi baxılırsa, birinci misrada tərkdünyalıq, pakdamənlik timsalı kimi göz önünə gətirilir.

**Məqsədim mə'nada Yusifdən mənim surət deyil,**
**Mən nə Yəqubəm ki, versün zövq pirahən mana.**

Füzuli misli-bərabəri olmayan bir fikir çiçəyi təqdim edir. Şair daim məna aləminin sorağında olduğunu, surət məqamı ilə kifayətlənmədiyini bizə çatdırır. Şaitr «Yusif» deməklə onun zahirən gözəl olmasını deyil, daxili paklığını, saflığını ön plana çəkir, Yusif gözəlliyinin mənasını onun daxili xislətində, batini eyibsizliyində görür. Şair bu işdə Yusifin atası Yəqub peyğəmbəri nə bəyənir, nə də onun yerində olmaq istəyir. Qardaşları tərəfindən guya həlak olmuş Yusifin qanlı köynəyinin Yəquba təqdim edilməsi və Yəqubun da hər gün bu köynəyi iyləməklə oğlunun ətrini ala-ala yaşaması ona surətpərəst adam səciyyəsi verir, əgər Yəqub mə'na aləmini soraqlayan olsaydı, onda köynək də onun dadına çatmayaydı, yusifsizliyin əzablarına dözməyib gərək öləydi. Hələ heç demirik ki, Yəqub peyğəmbər olduğu üçün köynəyin Yusifin əsil köynəyi olmadığını gərək biləydi.

**Bahar taciri Misri-çəmən ğənilərinə,**
**Buraqdı Yusifi-gül ərz eləyib qovğa.**



Bahar taciri Misir-çəməninin dövlətlilərinə Yusif gülünü buraxmaqla qovğa qaldırmağı ərz etdi.

Görün Füzuli qələminin e'cazı sayəsində adi bahar əyyamı Misir bazarında Yusifin satılmasına nisbət tutulmaq əsasında necə füsunkar bir şəkildə təsvir edilir.

Şair Misri-çəmən dedikdə Misirdə qul bazarını, ğənilər-dövlətlilər dedikdə çəmənlikdəki cürbəcür gülləri göz önünə gətirir. Bahar fəsli Yusifi satan tacirə, çəmənliyə buraxılan ən gözəl gül isə Yusifə nisbət tutulur.

Qul satan tacir Misir bazarında Yusifin hüsnünü göstərməklə bazardakı pullu-varlı adamlar arasına qovğa salır və onları Yusifi satın almağa təhrik edir. Eləcə də bahar fəsli bir-birindən gözəl güllərlə zəngin olan çəmənliyə misli-bərabəri olmayan bir gül daxil etməklə gözəlliklərlə zəngin olan güllər, yəni ğənilər arasına paxıllıq qovğası salmış olur.

**Möhnətə səbr eyləyən rahət tapar, çün Yusifə,**
**Səltənət təxtinin əvvəl payəsi zindan olur.**

Kim möhnətə səbr etsə axırda rahatlıq tapacaq, necə ki, Yusif uzun zaman zindana düşüb əzablara dözdü, nəticədə Misirin sultanı olmaq kimi bir pilləyə qalxmaqla rahatlıq tapmış oldu.

**Həbsdən Yusif çıxıb sultani-Misr olmuş kimi,**
**Oldu, açıb qönçəsin arayişi-gülzar gül.**

Şair gülün öz qönçəsini açıb özünə ziynət verməklə bəzənməsini Yusifin həbsdən çıxıb Misir sultanı olmasına oxşar tutur.

**San Züleyxa xəlvətidir ğönçeyi-dərbəstə kim,**
**Çıxdı ondan daməni-çakilə Yusifvar gül.**

Şair göstərir ki, hər tərəfi bağlı olan yaşıl qönçə Züleyxanın xəlvəti məkanı, onun içindəki gül isə bu xəlvəti məkana salınmış bir Yusifdır. Məqam yetişəndə qönçənin içərisindən gülün çıxması Züleyxanın yanından Yusifin ətəyinin cırılmış halda çıxması əhvalatını özündə nümayiş etdirir.

Dastandan məlum olduğu kimi Züleyxa Yusifi xəlvət otağa çəkib ona yaxınlıq etmək istəmişdi, lakin Yusif pakdamənlik nümayiş etdirərək qaçmağa cəhd etmişdi. Züleyxa Yusi-

fin arxadan ətəyindən tutub saxlamağa çalışmış, ancaq ətəyi cırılmışdı və Yusif bu vəziyyətdə də qaçıb aradan çıxmışdı.

**Çəmən bəzminə rövnəq verməyə gül ğönçədən çıxdı,**
**Müzəyyən qılmaq üçün Misri Yusif çıxdı zindandan.**

Şair bizə başa salır ki, yaşıl çəmənlikdə gülün qönçədən çıxması çəmənə ziynət verməkdən ötrü idi, necə ki, Misiri zinətləndirmək üçün Yusif zindandan çıxıb Misirin sultanı olur.

**Nola çeşmi-tər ilə çıxsa həbsi-xakdən Nərgis,**
**Nola gər çıxsa Yə'qubi-bəlakəş Beytül-əhzandan.**

Nərgiz gülünün torpağın həbsindən azad olub təravətli gözlərilə baş qaldıraraq çıxsa, təəccüblü deyil. Necə ki, başı bəlalı, gözü yaşlı Yaqubun Beytül-həzandan azad olması təəccüblü olmayıb (Oğlu Yusifin dərdindən qırx il bayıra çıxmadan Yaqub peyğəmbərin ağladığı ev Beytüləhzan – qəm-qüssə evi adlanır).

**Zəmanə əhlinə bel bağlama hüsni-cəmalınla**
**Ki, Yusif hüsnünə qıldı həsəd namərd ixvani.**

Hüsn və cəmalınla fəxr edib zəmanə adamlarına bel bağlama, necə ki, Yusifin qardaşları onun gözəlliyinə paxıllıq edib Yusifi quyuya salmaqla namərdlik yoluna qədəm qoydular.

**O vəfa Misrinə Yusif və səfa əhlinə fəxr,**
**Asəfi-pakgühər, sərvəri-pakizəxisal.**

Şair adını bilmədiyimiz şəxsi öydüyü bu beytdə həmin şəxsı Yusifə bənzədir və nadir bir ustalıqla tərənnüm edir: şair vəfanı Misir səltənəti, Yusifi də bu səltənətin sahibi hesab edir ki, həmin şəxs də bu məqama yetişmişdir. Yusif həm də səfa əhlinin fəxridir. Səfa əhli isə onun atası Yəqub peyğəmbərdir ki, qırx illik üzüntülü ayrılıqdan sonra Yəqub oğluna yetişərək qəlbən səfalanır. Şair həmin mədh etdiyi şəxsin bu mərtəbəyə də sahib olduğunu diqqətimizə çatdırır.

**Gəldi ol Asəf ki, qopdurmuşdu cündi-şövkəti**
**Daməni mülki-Süleymanə qubari-ixtilal.**

Şairin Əyas paşanı vəsf etdiyi beytditr. Əyas paşanı Süleyman peyğəmbərin ağıllı vəziri Asəfə, onun düşmənlərinin məmləkətini isə mülki- Süleymana oxşar tutaraq şair göstərir ki, Əyas paşanın simasında Asəfin gəlişi Süleyman mülkünün ətəklərinə qarışıqlıq tozu səpdi.



**Ondan aldı əzəmət əmri vəzarət, guya**
**Hökm üçün şimdi Süleymanə verildi xatəm.**

Vəzirlik mənsəbi ondan elə əzəmət əldə etdi ki, sanki bu Süleymana hökm etmək üçün üzük verilməsinə bənzəyir. Şair bu beyti də indi Rüstəm paşaya ithaf edir. Görünür ki, bu şəxsiyyət xilfətdə vəzirlik işini əla səviyyədə yerinə yetirirmiş.

**Ki, Süleymani-zəman Asəfi etdi naib,**
**Oldu sərəskəri-Keyxosrovi-dövran Rüstəm.**

Şair bu beytində Rüstəm paşanı yenə də Süleyman peyğəmbərin vəziri Asəfə, ikinci misrada İranın Keyxosrov səltənətinin pəhlivanı Rüstəmə bənzədir. Yəqin ki, Rüstəm paşa ağılda Asəf vəziri, gücdə isə Rüstəmi-Zal pəhlivanı özündə təcəssüm etdirirmiş.

**Kəmalü fəzl-zati Asəf ovsafında xətm olmuş,**
**Götürmüş jəngi-nəqz ayineyi-mülki-Süleymandan.**

Şair bu beytində İbrahim bəyi vəsf edərək onun zatının fəzilət və kəmalının Asəfin vəsfi ilə bərabər olduğunu göstərir, Süleyman mülkünün aynasından pas və çirki pozmuş olduğunu bizə anladır.

**Ünqa tək üzlətin Qafına çəkil,**
**Süleyman mülkündən gözləmə əta.**

Üzlət təcrid həyatı deməkdir. Əfsanəvi ənqa quşu isə bu həyatın sakinidir. Qaf dağı isə təcrid, tənhalıq həyatının ali mərtəbəsidir. Şair insana ənqa quşu timsalında təcrid həyatının Qaf dağına qonmağı, Süleyman mülkü nümunəsində isə bu fani aləmdən heç nə ummamağı məsləhət görür.

**Kəmər belində Süleyman qarışqaya qul olar,**
**Onun qarışqa kəmərbəstəsi olarsa əgər.**

Süleyman kəməri belinə bağlayıb qarışqaya qul olar, bir şərtlə ki, Süleymanın belinə kəməri bağlamağa qarışqanın gücü çatarsa.

**Aləmin vəsfin Süleyman mülkü derlərsə nola,**
**Çün Süleymandan Süleymana qalıbdır yadigar.**

Dünya Süleyman mülkü adını daşısa təəccüblü deyil, çünki O, Süleymnadan bu Süleymana (türk sultanı Sultanına) yadigardır ki, qalmaqda davam edir.

**Mənbə'i-fəzlü hünər məhzəri-asari-qəbul,**
**Asəfi-saniyi-dərgahi-Süleymani-Kərəm.**

Osmanlı hakimlərindən Cəfər bəyə ünvanlanan bu beytdə şair onun şövkəti-cəlalını Süleyman peyğəmbərə oxşar tutaraq göstərir ki, onun hünər və fəzilət mənbəyi böyük xariqələrin təzahür məqamıdır, özü Süleymanın kərəm və mərhəmət dərgahının ikinci Asəfidir.

**Şəhi dünyavü din Sultan Süleymani-mələk-surət**
**Ki, ədl ilə olub varis Süleyman mülküynə varis.**

Din və dünyanın şahı, mələk təbiətli Sultan Süleyman indi ədaləti ilə Süleyman mülkünün varisi olmuşdur.

**Xudadən qeyri acizdir hamı, fərz et Süleymandan,**
**O torpaq uddu kim, daim ona cariydi fərmani.**

Allahdan başqa nə varsa, hamı acizdir, Süleymandan ibrət al ki, Onu da torpaq uddu, halbuki, onun az qala torpağa da fərmanı yeriyirdi.

**Əgər bir şəxs insandır, yetər qorxsa bir Allahdan,**
**Əgər divdirsə qorxmaz toplasan da yüz Süleymani.**

Yəni Allahdan qorxmayan yalnız insanlıq adını daşımağa layiqi olmayanlar ola bilər. Yüz Süleyman gəlsə də belə divxislət adamların ürəyinə Allah qorxusu sala bilməz.

**Təriqi-Kərbəla, Rahi-Nəcəf bir rəhbər istərdi,**
**Bu yolda gördü Həqq Xizr olmağa sultana ərzani.**

Xızır təkcə əfsanəvi dirilik suyundan içib əbədi həyat qazanmış bir peyğəmbər olmaqdan başqa həm də xeyirxahlıq rəmzi kimi göz önünə gətirilir. Belə ki, Sultan İbrahimi beytində öyən şair Kərbəla təriqinin və Nəcəf yolunun bir rəhbərə möhtac olduğunu, bu işə Haqqın İbrahimi layiq bildiyini oxucuya çatdırmaq istəyir.

**Sənə tabe olan çəkməz məlalü möhnəti-aləm,**
**Nə ğəm zülmat vəhmindən ona kim, Xizr rəhbərdir.**

Şair Əyas paşanı indi Xızır peyğəmbərinə oxşar tutaraq göstərir ki, sənə tabe olan nə dünyanın dərd və möhnətini çəkər, nə də zülmat vahiməsindən qəm-qüssəyə düçar olar, çünki sənin kimi Xızır ona rəhbərlik etməkdədir.



**Dutalım sətrdir əyanə hicabi-zülmət,**
**Xizrdən abi-həyatı necə ixfa eylər.**

Fərz edək ki, zülmət hər şeyi gizlədib görünməz edir, bəs belə olanda bu zülmət hicabı zülmət pərdəsi abi-həyatı Xızrdan necə gizlədə bilər.

**Faniyi-mütləqəm, qəbul etmən**
**Minnəti Xızr ilə zülali-bəqa.**

Mən öz könül istəyi ilə faniliyə qovuşmuşam, Xızrıdan minnət ilə bəqa suyuna yaxın durmaram.

**Sərasər qıldı əczayi-zəmin əmvatını əhya**
**Məgər bir cür'ə abi-Xızr idi hər qətreyi-baran?**

Gecə-gündüz torpaq tərkibbətərkib sənin əmvatına – ölənlərinə bir dirilik, baqilik bəxş etdi, bəlkə bu yağışın hər qətrəsinin bir qurtumu Xızır suyu olmağının nəticəsidir? – deyən şair yenə də tərif saçan nəzərlərilə İbrahim bəydən xəbər alır.

**Xızr səndən məsləhət alsa, qəbul etməz yəqin**
**Minnəti dirlik suyundan, çün tapar onsuz bəqa.**

Rüknəddinə xitabən deyilən bu beytdə şair bildirir ki, əgər Xızır səndən məsləhət istəsə, dirlik suyundan yəqin ki, minnət götürməz, çünki sənin məsləhətin onsuz da Xızra əbədiyyət bəxş edəcəkdir.

**Verir tə'mir mülki-bayirə barani-ehsani,**
**Nəçük kim, abi-Xızr əmvati həyyi-cavidan eylər.**

Misralarda Əlvənd bəyin böyük səxavətindən söhbət açılır. Yəni sənin ehsan yağışın ölgün, həyat əlaməti olmayan bir mülkü elə tə'mir edib canlandırır ki, sanki Xızrın dirilik suyu ölülərə eləcə əbədi həyat bəxş edir.

**Yəqin ki, Xizrin «ətəş» naləsi çıxardı göyə,**
**O dilbər abi-həyata olaydı gər səqqa.**

Şair öz istəklisini «dilbər» adlandırmaqla onu abi-həyatın sahibi kimi görür və əmin edir ki, o dilbər abi-həyatın – dirilik suyunun səqqası – su paylayanı olsaydı Xızrın «ətəş» nalələri asimana səs salardı.

**Pənceyi-əzmdədir qüdrəti-islahi-fəsad,**
**Sehr dəf'in mədədi-mövcüzi-Musa eylər.**

Şairin bu gözəl beyti insanları inandırır ki, hər cür fəsadı rədd etməyin yolu əzmkar olmaqdadır, səy göstərməkdədir. Necə ki, sehrkarların sehrinin dəf edilməsi Musa möcüzəsinin köməyi ilə mümkün oldu.

Həzrəti Musa Misir padşahı Firona tək olan Allaha iman gətirmyi təkidlə başa salırdı. Firon buna yol verməmək, yəni Həzrəti Musanın yalançı olduğunu sübut etmək üçün əmr etdi ki, meydan qurulsun və ölkənin bütün sehrkarları oraya yığışıb öz məharətlərini və Musa da öz bacarığını nümayiş etdirsinlər. Hansı tərəf qalib gəlsəydi, Firon da onun tərəfində olacaqdı. Deyilən kimi də olur. Misir sehrkarları əllərindəki ipləri yerə atırlar, iplər bir anda qorxunc qıvrılan ilanlara çevrlirlər. Sehrkarlar öz sehrlərinin baş tutduqlarını zənn edərək Həzrəti Musaya üstün gəldiklərini güman edirdilər. Lakin onlar yanılmışdılar. Allah-təalanın rüsxəti ilə Musa əlindəki əsanı yerə atdı. Əsa dərhal nəhəng bir əjdahaya çevrilərək sehrkarların ilanlarını bir göz qırpımında uddu və beləliklə Həzrəti Musanın möcüzəsi küfr və batil hesab edilən sehri o anda məhv etdi (sehr, cadu batil, möcüzə isə Allahın peyğəmbərlərə əta etdiyi bir ilahi nemətdir).

**Kəlim əsası ilə Tur sirrini xəlqə,**
**Mənim iti qələmimlə sözüm açarsa əgər.**

Füzuli böyük və haqlı bir cəsarətlə burada qələminin və sözünün qüdrətini vəsf edir, qələmini Musanın əsasının və sözünün Tur dağının sirrini adamlara açmaq gücündə olduğunu göstərir. Beytdə «Kəlim» sözü Həzrəti Musaya verilən ləqəbdir. Həzrəti Musa Allahla dili ilə danışan yeganə peyğəmbər olduğu üçün ona «Musayi-Kəlimullah» – yəni Allahla kəlmə kəsən Musa adı vermişlər.

Kəlimin əsasının sırri bizə mə'lum oldu; yuxarıda əsanın əjdahaya çevrilib sehrkarların ilanlarını udması həmin bu sirrdir. Turun sirri isə odur ki, bir gün Həzrəti Musa öz qövmünün tələbi ilə Allahdan «Üzünü mənə göstər səni görüm» – deyə rica edir. Allahdan «Ləntərani» – məni görə bilməzsən sədası



gəlir. Lakin peyğəmbəri məyus etməmək üçün ona Tur dağına baxmağı əmr edir. Musa dağa baxanda Allahdan bir nur Tur dağına nazil olur və dağ bir anda dağılıb göyə sovrulur. Məhz bu keyfiyyətlər fonunda Füzuli öz qələmini Həzrəti Musanın əsasına, çomağına, sözünü isə Həzrəti Musanın «Allahım, üzünü mənə göstər, sənə baxım» xahişinə bərabər tutur.

**Belə soyuqda oda sal nəzər Kəlim kimi,**
**Gözündə ta ki, ola nura qərq arizi-yar.**

Həzrəti Musaya peyğəmbərlik verilməsi əhvalatına işarə vurulsa da əslində şair oxucusunun diqqətini hadisənin əxlaqi və fəlsəfi cəhətinə yönəldir. Əhvalat belədir: Həzrəti Musa ailəsilə birlikdə yol gedərkən gecəyə düşür və hava soyuqlaşır. Həzrəti Musa uzaqdan bir alov şölələndiyini görür və ailəsinə deyir ki, gedib o oddan gətirim ki, ocaq düzəldək və həm də ətraf işıqlı olsun. Musa yaxınlaşıb görür ki, alov yerdə bitən bir ağacdan şölələnir. Həmin oddan götürmək istəyəndə alovdan Allah-təalanın ona müraciətən sözlərini eşidir: «Ya Musa! Mən həqiqətən aləmlərin və sənin Rəbbin olan Allaham»

Əhvalat əsasında şair insanları bu hadisənin bəşəri, mə'nəvi məzmunu ilə tanış etmək istəyir, yoxsa hamıya mə'lum olan bir vaqeəni nə üçün şair yenidən qələmə alsın? Belə soyuqda oda nəzər sal ki, orada yarın nura bürünmüş cəmalı sənin gözünə görünə! Mənəvi və əxlaqi mənada «soyuq» insanı Allahından kənar edən mühitdir. «Od» isə maddi aləmin bütün zərrələridir, hər bir zərrədə yarın, yəni Allah təalanın cəmalı həkk olunmuşdur ki, o da insanın gözünə bəsirət nuru ilə görünə bilər. Allahın varlığını duymaq üçün hökmən onun xəlq etdiyi varlıqlara qəlb gözü ilə baxmaq lazımdır.

**Tiği Musanın əsası tək zühur etdikdə, bil**
**Sehrdə hər cür düyün varsa olar fani, hədər.**

Beytdə Həzrəti Əlinin «Zülfüqar» qılıncına işarə olunur: əgər tiği (Əlinin qılıncı) Musanın əsası kimi zühur etsə sehrdə bütün düyünləri məhv edər. Şair zülfüqarı Musanın əsasına, kafirləri də Musanın üzləşdiyi sehrlə oxşar tutur. Musanın əsası sehrin bütün düyünlərini necə məhv edibsə, Əlinin qılıncı qınından sıyrılsa bütün kafirləri və onların bəd əməllərini eləcə məhv edər.

**Tapar Həqq axtaranlar Həqqi Fir'onun cəmalından,**
**Bu işdə möcüzə vadar edər Firon Musani.**

Şair bizi başa salır ki, Fironun əməlləri o qədər Allahdan uzaq idi ki, allahsızlıq onun üzündə hazırca oxunurdu. O, yeni bir allahsızlıq yoluna qədəm qoyaraq bütün dinlərdə batil bir iş hesab edilən sehri işə saldırdı ki, bəlkə bu yolla Həzrəti Musanın dediklərini yalana çıxarsın. Bu da öz növbəsində fəsad nümunəsi olan sehri məhv etmək üçün Musanı möcüzəyə əl atmağa vadar etdi.

**Gəl indi od içinə qoy qədəm Xəlil kimi,**
**Varsa arzun əgər od sənə ola gülzar.**

Beytdə İbrahimxəlil peyğəmbərlə əlaqədar məşhur hadisəyə işarə olunur ki, bu barədə biz əvvəllərdə söhbət açmışıq. Şair bu vaqeəyə eyham vurmaqla bildirmək istəyir ki, əgər insan İbrahim peyğəmbər kimi oda atılıb yanmaq əvəzinə odun onun üçün güllüyə çevrilməsini istəyirə onda o bütün ömrümü paklaşmaq, saflaşmaq yolunda olmalıdır, var gücü ilə Allaha doğru irəliləməlidir, Onun sevimlisi olmalıdır.

**Sənin dərgahinə gəldi, buraxdı başqa dərgahi,**
**Olub xaki-xəlilullahə sanki bir fəqir mehman.**

Beyti şair özünə bir növ həsr edərək maddi, heç bir vəfası olmayan bir aləmin dərgahını atıb Allahın dərgahına təşrif buyurduğunu bildirir və bunu İbrahim Xəlilullahə bir fəqirin mehman olmasına bənzədirmiş. Deyilənə görə İbrahim peyğəmbərin evində həmişə fəqir-füqəralar qonaq kimi yurd salarmışlar. Rəvayət olunur ki, İbrahim əleyhissəlam yeməyi heç tək yeməzmiş. Hətta adam olmadıqda küçəyə çıxar, kimisə onunla nahar etməyə dəvət edərdi.

**Atəşdir onun surəti, təşbihə gəlincə,**
**Xal isə Xəlildir ki, xətər görməyir ondan.**

Beyt Məhəmməd sələvatullaha həsr edilmişdir. Ulu peyğəmbərimizin çöhrəsində mübarək qara xalı var imiş. Şair də təsdiq edir ki, bənzətməyə gələndə onun üzü bir oddursa, xalı bu oddan xətər görməyən Xəlildir. Bilirik ki, İbrahimxəlil peyğəmbər oda atılsa da od onu yandıra bilməmişdir, yəni Allahın əmri ilə gülzara çevrilmişdir.



**Gəh Zəkəriya kimi çəkmiş çox cəfalər bıçqıdan,**
**Gəh büti-Azər kimi olmuş giriftari-təbər.**

Bizə çatan mə'lumatlardan bilirik ki, bir qism peyğəmbərlər, o cümlədən Zəkəriyya peyğəmbər, oğlu Yəhya peyğəmbər öz qövmləri tərəfindən öldürülmüşlər. Misranın birinci beyti bu məsələyə aiddir. İkinci misra daha dramatikdir. Əfsanəyə görə İbrahim peyğəmbərin Azər adlı ana babası var imiş. Azər şəhərin məbədi üçün lazım olan bütləri taxtadan hazırlayarmış. Hələ İbrahim uşaq olarkən sanki onun gələcəkdə peyğəmbər olacağının əlaməti kimi babası Azərin düzəltdiyi bütlərə ip bağlayıb ardınca sürüyər və əylənərmiş.

Həzrəti İbrahim öz qövmünün bütpərəstlikdən əl götürüb bir olan Allaa tapınmasına çox çalışırdı. Lakin onlar İbrahimə qulaq asmır, hətta onu dəli də hesab edirdilər. Bir gün, ənənəyə görə bayramı şəhərdən kənarda keçirmək üçün əhali şəhəri tərk etmişdi. Şəhərdə təkcə İbrahim qalmışdı. O, fürsətdən istifadə edib baltanı götürərək məbədə girmiş və Azərin hazırladığı bütlərin hamısını doğramışdı. Əhali qayıdıb bütləri doğranmış görüb İbrahimi bu işdə günahkar bildilər. Bundan sonra zalım padşah Nəmrud İbrahimi oda atmağın əmrini edir.

Bu beytin isə kimə və nəyə ithaf olunduğunu aydınlaşdıra bilmədik.

**Əhli-tüğyanə əsər eyləyəməz giryeyi-Nuh,**
**Gərçi hərdəm oları vaqifi-tufan eylər.**

Nuhun nalələri zülmü ilə tüğyan edənlərin halına təsir eləməz, baxmayaraq ki, həmişə onlar tufanın nə olduğundan xəbərdar idilər. Yəni zülm əhli məzlumların nalələrini veclərinə almırlar, hərçənd bilirlər ki, bu göz yaşları gələcəkdə onlar üçün bir Nuh tufanı olacaqdır.

**Sən verirsən yazığa, bikəsə aləmdə qida,**
**Necə xurma ağacından yedi ruzi Məryəm.**

Şair Osmanlı hakimlərindən Cəfər bəyə ithaf etdiyi bu beytində onun binəsibləri, kimsəsizləri necə yedirib qayğı əhatəsinə aldığını öyür, onun ruzisi ilə dolananları Məryəm ananın xurma ağacının bəhəri ilə yeyib dolanmasına bənzədir.

Yeri gəlmişkən, rəvayətdə bəhs olunur ki, Həzrəti İsaya hamilə olan Məryəm ananın doğuş sancıları başlayır. Taqətsiz halda yeriyən Məryəm qəfildən onun qarşısında peyda olan qurumuş xurma ağacının budağından yapışır ki, yıxılmasın. Nəhayət vaxt-vədə tamam olanda Məryəm ana bari-həmlini yerə qoyur və İsa dünyaya gəlir. Məryəm ana yeməyə heç nə tapmayanda Allahdan ona səda gəlir ki, xurma ağacının budağını silkələyib yerə tökülən xurmaları yığıb yesin. Məryəm belə də edir. Maraqlı cəhət burasıdır ki, Allah xurma ağacını Məryəmə ona görə qismət etdi ki, xurma çox qüvvətli qidadır, zəifləmiş bədəni gücləndirir, həm də xurmada qanı kəsmək keyfiyyəti vardır ki, bu da Məryəm anaya hökmən lazım idi.



# TƏXMİSİ-QƏZƏLİ-FÜZULİ

**(on ikinci imam Mehdi Sahibəzzəman (ə.s.) xüsusunda)**

Təşneyi-vəslinlə el didarın eylər arizu,
Cənnət asa məqdəmi-gülzarın eylər arizu,
Hüccət içrə mahi-pürənvarın eylər arizu,
«Bülbüli-dil gülşəni ruxsarın eylər arizu,
Tutiyi-can lə'li-şəkkərbarın eylər arizu».

Hicrivün hər sübhü şamilə xoş olmaz xatirim,
Xətti-tumari-kəlam ilə xoh olmaz xatirim,
Müttəsil naib səlamilə xoş olmaz xatirim,
«Nameyi-qasid pəyamilə xoş olmaz xatirim,
Öz ləbindən ləhceyi-göftarın eylər arizu».

Nurın ilə nurlanar göylər sənə heyran olan,
Haqqa canın ərməğan eylər sənə heyran olan,
Vəsfini hər ruzü şəb söylər sənə heyran olan,
«Sərvü gül nəzzarəsin neylər sənə heyran olan,
Arizinlə qəddi-xoşrəftarın eylər arizu».

Olmaya Dəccali-Said xəlqə, haşa, yar ola,
Dövləti-didarə pasiban onun tək mar ola,
Vəsləti-ruzi-fərəcdən dərdimə timar ola,
«Arizu eylər ki, mən tək müttəsil bimar ola,
Kim ki, vəsli-nərgizi-bimarın eylər arizu».

Hüccətinlə pak olar aləm riyadən dəmbədəm,
Dəm vurar həm feyzi-dildən, həm səfadən dəmbədəm,
Can tapar arami-can, səbri-cəfadən dəmbədəm,
«Hicr bımari-tənim badi-səbadən dəmbədəm,
Sihhət üçün sihhəti-əxbarın eylər arizu».

Qeybətin hicran odunda qərq edib hər mərdümi,
Eyni dərdin mübtəlası gördüm hər həmdərdimi,
Bircə Hüccət dəf edər çöhrəmdə ruyi-zərdimi,
«Zülməti-hicrində baxmaz şəm'ə çeşmim mərdümi,
Pərtovi-ruxsari-pürənvarın eylər arizu».

Ayrılıqdan hər ürək dərdli, könüllər xəstədil,
Hamı vəslin təşnəsi, yoxluq qəmilə xəstədil,
Təkcə Amildirmi hicranınla düşkün xəstədil
«Arizuməndi-visalındır Füzuli xəstədil,
Vəslin istər, dövləti-didarın eylər arizu».

**Hacı Amil**



## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Axund Hacı Soltan Hüseynqulu oğlu. Həzrəti Əli (ə) və dünya ədəbiyyatı. Bakı, «Tural-Ə» nəşriyyatı, 2001.
2. Axundzadə Əbdülsalam. Müqəddəs peyğəmbərlər tarixi. Azərnəşr, 1993
3. Abbasov M. Söz sənətinin mahir rəssamı – Məhəmməd Füzuli. Məqalələr məcmuəsi. Bakı, 1958, səh.272-281.
4. Azadə R. Azərbaycan epik şerinin inkişafında Füzuli yaradıcılığı. Bakı, 1975, səh.196-222.
5. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı,1958.
6. Arasılı H. Füzulinin qəsidələri Ön söz. M.Füzuli əsərləri. Əsərləri 5 cilddə. IY cild. Bakı,1961, səh.521.
7. Araslı H. Füzulinin müəmmaları haqqında. Nizami adına ədəbiyyat institutunun əsərləri. 1946, I cild, səh.27-33.
8. Araslı H. Ən qədim və mükəmməl Füzuli divanı. Bakı, 1958, səh.3-10.
9. Arif M. Azərbaycan xalqının ədəbiyyatı. Bakı, 1958. M.Füzuli yaradıcılığı haqqında, səh.20-24.
10. Bəlaqi S. Quran qissələri. Bakı, 1992.
11. Balayev Məhəmməd. İslam və onun ictimai-siyasi həyatda rolu. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1991.
12. Bünyadov Z. Füzuli dühasının işığı. Ön söz. Füzuli. Mətlə'əle etiqad. Bakı, 1987, səh.3-4.
13. Cavad He'yət. «Məhəmməd Füzuli» oçerki. Doktor Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı, 1993, səh.43-62.

14. Cəfər Ə. Füzuli şerinin vəzni – Məhəmməd Füzuli. Məqal. Məc. Bakı, 1958, səh. 80-138.

15. Cəfərov C. Füzuli düşünür. Ədəbi-tənqidi məqalələr. Bakı, 1959.

16. Cə'fəri-Sadiq (ə). Şəriət çırağı. «Təbib», 1997.

17. Çobanzadə B. Füzuli və onun yeri. Məhəmməd Füzuli. Məqal.məcm. Bakı, 1958, səh.364.

18. Dəstğeyb Əbülhüseyn. Məad (ölümdən sonrakı həyat). «Darülkitab» nəşriyyatı, 1997, İran. Qum.

19. Əhmədov Əhmədağa. İslam əxlaqı. «Maarif» nəşriyyatı, 1993.

20. Əli ibn Əbu Talib. Nəhcül-Bəlağə. «Sabah», Bakı, 1993.

21. Əmini İbrahim. Bütün müsəlmanlar bilməlidir. İran, Qum, 1991.

22. Əhmədov Əhmədağa. Nizami-elmşünas. Bakı, 1992.

23. Əhmədov Əhmədağa. Dürəfşan kəlamlar. Bakı, 1996.

24. Əliyeva S. Füzulinin poetikası. Bakı, 1986.

25. Əkbərov Z. Füzuli sənətinin qüdrəti. Klassik irs və müasir ədəbiyyat. Bakı, 1988, səh.27-36.

26. Füzuli Məhəmməd. Əsərləri. Y cilddə. Azərbaycan SSR Elmlər Akademiyası. Bakı, 1958-1961.

27. Füzuli Məhəmməd. Hədiqətüssüəda. Bakı, Gənclik, 1993.

28. Feyzullayeva V. Füzulinin qəsidələri. Bakı, «Elm», 1985.



29. Faseh Ramiz (Paşayev). Füzuli şerində təsəvvüfi qaynaqlar. Bakı, «Elm». 2000.

30. Fəhmi Ə. Füzuli qəzəllərinin bəzi poetik xüssiyyətləri haqqında. Məhəmməd Füzuli. Məqal. məc. Bakı, 1958, səh.250-271.

31. Həmədani, Əhməd Səbri. İslamda əhli-beyt yolu. Bakı, 1995.

32. Həmədani, Əhməd Səbri. İslamda Cə'fəri məzhəbi və İmam Cəfəri Sadiqin buyruqları. Bakı, «Elm», 1991.

33. Xamənei Seyid Əli – Vilayət. İran İslam Cümhuriyyəti, 1996.

34. Xaməneyi Seyid Əli. Quranda islami düşüncənin siması. İran, 1996.

35. Xəndan C. Füzuli və XX əsr Azərbaycan ədəbiyyatı. Ədəbi qeydlər, 1966.

36. Ислам. Историографические очерки. Под. ред. С.М.Прозо-рова. Москва, «Наука», 1991.

37. İbrahimov M. Məhəmməd Füzuli. İbrahimov M. Əsərləri 10 cilddə. Bakı, 1983, səh.366-386.

38. İbrahimov M. Məhəmməd Füzulil - İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı, 1961, səh.419-439.

39. İbrahimov M. Füzuli haqqında dəyərli tədqiqat. İbrahimov M. Əsərləri. 10 cilddə. Bakı, 1983, səh.414-421.

40. Köçərli F. Füzuli Məhəmməd – Azərbaycan ədəbiyyatı tarixi materialları. I cild. I k. Bakı,1925, səh.15-31.

41. Kermani Salehi. Ədalətin qurbanları. İran, Qum, 1992.

42. Qumi Şeyx Abbas. Sahibəzzəman. «Əl Mehdi» müəssisəsi. 1998, 2000.

43. Qurani-Kərim. Azərbaycan dilinə tərcümə. Z.Bünyadov, Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1991

44. Qasımova Aida. Məhəmməd peyğəmbərin meracı. Bakı, «Yazıçı», 1994.

45. Qasımzadə F. «Qəm karvanı» və ya zülmətdə nur. Füzulinin dünyagörüşü. Bakı, 1968.

46. Quluzadə M. XY-XYI əsrlər Azərbaycan ədəbiyyatı. Füzuli oçerki – Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. I cild, Bakı,1960, səh.351-441.

47. Quluzadə M. Füzulinin lirikası. Bakı, 1965.

48. Məlikov Amil. «Deyildim mən sənə mail» Məhəmməd Füzuli haqqında monoqrafiya. Bakı, «Adiloğlu» nəşriyyatı. 2005

49. Mir Cəlal. Füzulinin sənətkarlığı. Bakı,1958.

50. Mirəhmədov Əziz. Füzulinin qəzəlləri. Yazılar, talelər, əsərlər. Bakı, 1978, səh.84-99.

51. Nəsimi İmadəddin. Seçilmiş əsərləri. Bakı, Azəprbaycan Dövlət Nəşriyyatı, 1973.

52. Niya, Xosrov Təqqəddüsi. İmam Hüseynin (ə) hərəkatı haqqında 72 sual. «Əimmə» – 1998.

53. Peyğəmbərə 40 sual. Bakı, «Bilik», 1993.

54. Sübhani-təbrizli, Cə'fər. Allah və peyğəmbərlər. Qum, 1993.

55. Sübhani Cə'fər. Şiə əqidəsinin əsasları. İran.



56. Səfərli Ə. «Məhəmməd Füzuli» Oçerkləri – Səfərli Ə., Yusifov Y. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1982, səh.221-287.

57. Tərlan, Əli Nihad. Füzuli divanının şərhi. Ankara, 1985.

58. Talıbov M.Ə. Səma elçisi. Məhəmməd peyğəmbərin tarixi. Bakı, 1991.

59. Tusi Xacə Nəsirəddin. Əxlaqi-nasiri. Bakı, «Elm», 1989.

60. Topbaş Osman Nuri. Mövlana dərgahından əsintilər. Gənclik, 1997.

61. Yəzdi Misbah. Tövhid islamın və dəyərləndirmə sistemində. Qum, 1996.

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş ........................................................3

1. Füzulinin beytlərində Məhəmməd peyğəmbər (s.ə.ə.) və onun əhli-beytinin tərənnümü...........85

2. Füzuli şeriyyatında digər din müqəddəslərinin mədhi..................................................86

İstifadə olunmuş ədəbiyyat ............................. 117



HACI AMİL MƏLİKOV

FÜZULİ ŞERİYYATINDA İSLAM ƏHLİ-BEYTİNİN VƏ DİGƏR DİN MÜQƏDDƏSLƏRİNİN TƏRƏNNÜMÜ

**Dizayner: Süleyman İsgəndərov**
**Bilgisayar tərtibatçı: Rahilə Məmmədova**

Çapa imzalanmışdır: 30.12.2006
Kağız formatı: 60x84 1/16
Həcmi: 7,75 ç.v., Sifariş: 722; Sayı: 100

Kitab "ADİLOĞLU" nəşriyyatında
nəşrə hazırlanmışdır
*Ünvan: Bakı şəh., Nizami küç., 96/12*
*Tel.: 498-68-25; faks: 498-08-14,*
*Web: www.adiloglu.az; E-mail: info@adiloglu.az*

"TS" mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla çap edilmişdir
Ünvan: İ Məmmədov küçəsi, 1059;
*Tel.: 418-68-25*